Gürsoy, Ü. (2014) Bahtiyar Vahapzâde'nin Şiirini Besleyen Kaynaklar, Bahtiyar Vahapzâde Anısına I. Uluslararası Türk Dili ve Edebiyatları Öğretimi Sempozyumu Bildirileri. Haz. İsmet Çetin. Türk Tarih Kurumu.

Herevi, Abdullah Ensari. (2019) Menâzilü's- Sâirin, Terc. Abdürrezzak Tek, İstanbul: Nizamiye Akademi.

İbrahimov, N. (2000). Bahtiyar Vahapzâde, Azerbaycan Neşriyyatı.

Gelman, J. (2011) "Mysticism", The Stanford Encyclopedia of Philosophy.

Muradov, N. (ts.). "Türk Dünyasının Milli-Manevi Değerleri ve Bahtiyar Vahapzâde", Türk Dünyası Dil ve Edebiyat Dergisi, S.31.

Kuşeyri, A. (2003). *Kuşeyri Risalesi*, Haz. Süleyman Uludağ, İstanbul: Degah Yayınları.

Sühreverdi, Şehabettin Ömer (2014) *Avârifü'l Maârif*, İstanbul:Semerkant Yayınları.

Vahapzade, B. (1993) *Şiirler Sonbahar Düşünceleri*, Ankara: Kültür Bakanlığı Yayınları.

(1999) *Vatan Millet Anadili*, Atatürk Kültür Merkezi Başkanlığı Yayınları.

(2000) *Ömürden Sayfalar*, İstanbul: Ötüken Neşriyat

(2002) "Tasavvuf", *Altınoluk Dergisi*, S. 198.

Underhill, E. (2012). *Mysticism:* A Study in the Nature and Development of Spiritual Consciousness.

Yaman, E. (1998). "Bahtiyar Vahapzade", *Türk Dünyası Ortak Edebiyatı*, Ankara: Türkiye Diyanet Vakfı Yayınları.

# BAHTİYAR VAHAPZADE'NİN VATANSEVERLİK RUHU

THE SPIRIT OF BAHTYAR VAHAPZADE PATRIOT

***Yunus EKİCİ***

*Dr. Öğr. Üyesi, Osmaniye Korkut Ata Üniversitesi, Kadirli Sosyal ve Beşerî Bilimler Fakültesi, Bilgi ve Belge Yönetimi Bölümü, Osmaniye, Türkiye*

*ORCID NO: 0000000163006555*

**ÖZET**

Azerbaycan'ın yetiştirmiş olduğu en büyük şairlerden biri olan Bahtiyar Vahapzade, güçlü bir şair olmanın yanı sıra fikir adamı, hatırı sayılır entelektüel ve aynı zamanda Türk dünyası ve Türkiye'de tanınan yeri geldiğinde güzellikler karşısında sevinen, olumsuz durumlar karşısında da ıstırap ve çile çeken bir düşünürdür. Azerbaycan şiirine büyük katkı sağlayan ve yüksek bir vatanseverlik duygusuyla şiirlerini kaleme alan bu büyük sanat adamı aynı zamanda sanatsal düşüncenin ve çağdaş edebi sürecin toplum hayatındaki rolüne de büyük katkı göstermeyi başarmıştır. Eserlerinin her sayfası Anavatan'ın varlığının bir ifadesidir. Allah'ın lütuf çağının yeteneği sayesinde duygularını ustaca sanatsal bir şekilde ifade etmiştir. Bu bildiride Bahtiyar Vahapzade'nin kişisel duygulara kapılmayan, Azerbaycanlıları tek bir vatan-devlet-bayrak-millet ideolojisi ile birleştiren, büyük bir vatanseverlik ruhunun katkıları üzerinde durulacaktır.

**Anahtar Kelimeler:** Bahtiyar Vahapzade, Fikir Adamı, Şair, Vatanseverlik.

**ABSTRACT**

Azerbaijan is one of the greatest poets who taught Vahapzade Bahtiyar, powerful idea in addition to being a poet, the man of considerable intellectual and at the same time, is recognized in the world and Turkey when Turkish beauty in the face of joyful, suffering and anguish in the face of negative situations is a thinker. This great man of art, who made a great contribution to Azerbaijani poetry and wrote his poems with a high sense of patriotism, also managed to make a great contribution to the role of artistic thought and the modern literary process in public life. Each page of his works is an expression of the existence of the Motherland. Thanks to the talent of the age of grace of Allah, he skillfully expressed his feelings in an artistic way. In this statement, the contributions of Bahtiyar Vahapzadeh's great patriotic spirit, which does not give in to personal feelings, unites Azerbaijanis with the ideology of a single homeland-state-flag-nation, will be emphasized.

**Keywords:** Bahtiyar Vahapzade, Man of Ideas, Poet, Patriotism.

## 1.GİRİŞ

Bahtiyar Vahapzade yalnızca Azerbaycan'ın değil tüm Türk dünyasının önde gelen sanat ve fikir adamları arasında çoktan beri yerini almış ve 1925 tarihinde Şeki'de doğmuştur. Bu dönemlerde Azerbaycan'da Sovyet rejimi iyi kötü yerleşmeye başlamış sıra kolektifleştirmenin uygulanmasına gelmiştir. Azerbaycan'ın birçok yerinde olduğu gibi Şeki'de de millet kolektifleştirmeye katı bir şekilde karşı çıkmıştır. Özellikle 1932 tarihinde ayaklanan halk; şehri ele geçirmiş fakat şehri bir hafta sonra kontrol altına alan Sovyet hükûmeti, bazı isyancıları evinde sakladığı için Vahapzade'nin dedesini hapse atmıştır. Bir yakınlarının kefil olmasıyla hapisten kurtulan dedesi, ailesini alarak Türkistan'a geçmiştir. 1934 tarihinde ortalık biraz sakinleşince Bakü'ye dönmüşlerdir. Böylelikle daha küçük yaşlarından beri Sovyet yönetiminin sert ve acımasız yüzüyle karşılaşan Bahtiyar Vahapzade, 1942 tarihinde Bakü'de orta öğrenimini bitirdikten sonra

Tıp Fakültesine girmiş ancak burada okumayarak 1947'de Bakü Devlet Üniversitesinin Filoloji Fakültesinde yüksek öğreninini tamamlamıştır. Başarılı öğrenciliği hasebiyle asistan olarak üniversitede kalmıştır. Vahapzade bilim adamı olarak 1951'den emekli olduğu 1990'a yılına kadar üniversitede öğretim kadrosunda farklı görevlerde çalışmıştır. O hem şair hem de bilim adamı olarak gösterdiği başarılar nedeniyle çeşitli unvanlara, mükâfatlara layık görülmüştür. Azerbaycan'ın bağımsızlığına kavuşmasından sonra 1995'te millî mücadeledeki hizmetleri sebebiyle de "İstiklal" nişanıyla ödüllendirilmiştir (Akpınar, 2011, s.12).

Bahtiyar Vahapzade, Azerbaycan şiirinin son dönemlerdeki en büyük temsilcilerinden biridir. Uzun yaşamı süresince kendini edebiyata ve şiire adamış bu büyük insanın 'Azerbaycan'ın vatan şairi', 'istiklal şairi' gibi sıfatlarla anılması onun Azerbaycan'ın yalnızca edebî yaşamında değil aynı zamanda politik hayatında da oldukça mühim bir yere sahip olduğunu göstermektedir. Şiirleri derin bir duyuşun, büyük bir hüznün ve bir milletin uyanışının ifadelerini taşımaktadır. Bahtiyar Vahapzade, şiirlerinin kaynağını milletinden almış ve bu sebeple de yazdığı her mısrada Azeri Türkünün gören gözü, duyan kulağı, söyleyen dili olmuştur. Şair, ilham kaynağının kendi halkı olduğunu ve Azeri Türklüğüne olan hayranlığını şöyle ifade etmektedir: "Azerbaycan'a şairler ülkesi denilir. Sekiz yüz yıl evvel Nizami, Hakani, altı yüz yıl evvel Nesimi, dört yüz yıl evvel yaşamış olan Fuzuli dünya şiirinin bahadırlarıdır. Halkımızın sözlü edebiyatı daha zengindir. Destan ve masallarımız eski medeniyetimizden haber verir. Atasözlerimiz derin anlamlar taşır, manilerimiz incedir. Bütün bu sanat abideleri ile tanışıp, onları derinden derine öğrendikçe halkımızın karşısında secdeye kapanıp Azerbaycanlı olduğumla gurur duyuyorum" (Adıgüzel, 2011, s.63-64).

Haydar Aliyev'in siyasi egemenliğinin ikinci aşamasında halk şairi Bahtiyar Vahapzade bağımsızlık dönemi Azerbaycan parlamento üyesi ve seçkin edebiyat adamı gibi ülkede yapılan milli devletçilik politikasının yürütülmesinde aktif olarak görev almıştır. Yaranmış uygun bir ortamda yıllardan beri birikmiş özgürlükçü düşünme denemesi geniş bir biçimde gerçekleştirilmiştir. Bu hususta Bahtiyar Vahapzade Azerbaycan aydınlar ortamının en ünlü ve yönlendirici şahsı olmuştur. Özgürlük şairi özgürlüğe kavuşmuş ülkenin milli özgür edebiyatının değerli örneklerini ortaya çıkartmıştır. Şairin "Şehitler" adlı eseri Azerbaycan milli istiklâl edebiyatının kusursuz örneklerindendir. Eserde Azerbaycan şehitlerinin simasında milli istiklâl edebiyatının kahramanlarının görüntüleri yansıtılmıştır Bahtiyar Vahapzade vatan uğruna şehit olmuş Azerbaycan şehitlerinden, ana toprağın bahçesine özgürlük tohumu serpen milli kahramanlar gibi söz açmıştır ((Habibbeyli, 2010, s.112).

Bahtiyar Vahapzade, özelde Azerbaycan Türklüğünün genel anlamda ise tüm Turan birliğinin sorunlarını, dertlerini, acılarını, beklentilerini, hayal ve umutlarını dillendiren bir dava şairidir. Şiirleri, fildişi kulesinden alıp kavga meydanlarına, er meydanına, millet meclisine ve sokaklara kadar taşımıştır. Kendisi şiirlerini hassas bireysel duygulanımların titrek bir ifade alanı olarak görmemiş; Türk davasının gür, tok, sert, kararlı ve azimli bir sesine dönüştürmeyi başarmıştır (Çetin, 2010, s.36-37).

Azerbaycan'ın ve Azerbaycan Türklerinin sevdalısı olan şair, Sovyetler Birliği döneminde çok sert sansürlere, sosyalist gerçekçilik edebî anlayışının sanatçıyı sınırlayan kesin çizgilerine rağmen milletinin yaşadığı acıları, vatan sevgisini ve özgürlük idealini ifade etmekten hiçbir zaman geri durmamıştır. Azerbaycanlı ünlü yazar Anar Rızayev, Bahtiyar Vahapzade ile ilgili düşüncelerini şöyle ifade etmektedir: "Toprağımıza hürriyet, bağımsızlık baharının gelmesini ilk duyan, bu baharın gelmesi için yıllar boyu mücadele veren ve bu baharı ilk selamlayan, müjdeleyen şairlerimizden biri de Bahtiyar Vahapzade'dir." Anar'ın bu ifadeleri ile Vahapzade'nin yukarıda izah edildiği gibi milleti ve vatanı ile ilgili düşüncelerini karşılaştırdığımızda onun ne kadar bağımsızlık düşkünü ve millet sevdalısı bir şahsiyet olduğu anlaşılmaktadır. Vahapzade bağımsızlıktan önce ve bağımsızlıktan sonra yazdığı şiirlerle bu hedeflerini kendinden sonraki kuşaklara aktarma gayreti içerisinde olmuştur (Adıgüzel, 2011, s.63-64).

## 2. VAHAPZADE'NİN VATAN VE MİLLET ANLAYIŞI

Türk edebiyatı, kültür ve dil unsurlarının belirleyici olduğu alanlara doğru genişleyen büyük ve muazzam bir vatan coğrafyasıdır. Bu edebiyatın en özgün seslerinden ve büyük kişilerinden biri olan Bahtiyar

Vahapzade, bizi biz yapan değerler sistemini, bireyin tarihsel varlığını devam ettiren bellek mekânları aracılığıyla mısralarına taşıyan bir sanat adamıdır. Türklüğün sonsuza dek var olması arzusu ile dolu olan sanatkâr, bilir ve inanır ki; milletleşme süreci değerlenme, bir değere dönüşme ve değer kazanma anlamlarını ifade etmektedir. Kendisi öznel değerleri ve evrensel mesajları ile "billurlaşmış" bir milli bilince sahiptir. Vahapzade'nin metinleri, yüksek değerlerin silinmeye çalışıldığı bir zaman ve mekânda, aydınlık, ümit dolu ve güçlü bir direnişin ifadesidir. Vatan sevgisi, haysiyet, şeref, bağımsızlık gibi kutsal değerler dizgesine sahip Türk milletinin düşünselden eylemsele dönüşen şahlanışı, "tarihsel başkaldırması" ile örtüşen bu ateşin ses, ülküleştirilmiş bir öznenin sesidir. Bu özne, kendi ve milleti adına, sınırlandırılmışlığın ve ölümlüğün aşılmasını sağlayan vatan ve millet sevgisi ile kendi oluşunu gerçekleştirir (Eliuz, 2010, s.64).

Millî vatan şuurunun açık şekilde ifade edilme olanağının olmadığı yıllarda bu şuurun olması düşüncesiyle Sovyetlerin algılamaya çalıştığı vatan anlayışına karşı itirazda bulunan şair ve yazarlar tutuklanarak tasfiye edilmişlerdir. 1953 yılından itibaren değişik şekillerde mevcut Sovyet yönetimi eleştirilip sorgulanmaya başlanmış ve Vahapzade'de düzene başkaldıran, azad vatan ve ana dilde konuşmak isteyen birisi olarak sistemi sorgulamaya başlamıştır. Bu bağlamda eskiye yani öze dönüş yollarını aktarmaktadır. Bu yönde vatanperver şairler gibi o da bu yönde bir volkana dönüşmüş, sesini tüm Türk dünyasına duyurmak istemiştir. Çünkü onun için vatan bir anadır, candır (Uzun, 2015, s.12).

Ruhunun her tarafıyla halkına ve milletine aitliğini, bağlılığını ifade eden şair 1985 yılında "Halk Şairi Ödülü''nü bu özelliğinden dolayı almıştır. Halk şairi sıfatına layık olan Bahtiyar Vahapzade ister şiirlerinde isterse de nesirlerinde ele aldığı konularından "vatan, millet, hürriyet, anadili'' gibi konulara her zaman için öncelik vermiştir (Babashova, 2014, s.12). Bahtiyar Vahapzade'nin görüşleri; doğup büyüdüğü bölgenin gelenek ve görenekleri, almış olduğu terbiye ile şekillenmiştir. Küçük yaşlarında yaşadığı hatıralar, şairin dünya görüşünün meydana gelmesinde rol oynarken eserlerinde ele aldığı konular da yaşamış olduğu dönemdeki hadiselerin etkisiyle ortaya çıkmıştır (Karaman, 2009, s.26).

Modern şiirimizin gelişmesinde büyük katkıları ve yaratıcı çalışmaları olan ve Azerbaycan halkının sevgi ve sempatisini kazanan seçkin şair Bahtiyar Vahapzade'nin güçlü şairler grubunda özel bir yeri vardır. Anavatan, özgürlük, bağımsızlık ve millet sevgisi, ünlü şairin eserinde kilit rol oynamıştır. Çünkü şairin eserinin anlam dünyası hürriyet ruhun derinliklerinde saklıdır. Dış dünyaya, toplumsal gerçekliğe, anavatana, insanlara, güzelliğe, tarihi geçmişimize, uluslararası olaylara, doğaya karşı tutumu, sözlerinin temelini oluşturmuştur. Bahtiyar Vahapzade vatanı, özgürlüğü, güzelliği ve aşkı hakkında şarkı söylerken aynı zamanda geçmişin, geleceğin, köklerin, dilin ve bağımsızlık hakkında şiirler yazmıştır. Halkını, vatanını ve özgürlüğünü her şeyin üstünde tutan şair, onun bütünlüğünü ve bağımsızlığını her zaman düşünmüş ve her zaman kimsenin cesaret edemediği bir adım atmıştır. Bu nedenle vatanseverlik, Azerbaycanlılık ve cesaret onun çalışmalarında kilit rol oynamıştır. Bahtiyar Vahapzade sadece yetenekli bir sanatçı değil aynı zamanda bir mücahit ve ulusal kurtuluş hareketinin savaşçısıydı. Halkın ruhunda milli dirilişin ve milli uyanışında şairin rolü ve yeri doldurulamamıştır (Cavadova, 2015, s.88).

Bahtiyar Vahapzade'de vatan sevgisi öylesine bir coşkuya dönüşmüştür ki Azerbaycan'ın kuzey ve güney şeklinde iki parçaya bölünmüşlüğü karşısında son derece sıkıntılıydı. Ona göre bu parçalanmışlık zahiridir, zira vatan toprakları Rusya ve İran arasında bölüştürülmüş olsa dahi gönüller buna asla razılık göstermediğini şöyle dile getirmiştir:

''Könlümüzde bir vahiddir, güneyimiz güzeyimiz,

Veten bizim namusumuz, biz Vetenik, Veten de biz'' (Uzun, 2015, s.12).

Azerbaycan halkının bir gün özgür olacağına inanan ve Azerbaycan'ın bağımsızlığı için mücadele eden Bahtiyar Vahapzade ve onun biricik özgürlük tutkunlarının çabaları sayesinde Azerbaycan yirminci yüzyılda ikinci kez bağımsızlığını kazanmayı başarmıştır. Bunu hem Azerbaycan halkı hem de genel olarak Türk dünyası teyit etmektedir. Ünlü yazar ve şair Yavuz Bülent Bakiler onun hakkında şunları ifade etmiştir: "Türk edebiyatı için Mehmet Akif, Yahya Kemal ve Necip Fazıl kim ise Azerbaycan edebiyatı için Bahtiyar Vahapzade odur. Bu açıdan onun açık sözlü yaratıcılığının yeni Azerbaycan Cumhuriyeti'nin kurulmasında önemli bir rolü vardır" (Dadaşova, 2015, s.100).

Türkiye'ye olan sevgi ve hasretiyle dikkat çeken aydınlardan birisi de hiç şüphesiz Bahtiyar Vahapzade'dir. Bahtiyar Vahapzade'deki Türkiye sevdasının temelleri derinlere gitmektedir. SSCB döneminde sınırların kapalı tutulmasıyla beraber Türkiye ve Azerbaycan münasebetleri sekteye uğramıştır. Bu dönemde iki ülke insanları hasretlerini farklı yollarla gidermeye çalışmıştır. Sınırlar kapalı olmasına rağmen bu coğrafyada hiçbir zaman Türkiye gönüllerden sökülüp atılmamıştır. Bahsettiğimiz dönemde çocuk yaşlarında olan Vahapzade, Türkiye hakkında anlatılan öykülerle büyümüştür. Vahapzade'nin anlatımına göre bu dönemlerde evlerinde sürekli Türkiye'den bahsedilir ve Türkiye anlatılırmış (Karaman, 2009, s.47-48).

Azerbaycan bağımsızlık kazandıktan sonra ilk aşamada kanlar ve kurbanlar bahasına kazanılmış milli özgürlüğü koruyup saklamayı beceremeyenlerin, ülkede düzensizliği ortaya çıkaranların beğenilen görüntüleri Bahtiyar Vahapzade'nin eserlerinde ışıklandırılmıştır. Gerçekten de milli şairin XX. yüzyılın 90'lı yıllarında yazılmış şiirlerinin büyük kısmı bu konularla alakalıdır. Bu yönde yazılmış silsile şiirleri ile o, halkın gözünü açmaya, kitle psikolojisinden kurtulmaya, okurların toplumda vuku bulan süreçleri anlamaya çaba göstermiştir. Vatandaş şairin bu konuda yazılmış adresli-adressiz şiirlerinde önemli konu özgürlüğü savunmaya, daha kuvvetlenmesine yönelmiştir (Habibbeyli, 2010, s.109).

Bahtiyar Vahapzade her şeyden önce dahi bir şairdir. Başta Türk dünyası ve Ortadoğu olmak üzere tüm dünya onu hakikat ve adalet için korkusuz bir savaşçı, bir bağımsızlık savaşçısı olarak tanımaktadır (Vahapzade, 2000, s.11). Tarihi akış içinde Azerbaycan coğrafyası, her zaman için kilit rolü oynayan ve siyasi dengelerini kurma yönünde belirleyici fonksiyonu olan mekânlardan sayılmaktadır. Sürekli akınlara, istilalara, ihtilallere ve baskılara maruz kalmanın tarihi birikimi, özgürlüğü körükleyen bir motivasyon kaynağına dönüşmüştür. Bahtiyar Vahapzade de tüm Azerbaycan şairlerinde olduğu gibi kurduğu imaj dünyası açısından vatan aşkı motive edilen bir ateş şairidir. Bahtiyar Vahapzade'nin şiirlerinde bahsettiği vatan aşkı, maddi ve manevi değerlerden oluşan parça ya da kısım olarak verilmektedir. Vatana bakış açısı yararcı olmayıp tamamen içsel bir sevdadır. Çünkü ona göre özgürlük, farkındalık, seçim ve sorumluluk bağlamında kahramanlığa yükselen birey, vatan ve millet sevgisi ile yeniden doğabilmektedir. Onun doğumu, öznel değerler ve evrensel mesajlar ile insanın yaşamdaki anlam arayışı ve benliğini bütünleyip kendini gerçekleştirme macerasına dönüşümüdür (Eliuz, 2010, s.66).

"Vatan", "millet" ve "toprak" konusu Bahtiyar Vahapzade şiirlerinin en mühim konusudur. İster Sovyetler döneminde olsun isterse de sonrasında olsun bu konu her zaman için değişmez olarak kalmıştır. Sovyetler döneminde bazı konuları açık şekilde kaleme alamamasına karşılık bağımsızlık döneminde kendini rahat bir şekilde ifade edebilmiştir. "Vatan", "millet" ve "toprak" konusuyla ilgili olmakla beraber ayrıca bahsedilmesi gereken bir husus da "ana dil" konusudur. Bahtiyar Vahapzade, sürekli olarak bu mevzuya değinmiş, kendi ana dilini bilmek ve bu dilde konuşmakla ilgili duyarlılığını şiirlerinde yansıtmayı ihmal etmemiştir (Gasımova, 2015, s.470). Kendisi anadilin ve vatan topraklarının korunmasını bağımsız olarak görmekteydi (Qafarlı, 2013, s.520). Yerli halkın milli varlığının ilk ve ana göstergesi olarak anadiline özel bir önem veren sanatçı, kendisinin de belirttiği gibi bu türdeki tüm yazılarında ''Dil yok ise millette yoktur'' fikrini ister şiir ister drama olsun çalışmalarının her alanında ve tüm programlarında ifade etmekten çekinmemiştir (Gündoğdu, 2013, s.105).

Bahtiyar Vahapzade'ye halk arasında büyük bir şöhret kazandıran, geleneksel anlatım tarzında, sade bir dille kaleme aldığı vatan ve millet sevgisini aşılayan, düşünce itibarıyla yoğun ve büyük şiirleridir. Azerbaycan Türklerinin kötü kaderini, Azerbaycan'ın bütünlüğünü, özgürlük ve egemenlik hasretlerini cesaretle dile getirdiği eserleri ülkede büyük yankılar uyandırmıştır. Kendisi, Azerbaycan Komünist Partisi Merkez Komitesi tarafından sorgulanmış, bunun neticesi olarak 1962 tarihinde üniversitedeki görevinden uzaklaştırılmışsa da 1964 tarihinde tekrardan görevine iade edilmiştir. Karşılaşmış olduğu baskılara rağmen Bahtiyar Vahapzade, birçok şiirinde sosyal ve siyasi hadiselerin iç yüzünü, cemiyetteki haksızlıkları, ahlaksızlıkları üstü örtülü ya da dolaylı bir şekilde ifade etmekten vazgeçmemiştir. Baskı rejimlerinde her zaman görüldüğü gibi zaman ve mekânı değiştirerek, asıl ifade etmek istediklerini, yüreğinden geçenleri, halka ulaştırmada büyük bir başarı sağlamıştır. Gerçekten de bilhassa 1970-1980'li yıllarda, şiir kitaplarının yüksek tirajla basılmasına rağmen kısa zamanda okuyuculara ulaşıp tükenmesi, onun halkın güven ve beğenisini sağladığının göstergesiydi (Akpınar, 2011, s.13).

## 3. SONUÇ

Bahtiyar Vahapzade, Azerbaycan ulusal kurtuluş hareketinin gerçek bir mücahidi olarak her zaman özgürlük için mücadele etmiştir. Halkın büyük şairi Bahtiyar Vahapzade'nin yaratıcılığının özü, insanların düşünce ve arzuları, hisleri ve duygularından oluşmuştur. Halkı milli diriliş ve bağımsızlığa çağıran şair, Azerbaycan'ın gözde sanatçısının zirvesine yükselmiştir. Büyük lider Haydar Aliyev, güçlü şairin hizmetlerini överek, uzun yıllara dayanan bilimsel ve pedagojik faaliyetini, aydınlanma dünyasının gençlerin eğitimi üzerindeki büyük etkisini, halkın hakikat mücadelesini kazanmak için sarf ettiği seferberliği her zaman için dile getirmiştir. Vahapzade'nin kişiliği ve yaratıcılığı halkın milli düşüncesinin oluşmasına hizmet etmiş, onu milli dirilişe çağırmış ve bağımsızlık mücadelesinde paha biçilmez bir rol oynamıştır. Azerbaycan'daki ulusal kurtuluş hareketinin mücahit ve özgürlük savaşçısı olan Bahtiyar Vahapzade, halkın bağımsızlığı mücadelesindeki hizmetleri büyük ve paha biçilmezdir. Bu nedenle bağımsız Azerbaycan halkı onun mücadelesini ve hizmetlerini asla unutmayacaktır. Bahtiyar Vahapzade, bağımsız Azerbaycan'ın ''Bağımsızlık'' nişanını alan ilk sanatçılardan biridir. Defalarca milletvekili seçilen ve milletvekilliği yapan Bahtiyar Vahapzade'nin biyografisi de eserleri kadar değerli bir kaynaktır. Vatan, insan ve özgürlük kavramı Vahapzade'nin yaşam kaynağı olduğundan, sanatçının halk, toprak ve geleneklerle bağlantılı olan biyografisi her zaman için öne çıkmaktadır.

## KAYNAKÇA


Adıgüzel, S. (2011). Bahtiyar Vahapzade'nin Şiirinde Millet, Vatan ve Dil. *Türk Dünyası Dil ve Edebiyat Dergisi*, (31), 63-74.

Akpınar, Y. (2011). Bahtiyar Vahapzade: Hayatı, Eserleri, Türkiye'de Tanınması. *Türk Dünyası Dil ve Edebiyat Dergisi*, (31), 11-22.

Babashova, Z. (2014). Millî Mücadele Şairi Bahtiyar Vahapzâde. *Electronic Turkish Studies*, *9* (12), 9-16.

Cavadova, Z. (2015). Milli Azadlıq Hərəkatının Mücahidi. *Bəxtiyar Vahabzadə və Azərbaycan Filologiyasının Aktual Problemləri Mövzusunda Beynəlxalq Elmi Konfransın Materialları*, Bakü, Bakü Universiteti Nəşriyyatı.

Çetin, N. (2010). Bahtiyar Vahapzade'ye Göre Türk Birliğinin Kültürel Zemini. *Erdem*, (57), 35-50.

Dadaşova, İ. (2015). Bəxtiyar Vahabzadə Nəsrində Avtobioqrafizm. *Bəxtiyar Vahabzadə və Azərbaycan Filologiyasının Aktual Problemləri Mövzusunda Beynəlxalq Elmi Konfransın Materialları*, Bakü, Bakü Universiteti Nəşriyyatı.

Eliuz, Ü. (2010). Bahtiyar Vahapzade'de Vatan Temi ve Anne İlişkisi. *Erdem*, (57), 63-73.

Gasımova, L. (2015). Bahtiyar Vahapzade'nin Şiirlerinde Sonbahar. *Yeni Türkiye* (76), 469-473.

Gündoğdu, B. (2013). *Bəxtiyar Vahabzadənin Puplisistikası*. Bakü, Nurlar Neşriyyatı.

Habibbeyli, İ. (2010). Millî İstiklal Şairi Bahtiyar Vahapzade. *Erdem*, (57), 101-114.

Karaman, E. (2009). *Türk Dünyasının Sesi Bahtiyar Vahapzade*. Bakü, Nurlar Neşriyyatı.

Qafarlı, R. (2014). "Bextiyar Vahapzade Türk Dünyasının İstiqlal Şairidir". *Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Buluşması 26-28 Mayıs 2014*. 2013 Türk Dünyası Kültür Başkenti Ajansı (TDKB). Eskişehir, ss.507-531.

Uzun, E. (2015). Bahtiyar Vahapzade'de Vatan ve Dil Muhabbeti. *Bəxtiyar Vahabzadə və Azərbaycan Filologiyasının Aktual Problemləri Mövzusunda Beynəlxalq Elmi Konfransın Materialları*, Bakü, Bakü Universiteti Nəşriyyatı.

Vahapzade, B. (2000). *Edebi Düşünceler (Meqaleler Toplusu)*. Bakü, Tehsil Neşriyyatı.

# BƏXTİYAR VAHABZADƏ YARADICLIĞININ TƏDRİSİ TARİXİ

HISTORY OF TEACHING BAKHTIYAR VAHABZADE'S CREATIVITY

***Nazilə ABDULLAZADƏ***

*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müdiri*

*ORCID ID: https://orcid.org/0000-0002-1829-7178*

*İstər dərslik yazan müəlliflərin, istərsə də müəllimlərin birinci məqsədi balalarımızın tərbiyəsinə düzgün yön vermək, onlarda xalqımıza, Vətənimizə, ədəbiyyatımıza və mədəniyyətimizə böyük sevgi oyatmaqdır! Bunun üçün öz fəaliyyətimizə bir daha baxmaq və onu zamanın səviyyəsinə yüksəltmək ən vacib vəzifəmizdir.*

***Bəxtiyar Vahabzadə***

XX əsr Azərbaycan ədəbiyyatında "elinə, torpağına, kökünə bağlı, tarixə zaman və məkan müstəvisində körpü salan, poetik təfəkkürü milliliyə, müasirliyə, bəşəriliyə köklənmiş" sənətkarlardan olan Bəxtiyar Vahabzadə hələ sağlığında özünə sözdən məbəd ucaltmışdır. Sözün sehrilə dünyanın kələfindən baş çıxarmağa çalışan şairin əsərlərində kainatın fəlsəfi dərki, insanın əxlaqi-mənəvi dünyası, milli dəyərlərin özünəqayıdışı, milli kimlik, dil və mənəviyyat məsələləri həmişə aparıcı olmuşdur.

Uşaqların məktəbə qədəm qoyduqları gündən – birinci sinifdən tanıdıqları, şeirlərini əzbərlədikləri şairlərdən biri də B.Vahabzadə olmuşdur. Yaşından asılı olmayaraq, hər bir oxucu Bəxtiyar Vahabzadə poeziyasını duyur, ondakı şeiriyyətlə, sadəliklə yanaşı, gizli mətləbi anlayır. Poeziyasının ana xəttini vətən və onun bölünməzliyi, müstəqilliyi, bütövlüyü fikirləri təşkil edən B.Vahabzadə əsərləri hələ 60-cı illərdən məktəbli dünyasına qədəm basmış, ibtidai siniflərin "Ana dili", "Oxu", "Musiqi" kitablarında, yuxarı siniflərə qalxdıqca "Ədəbiyyat" dərsliklərində verilmişdir. İbtidai siniflərdə şagirdlərə dil, millət, vətən, yuxarı siniflərdə milli qürur, ləyaqət, mənəviyyat, özgürlük anlayışlarının mənimsədilməsində Bəxtiyar Vahabzadə şeirləri əvəzsiz mənbə rolunu oynamışdır.

Təsadüfi deyil ki, şairin əsərləri gənc nəslin tərbiyəsində, şəxsiyyət kimi formalaşmasında tədris materialı kimi ümumtəhsil məktəblərinin müxtəlif adda dərs kitablarına daxil edilmişdir. B.Vahabzadənin əsərlərinə təkcə anadilli məktəblər üçün olan dərsliklərdə deyil, təhsil rus dilində olan məktəblərin Azərbaycan dili dərsliklərində də rast gəlirik. Bu təkcə şairin əsərlərində tərənnüm olunan səmimi, saf duyğular, şeirlərinin axıcı və şirin dili deyil, həmçinin tərbiyəvi əhəmiyyəti, müasirliyi və bəşəri ideyaları ifadə etməsi ilə əlaqədardır.

60 ildən çoxdur ki, B.Vahabzadənin əsərləri dərslik tarixində dilimizin saflığına, milli ideyanın təbliğinə xidmət edir. Xalqının səadətini vətənin müstəqilliyində görən şairin bədii irsi bu gün pedaqoji fikir tariximizdə də öz dəyərini qoruyub saxlamışdır.

**Açar sözlər:** B.Vahabzadə yaradıcılığı, dərslik, metodik prinsip, mövzu və ideya.

Bakhtiyar Vahabzadeh, one of the artists in the 20th century Azerbaijani literature who "connected to his country, land, roots, bridged history in time and space, and his poetic thinking was rooted in nationalism, modernity and humanity", built a temple of his own words during his lifetime. The philosophical

understanding of the universe, the moral and spiritual world of man, the return of national values, national identity, language and spirituality have always been leading in the works of the poet, who tried to escape from the shackles of the world.

B.Vahabzadeh was one of the poets whom children knew from the first grade and memorized their poems from the day they entered school. Regardless of age, every reader feels the poetry of Bakhtiyar Vahabzade, understands its poetry, simplicity, as well as its hidden meaning. The works of B.Vahabzadeh, who formed the main line of his poetry with the ideas of the homeland and its indivisibility, independence and integrity, entered the school world in the 60s. given in textbooks. Bakhtiyar Vahabzadeh's poems have played an invaluable role in teaching students the concepts of language, nation, homeland, national pride, dignity, morality and freedom in primary school.

It is not accidental that the poet's works have been included in the textbooks of various schools as a teaching material in the education of the young generation, in the formation of personality. We find B.Vahabzadeh's works not only in textbooks for native language schools, but also in Azerbaijani language textbooks for russian-language schools. This is due not only to the sincere, pure feelings sung in the poet's works, the fluent and sweet language of his poems, but also to the educational significance, modernity and expression of human ideas.

For more than 60 years, B.Vahabzadeh's works have served the purity of our language and the promotion of the national idea in the history of the textbook. Seeing the happiness of his people in the independence of the homeland, the poet's artistic heritage has preserved its value in our textbook history even today.

**Key words:** B.Vahabzadeh's creativity, textbook, methodical principle, theme and idea.

XX əsr Azərbaycan poeziyasının millət, vətən, dil sevdalı şairi Bəxtiyar Vahabzadə milli-bədii fikir tariximizdə özünəməxsus yeri, dəst-xətti ilə seçilən sənətkarlardan olmuşdur. Əlinə qələm aldığı gündən insanın zəngin mənəviyyatını, əxlaqi gözəlliyi, sevgi dolu qaynar həyatı tərənnüm edən B.Vahabzadə sadə mətləblərdə böyük mənalar görmüş, torpağa, vətənə, gəncliyə, müasirliyə vurğunluğunu poeziya çərçivəsinə sığışdırmağa çalışmışdır. Onun hər üç növdə yazdığı əsərlərdə orijinal poetik duyum, mənəvi-əxlaqi məzmun, sənət və sənətkar qayəsini müşahidə edirsən. Şairin fəlsəfi yüklü elə misraları var ki, cild-cild romanların ifadə etdiyini özündə daşıyır və zamanın sınağından çıxarıb nəsillərə ötürür. B.Vahabzadə yaradıcılığının bir özəlliyi də təlim-tərbiyəvi məzmuna malik olması, hələ sağlığında pedaqoqların və dərslik müəlliflərіin diqqətini çəkməsi olmuşdur.

Bəxtiyar Vahabzadə özü ədəbi əsərlərin tədrisinə, sənətkarların həyat və yaradıcılıqlarının öyrədilməsinə xüsusi diqqət yetirmiş, "xalqın həyatı, mənəviyyatı və ictimai varlığı ilə əlaqədar olduğu üçün ədəbiyyat fənninin tədrisinin əhəmiyyətliliyini, metodik məqamları" [Abdullazadə, 2020:22] barədə "Ədəbiyyatın tədrisinə dair" əsərində baxışlarını açıqlamışdır. Şairə görə, insan xalqının ədəbiyyatı vasitəsilə onun ruhuna, mənəviyyatına daxil olur. Bəlkə də belə düşündüyünə görə, onun yaradıcılığında hər misra, hər fikir mənəvi tərbiyəyə, mənəvi borca, mənəvi missiyaya və milli təəssübkeşliyə xidmət edir. B.Vahabzadə ədəbiyyatı tərbiyə işində ən əyani və tezçatan forma hesab etdiyindən bu fənnin tədrisini də milli-mənəvi dəyərlərlə əlaqələndirirdi: "Şagird ədəbiyyat vasitəsilə mənsub olduğu xalqın ruhuna, mənəviyyatına daxil olur. Oxuduğu əsərlərdə, eşitdiyi nəğmələrdə uşaq ikən zümzüməsi ilə yuxuya getdiyi laylalarda xalqını tanıyır, onu sevir və həqiqi bir vətəndaş kimi yetişir [Vahabzadə, 2005:296].

Əsərlərinin mövzu və janr rəngarəngliyi, ideya məndərəcəsi, ana dilinin qrammatik quruluşunun və leksik tərkibinin imkanlarından ustalıqla istifadə dərslik müəlliflərinə şairin şeirlərinin ibtidai siniflərdən başlayaraq dərsliklərə daxil edilməsi imkanını vermişdir. Kiçikyaşlı uşaqların duyğuları, xəyalları, böyüklərin dünyasından xəbərsiz bir dünyanın sakinləri kimi özgürlükləri şairin yaradıcılığı boyu doğulduğu, böyüdüyü məkanı, zamanı, əlǝlxüsus uşaqlıq dövrünü bir an belə unutmaması ilə bağlıdır. O yazırdı: "...Uşaqlıq dövrü insan ömrünün bünövrə daşıdır. Sonrakı arzular, xəyallar, düşüncələr bu daşa söykənib qanadlanır. İnsanın ağlı, düşüncəsi, zövqü, ruhu, psixologiyası, istedad və qabiliyyəti və hətta

sağlamlığı da bu dövrdə formalaşır [Vahabzadə, 1991:233]. Şairin "Yer canlanır", "Artıq yavaş-yavaş günlər qısalır", "Əlcək", "Unutmarıq yayı biz", "İki saat", "Kitab", "Yay", "Müəllim", "Ana yurdum", "Ana dili" şeirlərinin ibtidai siniflər üçün "Əlifba", "Oxu", "Ana dili" dərsliklərində yer alması 60-cı illərdən, özü dediyi kimi, ömrünün "noğul dövrü"nün xatirələri ilə bağlıdır. "Axı dünya fırlanır", "Vətən quşa bənzər, qanadlarının Biri bu taydırsa, biri o taydır" kimi fəlsəfi yüklü misraların müəllifinin uşaq dünyasına bu qədər bələdliyi onun şirinliyini, acı dadını, şıltaqlığını dərindən duymasından, uşaqlıq hadisələrinin ürəyində, təfəkküründə dərin iz buraxdığından xəbər verir.

XX əsrin 60-cı illərindən günümüzə kimi müxtəlif illərdə ibtidai sinif dərsliklərində "Unutmarıq yayı biz", "İki saat", "Kitab", "Yay" (II sinif), "Ana yurdum", "İlk cığır", "Şəhidlər", "Dil açanda ilk dəfə ana söyləyirik biz", "Vətəndaş", "Səndən doymaq olarmı, həyat, sən nə şirinsən?" (III sinif), "Əlcək", "Ələk" (IV sinif), şeirləri oxu mətnləri kimi verilmişdir. 2000-ci ildən ibtidai siniflər üçün nəşr olunan "Ana sözü" (Həsənli B., Quliyev Ə.) dərs vəsaitlərində şairin I sinifdə "Vətən torpağı", "Babası kimi", "Çanta", II sinifdə "Azərbaycan-Türkiyə", III sinifdə "Şəhidlər", "İlk cığır", IV sinifdə "Azərbaycan", "Azərbaycan oğluyam", "Ana dili", "Şəhidlər", "Məktəb yolları", "Məktəbli qız", "Müəllim" şeirləri şagirdlərə təqdim edilir. Göründüyü kimi, B.Vahabzadənin bir çox əsərlərinin tədris materialı kimi dərslik müəllifləri tərəfindən seçilməsi şairin ən munis, ən ülvi duyğuları kiçikyaşlı uşaqlara belə sadə dildə çatdıra bilməsi, əxlaqi-mənəvi dəyərlərin, estetik zövqün formalaşmasına xidmət edən fikirlərin uşaq hafizəsinə sadə, axıcı dillə köçürülməsi ilə bağlı idi. "Babası kimi" (I sinif) şeirində şair uşaqlara babalardan miras qalan vüqar, qürur hisslərini yaşatmağı, babaların nəvələrilə təsəlli tapdıqları, onlara sirdaş olduqları kimi, babaların da nəvələrin güvənc yeri olduqlarını aşılayır:

Mən bir ağacam,

Nəvəm qol-budaq.

Mən onun kökü,

O, məndə yarpaq.

Xalqa vuruldum,

Mən şair oldum.

Bilmirəm ancaq,

O nə olacaq? [Ana sözü, 2005:23].

II sinif "Oxu" dərsliyində verilən "Yay" şeirində kiçikyaşlı uşaqlar isti yay fəsli ilə yaxından tanış olurlar. Şeirdə işlənən məcazlar yayın qızmar, isti fəsil olması ilə bərabər, ruzi-bərəkət, zəhmət fəsli olduğu barədə dolğun təsəvvür yaradır. Şair "günəşin al saçları", "gözəl məhsul ayı", "göy çəmənin paltarı" ifadələri ilə yayın poetik obrazını yaradır:

Yay qurtarır... Yetişir

Yayın isti günləri.

Günəşin al saçları

Qızdırır artıq yeri.

Meyvələr də qızarır

Bağçalarda istidən.

Çiçəklərlə bəzəyir

Paltarını göy çəmən [Oxu, 1989:202]

IV sinifdə ibtidai təhsildən ayrılan uşaqlar yuxarı siniflərə şairin müəllim, məktəb, vətən, azadlıq haqqında düşüncələri, duyğuları ilə qədəm qoyur, “İlk cığır”dan yol salıb “Şəhidlər”ə qədər ucalırlar.

Yavaş-yavaş sökür dan,

Səhər qalxır yuxudan.

Qapılar da açılır.

Budur, çıxır yollara

Zəhmətin övladları.

Onlar açır

Qar üstündə ilk cığır...[Ana sözü, 2002:28].

80-ci illər hadisələri və 90-cı ilin qanlı yanvar olayı B.Vahabzadənin illərdən bəri ürəyində gəzdirdiyi ağrını, mücadiləni şəhidlərin qanı ilə misralara köçürdü. Matəm libasına bürünmüş xalqın kədəri, iztirabı ilə yanaşı, qürur yeri, qeyrət yeri olan şəhidlərin xatirəsinə B.Vahabzadə ilk ağı deyənlərdən oldu. “Ana sözü” (III sinif) dərsliyində “Şəhidlər” şeiri şairin – bir vətəndaşın xalqa sonsuz məhəbbətinin ifadəsi, azadlıq mübarizəsi, amalı uğrunda canından keçən günahsız insanların rus imperializminə üsyanının, nifrətinin ifadəsi təsiri bağışlayır.

Namərd gülləsinə qurban gedirkən

Gözünü sabaha dikdi şəhidlər.

Üçrəngli bayrağı öz qanlarıyla

Vətən göylərinə çəkdi şəhidlər.

...İnsan insan olur öz hünərilə,

Millət millət olur xeyri-şərilə.

Torpağın bağrına cəsədlərilə

Azadlıq toxumu əkdi şəhidlər [Ana sözü, 2002:16].

B.Vahabzadənin pərəstiş etdiyi və haqqında həmişə yüksək fikirdə olduğu sənət, peşə müəllim peşəsi olmuşdur. Onun müəllimə məhəbbətini ifadə edən şeirləri uzun illər ibtidai sinif kitablarında yer almışdır. “Məndən olsaydı, əlifbadakı sıra qanunlarını pozub “müəllim” sözünü bütün dillərin lüğətində ilk söz kimi yazardım” deyən şair müəllimi insanın yetişməsində, şəxsiyyət kimi formalaşmasında əsas qüvvə sayırdı. I siniflər üçün “Əlifba” dərsliyində “Müəllim” [Kərimov, 1995:27, 2000:99, 2003:99, 2007:93], III, İV sinif “Oxu” dərsliklərində “Sənin müəllimin”, rus orta məktəbin VIII sinif Azərbaycan dili dərsliyində “Sənin meyvələrin” şeirləri uzun illər tədris proqram və dərsliklərində yer almışdır. 1995-ci ildə Yəhya Kərimovun müəllifliyi ilə “Əlifba” dərsliyinə daxil edilən “Müəllim” şeiri 20 ilə yaxın tədris materialı kimi qüvvədə qalmışdır. Şeirin dili o qədər oynaq, sadə və axıcıdır ki, sanki müəllif bu şeiri ilə məxsusi məktəbə ilk qədəm qoyan körpələrin “müəllim kimdir?” sualına cavab verir. Müəllimin hər kənddə, hər obada yetişdirdiyi şagirdləri şair əkilən barlı-bəhərli ağaca bənzədir. Gülü-çiçəyi solmayan bu ağacların bağbanı – müəllim dünyanın ən varlı adamıdır.

Ay müəllim, müəllim,

Hər könüldə yerin var.

Hər kənddə, hər şəhərdə

Sənin meyvələrin var.

İşıq yağır, nur yağır,

Təmiz əməllərindən.

Kitab-dəftər almamış

Kim sənin əllərindən? [Kərimov, 1995:27, 2000:99, 2002:93, 2007:93]

Yuxarı siniflərə qalxdıqca B.Vahabzadənin əsərləri Ədəbiyyat dərsliklərinə gətirilir. "Yenə bir arzu qaldı", "İllər", "Həyat, sən nə şirinsən", "Bayraq", (VI sinif), "Azərbaycan" (VII sinif), "Özünə yalvarsana" (VIII sinif), "Latın dili" (IX sinif), "İstiqlal", "Şəhidlər" (XI sinif) əsərlərində şairin milli düşüncə tərzi, dövlətçilik və azərbaycançılıq ideologiyasına sədaqəti, fəlsəfi fikirləri şagirdlərə yaradıcılığı ilə tanış olmaqla yanaşı, elinə-obasına, torpağına bağlı, ürəyi, arzuları xalqı ilə döyünən bir şairi yaxından tanımaq imkanı verir. Yaradıcılığı boyu xalqın taleyi ilə bağlı onu narahat edən sualların cavabını şagirdlər şairin şeirlərində asanlıqla tapırlar.

B.Vahabzadə yaradıcılığında millət və onun dili məsələsi birinci yerdə dayanır. "Şair milli şüurun yetişməsində ana dilinin müstəsna əhəmiyyətini dərindən duymuş və bütün yaradıcılığı boyu onun müdafiəsi uğrunda mübarizə aparmışdır" [Quliyev, 2012:134]. Şairin "Ana dili", "Latın dili" şeirləri müxtəlif siniflərin "Azərbaycan dili", "Ədəbiyyat" dərsliklərində tədris edilir. "Ana dili" şerində şair doğma dilimizdə danışmağı ar bilən insanlara vətən çörəyini haram bilir. Uşaq başa düşür ki, ana dili körpəlikdən, göz açandan, ağlı kəsəndən ananın dilindən mənimsənilir, ananın bətnindən onun özü ilə doğulur və pərvəriş tapır. Bu dili sonradan qazanmaq, öyrənmək olmaz. Şair ana dili anlayışını şagirdə sadə, səmimi bir dillə başa salır:

Dil açanda ilk dəfə "ana" söyləyirik biz,

"Ana dili" adlanır bizim ilk dərsliyimiz.

İlk mahnımız laylanı anamız öz südüylə

İçirir ruhumuza bu dildə gilə-gilə [İsmayılov, 2014:147].

N.Cəfərov yazır ki, Bəxtiyar Vahabzadəni millət xadimi kimi həmişə narahat edən ən vacib məsələlərdən biri, bəlkə də birincisi, ana dilinə münasibət olmuşdur: onun çoxcəhətli fəaliyyətinin təkcə bu qeyd edilən tərəfi, əslində kifayət idi ki, adı Azərbaycan tarixində əbədi olaraq qalsın [Cəfərov, 1996:68]. Bu mövzuda həssas olan şair məqalələrindən birində yazırdı: "...Ana dili vaxta görə seçilməməli, Ana dili olduğuna görə bütün dillərdən seçilməli və sevilməlidir. Vətəni də gözəl və səfalı olduğuna görə sevmirlər. Yalnız Vətən olduğuna görə sevirlər [Vahabzadə, 1991:228]. Müsahibələrindən birində isə B.Vahabzadə rus müxbirinə demişdi: "Ana dili xalqın ruhudur, mənəvi dünyasıdır, psixologiyasıdır. İnsan ən dərin və ən incə hisslərini yalnız anasından öyrəndiyi, orta məktəbdə möhkəmləndirdiyi dil vasitəsilə ifadə edə bilər. Bir sözlə, ana dili – özünü və dünyanı ifadə dilidir [Vahabzadə, 1991:299].

İX sinifdə tədris edilən "Latın dili" şeirində nəinki Azərbaycan ədəbiyyatında, hətta keçmiş Sovet İttifaqı miqyasında milli azadlığın vacib şərtlərindən olan ana dili uğrunda mübarizədən söz açılır. Şeir sovet hakimiyyəti illərində yazılmış olsa da, dərslik müəllifləri onu dövlət müstəqilliyimizə nail olduğumuz bir dövrdə tədris materialı kimi verməklə əslində şairin bütün dövrlərdə ana dilinin taleyi ilə bağlı narahatçılığını önə çəkmişlər. Milləti, vətəni dünyada olmayan latın dilini şair ölü dil saymır, bu dil çiçəklərin, böcəklərin, ulduzların dilində yaşayır, bu dil sərhədləri aşır, zaman-məkan tanımır. Nə olsun ki, bu dildə "ana", "vətən" deyən yoxdur. Ona necə "ölü" demək olar? Şeirin məzmununun öyrənilməsində ortaya çıxan bu kimi suallar şagirdlərə dilin azadlıq, müstəqillik anlayışları ilə bağlı olduğunu başa salır. Sovetlər dönəmində ana dilimizə qarşı təzyiqlər, onun sıxışdırılması təhlükəsini şair vaxtında duymuş, dil varsa, millət də, Vətən də var, dil yoxdursa, millət də, Vətən də yoxdur qənaətində bulunmuşdur.

"Mən azadam, müstəqiləm" sözlərini

Öz dilində deməyə də

İxtiyarın yoxsa əgər,

De, kim sənə azad deyər?..

...Sən dərdə bax,

Vətən də var,

Millət də var.

Ancaq onun dili yoxdur.

İndi söylə,

Hansı dilə ölü deyək?

Vətən varkən,

Millət varkən.

Kiçik, yoxsul komalarda

dustaq olan bir diləmi?

Yoxsa uzun əsrlərdən

keçib gələn,

Xalqı ölən

Özü qalan bir diləmi? [Ədəbiyyat, 2005:143].

Vətən sevgisi Bəxtiyar Vahabzadənin yaradıcılığından qırmızı xətt kimi keçir və bütün hisslərdən ucada dayanır. Şair özü vətənə sevgisindən belə söz açır: "Vətən sevgisi insan duyğularının ən alisi, ən yüksəyi və ən müqəddəsidir. İnsan mənsub olduğu vətəni sevməklə özünü, cəmiyyət qarşısındakı borcunu tapmış olur. Vətən və xalq hissindən məhrum olmuş şəxs bütün insani hisslərdən məhrumdur. Vətəni sevən adam həyatı sevər, dünyanı sevər. Çünki o, nə üçün yaşadığını, nəyin naminə çalışdığını bilir. Vətən sevgisi insana məslək, amal gətirir. Məslək isə ürəyə cəsarət, qollara qüvvət, gözlərə işıq verir [Vahabzadə, 2002:11].

XX əsrin 60-80-ci illər sovet dövründə yaşadığı bir dönəmdə B.Vahabzadə vətən məfhumunu o taylı-bu taylı Azərbaycanın qovuşmasında, dəmir barmaqlıqlar arxasından boylanan həsrətə, intizara son qoyulmasında görürdü. O illərdə qələmə aldığı "Gülüstan" poeması şairin azadlıq, birlik, müstəqillik uğrunda mübarizəyə çağırışı idi.

Yeni nəsil (kurikulum) dərsliklərində bu çağırışın sədası olaraq "Vətəndaş" (VII sinif), "İstiqlal" (IX sinif) şeirləri, "Şəhidlər" (XI sinif) poeması verilmişdir. "Vətəndaş" şeiri Vətən qarşısındakı insanlıq, vətəndaşlıq borcuna həsr olunub. Yüksək emosiya, pafosla yazılmış şeirin hər bəndinin "Vətəndaş! Nə gözəl səslənir bu söz" misrası ilə başlaması ilə şair bir daha VII sinif şagirdinə vətənin əbədi olduğunu, insanın öz vətənində güclü, qüvvətli olduğu hissini aşılamış olur. Şairə görə, Vətən uğrunda, onun xoşbəxtliyi naminə çalışmaq ən müqəddəs borcdur. B.Vahabzadənin "vətəndaş"ı vətənə güvənən, vətən ünvanlı, uğrunda ölməyə hazır olan bir insandır.

Vətəndaş! Nə gözəl səslənir bu söz,

Yəni – iki canda bir ürəyik biz.

Gücsüzük, bir heçik sən də, mən də tək,

Vətənə güvənib olduq Vətəndaş.

Mənim ürəyimi qanatsın gərək,

Sənin dırnağına dəyən çırtma daş [Ədəbiyyat, 2014:68].

IX sinifdə B.Vahabzadə müstəqillik illəri ədəbiyyatının nümayəndəsi kimi tədris edilir. Şairin ölkəmiz müstəqillik əldə etdikdən sonra “Gülüstan” poemasının davamı kimi yazdığı “İstiqlal” poeması ilə tanış olan şagirdlər bir daha əmin olurlar ki, “Gülüstan”dan “İstiqlal”a qədərki dövrdə şairi torpaq, millət, dil, müstəqillik, azadlıq duyğuları düşündürmüşdür. Xalqın taleyüklü problemlərinin əksini tapdığı poemada B.Vahabzadə vətənin bütövlüyünə, iki həsrət qardaşın bir-birinə qovuşacağına inanır:

Bu gün qismətimiz qəm-kədərdisə,

Dünənki birliyim heç unudulmaz.

Çayın altındakı torpaq birdisə,

O tayı bu taydan ayırmaq olmaz [Ədəbiyyat, 2019:171].

Şagirdlər şairin “Azadlıq ağacı bar verə bilməz, Şəhidlər qanıyla suvarılmasa”, “Biriykən ikiyik, bu halımızla Biri birimizə həsrət qalmışıq”, “İki əsdir ki, o daş körpünün Bu tayında mənəm, o tayında sən”, “Gülüstan tikanlı məftilə döndü”, “qul kölələr”, “Gülüstan adlanan ifritə” ifadələri ilə tanış olduqca Azərbaycanın tikanlı məftillərlə ikiyə bölünməsini, babaların əmanəti torpaq uğrunda xalqın azadlıq mübarizəsinin, qanlı şənbə gecəsinin, iki əsrdən artıq sürən əsarətin, istilanın tarix kitabımızın qanlı yaddaşına çevrildiyinə əmin olurlar. Xalqın mübarizə əzminin, milli istiqlalın o qanlı yanvar gecəsindən sonra yarandığı şagirdlərdə vətənpərvərlik hisslərini gücləndirir, vətəndaşlıq mövqeyi, birlik duyğusunu qüvvətləndirir. “İstiqlal” vasitəsilə şagirdlər şairin “millətindən, dinindən, irqindən asıplı olmayaraq, bütün millətlərin azad, müstəqil yaşamasının tərəfdarı olduğu” [Həsənov, 2019:169] əmin olurlar.

XI sinifdə B.Vahabzadənin yaradıcılığı monoqrafik mövzu olaraq öyrədilir. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatının nümayəndəsi kimi, şairin yaradıcılığında mövzu özəlliklərinə, janr rəngarəngliyinə diqqət yetirilir. Dərslikdə deyilir: “Bəxtiyar Vahabzadə yaradıcılığının bütün mərhələlərində zəngin ənənələrə malik Azərbaycan lirikasını orijinal şeirlərlə zənginləşdirmişdir. Onun vətəndaşlıq lirikası milli istiqlal düşüncələrindən yoğrulmuş ictimai-fəlsəfi şeirlərinin mükəmməl bir toplusundan ibarətdir. ... B.Vahabzadə lirikasında vətəndaşlıq duyğularına, ana dilinə həsr olunmuş şeirlər mühüm yer tutur. “Vətəndaş” şeirində insanın vətən qarşısında borcu təsirli bədii dillə xatırladılır” [Ədəbiyyat, 2018:172].

Gördüyümüz kimi, aşağı siniflərdə şairin tədris olunan lirik əsərlərinin mövzu-ideyasını xatırlatmaqla dərslik müəllifləri poemaları və dram əsərlərində milli azadlıq düşüncəsinin əksini tapdığını vurğulayırlar. “Vətəndaş”, “İstiqlal”əsərlərinin yekunu sayıla bilən “Şəhidlər” poemasından verilən parçalar şəhidlik zirvəsinə yüksəlməyin qürurverici və uca bir məqam olduğu qənaətini formalaşdırır. Onlar şairin şəhidlərin qanının yerdə qalmayacağı, bu mübarizənin davam edəcəyini, üçrəngli bayrağımızın enməyəcəyinə inamını poemanın sətirlərindən duyurlar.

Bu ölüm, bu qırğın dərs olsun bizə,

Deməyək boş yerə candan keçdilər...

Onlar şəhid oldu millətimizə,

Cəsarət dərsini təlim keçdilər.

Xəyal bir çiçək də bitirə bilməz,

Bu gündən sabaha körpü salmasa.

Azadlıq ağacı bar verə bilməz,

Şəhidlər qanıyla suvarılmasa... [Ədəbiyyat, 2018:177]

B.Vahabzadə şeirlərinə1964-cü ildən ibtidai və yuxarı siniflərin “Azərbaycan dili”, “Musiqi”, 1968-ci ildən rus bölməsi “Azərbaycan dili” dərsliklərində də geniş şəkildə rast gəlirik. Azərbaycan dili dərslərində “Sadə adamlar” (1964), “Yer canlanır” (IV sinif, 1968), “Artıq yavaş-yavaş günlər qısalır” (V-VI sinif, 1969),

“Niyə” (IV sinif, 2011), “Ana dili”, “Səndən doymaq olarmı, həyat, sən nə şirinsən?”, “Vətəndaş” rus məktəblərində “İki saat” (IX sinif, 1968), “Sənin meyvələrin” (VIII sinif, 1968) şeirlərinin dili üzərində qrammatik qaydalar, üslubi normalar öyrədilir, musiqi dərslərində (VII sinif, 2007) “Azərbaycan” şeiri nəğməyə çevrilib şagirdlərin başı üstündən səmalara ucalır.

Bu gün − Azərbaycan təhsilinin Avropaya inteqrasiya olunduğu bir zamanda Bəxtiyar Vahabzadə yaradıcılığı yenə də öz milliliyi, bəşəriliyi, məzmun zənginliyinə görə dərsliklərdə çəkisini, sanbalını qoruyub saxlayır.

## ƏDƏBİYYAT

1. Abdullazadə, N. (2020). Bəxtiyar Vahabzadənin yaradıcılığında Azərbaycan ədəbiyyatının tədrisi məsələləri. //3rd İnternational Bahtiyar Vahapzade Azerbaijan History, Culture and Literature Symposium. – Baku. – s.22-29.

2. Ana sözü (2002). Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün dərs vəsaiti. Tərtib edən: Həsənli B., Quliyev Ə. – Bakı: Çaşıoğlu. – 160 s.

3. Ana sözü (2002). Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün dərs vəsaiti. Tərtib edən: Həsənli B., Quliyev Ə. – Bakı: Çaşıoğlu. – 160 s.

4. Ana sözü. (2002) Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərs vəsaiti. Tərtib edən: Həsənli B., Quliyev Ə. – Bakı: Çaşıoğlu. – 160 s.

5. Ana sözü (2002). Ümumtəhsil məktəblərinin 4-ci sinfi üçün dərs vəsaiti. Tərtib edən: Həsənli B., Quliyev Ə. – Bakı: Çaşıoğlu. – 160 s.

6. Azərbaycan dili (2014). 3-cü sinif üçün dərslik. İsmayılov R., Orucova G. və b. − Bakı:

7. Cəfərov, N. (1996). Bəxtiyar Vahabzadə. – Bakı: Azərbaycan nəşriyyatı. – 80 s.

8. Ədəbiyyat (2018). Ümumtəhsil məktəblərinin XI sinfi üçün dərslik. Həbibbəyli İ., Əliyev S., Həsənli B. və b. − Bakı: Bakınəşr. − 207 s.

9. Ədəbiyyat (2003). Pilot məktəblərinin 6-cı sinfi üçün dərslik. Həsənli B., Quliyev Ə., Hüseynoğlu S. – Bakı: Çaşıoğlu. − 152 s.

10.Ədəbiyyat (2005). Ümumtəhsil məktəblərinin IX sinfi üçün dərslik. Həsənli B., Nəcəfov N. − Bakı: Əlfərül. −256 s.

11.Ədəbiyyat (2019). Ümumtəhsil məktəblərinin IX sinfi üçün dərslik. Həsənov B., Mustafayeva A., Hüseynoğlu S. və b. – Bakı: Bakı nəşriyyatı. − 223 s.

12.Ədəbiyyat (2003). Pilot məktəblərinin 5-ci sinfi üçün dərslik. Hüseynoğlu S., Quliyev Ə., Həsənli B. – Bakı: Çaşıoğlu. – 152 s.

13.Əlifba (2007). I sinif üçün dərslik. Kərimov Y. − Bakı: − 104 s.

14.Həsənli, B., Abdullazadə N. (2015). İfadəli oxu. – Bakı: Müəllim. – 303 s.

15.Həsənov, B., Mustafayeva A., Hüseynoğlu S. və b. (2019). Ədəbiyyat fənni üzrə ümumtəhsil məktəblərinin IX sinfi üçün dərsliyin metodik vəsaiti. – Bakı: Bakı nəşriyyatı. − 224 s.

16.Gündoğdu, B. (2013). Bəxtiyar Vahabzadənin publisistikası. – Bakı: Nurlar. −272 s.

17.Quliyev, R. (2012). Sovet dövrü rəsmi Azərbaycan dili və B.Vahabzadənin Azərbaycan dilinin təbliğindəki rolu. // I Beynəlxalq Bəxtiyar Vahabzadə Simpoziumunun materialları. – Bakı: Qafqaz Universiteti. − 13-15 dekabr. − s.133-140.

18.Oxu (1989). II sinif üçün dərslik. Y.Kərimov. – Bakı: −213 s.

19. Vahabzadə, B. (1976). Sənətkar və zaman: ədəbiyyat, həyat və zaman haqqında düşüncələr. – Bakı: Gənclik. – 236 s.

20. Vahabzadə, B. (1991). Şənbə gecəsinə gedən yol. – Bakı: Azərnəşr. – 334 s.

21. Vahabzadə, B. (2002). Əsərləri. 11 cilddə, X c. – Bakı: Azərnəşr. – 688 s.

22. Vahabzadə, B. (2005). Əsərləri, 12 cilddə, IX c. Məqalələr. Ədəbiyyat və sənət. − Bakı: Azərbaycan nəşriyyatı. − 784 s.

# DÜŞÜNƏN VƏ DÜŞÜNDÜRƏN POEZİYA

***f. f. doktoru Yeganə Hüseynova***

*Gəncə Dövlət Universiteti*

**Açar sözlər:** B. Vahabzadə, poema, məzmun, şair, insan.

**Xülasə:** Vaxtilə görkəmli dilçi alim, akademik Tofiq Hacıyev Bəxtiyar Vahabzadənin sənətkar fərdiyyətinin mükəmməl səciyyəsini, özünəməxsusluğunu onun həyatı bilməsində, tarixi görməsində axtarırdı. Müəllif sevgi mövzusunun ümumbəşəri mahiyyətinə toxunaraq belə bir qənaət vurğulayır: “Sevgi qədim və əzəli mövzulardır, ancaq hər sevən özü kimi sevir, hər nəslin sevgisi onun özünə daha doğmadır. Şairin dili ilə desək: Sevgi də qocadır... ancaq hər sevən ürəklə o cavanlaşır...Poeziyada bu sevgini “cavanlaşdıran” (müasirləşdirən) onun dil, ifadə yeniliyidir, dövrə uyuşan təravətidir. Bəxtiyar tarixi yaxşı görür, ona güvənir, ona arxalanır, ancaq ustadlarının sənətinin kölgəsində daldalanmır. Onlardan öyrənir, lakin dünyanı və cəmiyyəti “özü kimi görür” və “məhz özü kimi qələmə alır”. Bu “özü kimi” prinsipi sələflərinə uyğun gələn və ənənəvi motivlərlə səsləşən məqamlarda xüsusilə diqqəti çəkir...”

Bəxtiyar Vahabzadənin yaradıcılığına məxsus olan elə keyfiyyətlər var ki, onu şairin zəngin üslubi çalarlarla seçilən lirikasında da eynilə izləmək olar. Saf və pak məhəbbət duyğularını ifadə edən lirik ricətlər az sonra qoşma, gəraylı, qəzəl kimi klassik Azərbaycan şeirinin geniş yayılmış poetik janrları ilə ara-sıra əvəzlənməsi də şairin ənənəyə bağlılığını əyani təsdiqləyən faktlardandır. Bunu şairin lirikasında, xüsusən bədii ovqat aşılayan qəzəllərində də aydın şəkildə görmək mümkündür. Poetik strukturdakı əlvanlıq və müxtəliflik şairin lirikasının məzmun və ideya istiqamətinin müəyyənləşməsində xüsusi bir funksiyanı yerinə yetirməyə yönəldilir. Çox əlamətdardır ki, Bəxtiyar Vahabzadənin lirikası belə məqamlarda artıq dərəcədə dünyanın və zamanın gərgin, həyəcanlı və narahat anları üstə köklənmək cəhdini əyani surətdə nümayiş etdirir. Daxili narahatlıq, bəşəriyyəti düşündürən qlobal hadisələrin onun ictimai məzmun və mündəricəsi ilə seçilən lirikası üçün əsl münasibət və mühakimə predmeti seçilməsi məhz bu amillə izah oluna bilər.

## B. VAHABZADƏNİN LİRİKASI

Lirika Bəxtiyar Vahabzadə yaradıcılığının əsas mahiyyət və istiqamətini təyin etsə də, o elə poetik axtarışlarının ilk mərhələlərindən etibarən epik şeir sahəsində də öz qələmini sınamağa təşəbbüs göstərir. Az keçmir ki, onun içərisində nəfəs aldığı dövrün, zamanın həqiqətlərindən, insani münasibətlərdəki aşınmalardan, bəzi zidiyyətli məqamlardan bəhs edən ilk poemaları işıq üzü görür. Əlbəttə, şairinin epik şeirə gəlişində və onun yaradıcılıq sirlərinə yiyələnməsində lirik əsərlərində qazanmış olduğu təcrübə və peşəkarlıq fəal şəkildə iştirak edir. Bu fikri irəli sürərkən, heç şübhəsiz, şairin lirik şeirlərində özünü aydın surətdə göstərən mükəmməl və dinamik süjet xəttini, surət və obrazların daxili-mənəvi aləmini açmağa yönələn səhnə və təfərrüatları nəzərdə tuturuq. Digər tərəfdən də nəzərə almaq lazımdır ki, əslində ədəbi növlər və janrlar arasında əlaqə və münasibətlər o qədər də mühafizəkar təbiətə malik deyil. Tutaq ki, lirik bir şeir nümunəsində epik səciyyəli səhnələrin və situasiyaların olması bir o qədər də təəccüblü deyil. Adi şeirdə belə sənətkar tərəfindən dramatik janrın ayrı-ayrı element və təzahürlərinə rast gəlinə bilər. Bu, təbii haldır. Belə bir cəhət, söz yox ki, şairin yaradıcılıq təbiətindən və istedadından, qələmə aldığı həyat həqiqətlərinin bədii ifadəsindən çox asılıdır. Tənqidçi Ş. Salmanov Bəxtiyar Vahabzadə yaradıcılığında poema janrının inkişaf xüssiyyətlərini araşdırarkən onun epikliyə daha çox yaxınlaşdığını qeyd edərək janr, forma, mövzu kimi səciyyəvi xüsusiyətlərini də təhlil edir: “Həm də bu poemalar üçün mövzu müxtəlifliyi və aktuallığı, forma-janr əlvanlığı, həyatımızın ən canlı və ümdə məsələlərini qaldırmaq cəhdi səciyyəvi bir xüsusiyyət kimi özünü göstərir”

Doğrudan da, Bəxtiyar Vahabzadə poemalarını araşdırarkən üzərində ən çox dayanılası problem onun poemalarının janr, mövzu, süjet və məzmun müəyyənliyinin zənginliyi və çoxçeşidliyidir. Buna şairin poema yaradıcılığı ilə bağlı yazan, demək olar ki, əksər tənqidçi və ədəbiyyatşünaslar bu və ya digər şəkildə toxunmuşlar. Bu isə hər şeydən əvvəl şairin janra yaradıcı yanaşması və yazdığı poemaları ilə Azərbaycan poemasını janr, forma, süjet baxımından zənginləşdirməsi deməkdir. Vaxtilə tənqidçi Ə. Ağayevin dediyi kimi: "Bəxtiyar Vahabzadənin bir şair kimi özünəməxsus poetik üslubu indi artıq göz qabağındadır. Onun yaradıcılıq yolu başqalarının keçdiyi yola bənzəmir, öz mövzuları var, hər mövzuya yanaşma və onu işləmə ədası var; süjet çərçivəsinə daxil ola bilən hadisələrə daha çox meyillidir, tərənnümdən çox bədii mühakiməyə - canlı təsvirlə təhlilin qovuşuğundakı fikir doğurucu nöqtələrə həssas yanaşır, düşünür və düşündürməyə çalışır"

Bəxtiyar Vahabzadə poemalarının bir çoxu janrı mövzu, ideya, struktur baxımından zənginləşdirir. Əgər "Gülüstan" poeması ideya cəhətdən janrı inkişaf etdirirsə, "Muğam" poeması struktur və mövzu baxımından yeni və orijinal səslənir. "Gülüstan"la şair xalqın milli siyasi düşüncə tərzini, "Muğam"la milli sərvətimizin mənəvi gözəlliklərini açmağa nail olur. "Muğam" poeması yalnız milli xalq musiqisinin mahiyyətini açmaqla kifayətlənmir, həm də janrı mükəmməl forma və məzmunun vəhdətilə inkişaf etdirir. "Şəbi-hicran", "Ağlar-güləyən", "Yollar-oğullar", "Həyat-ölüm", "Qəm içində sevinc", "Təzadlar", "Qiymət", "İkinci ömür", "Vətən mənəm, mən vətənəm", "Atılmışlar", "Amerika gözəli", "Bağışlayın, səhv olub", "Şəhidlər" və s. poemaları da orijinal janr elementləri, mövzu və problematikası ilə janrın yeni inkişafını şərtləndirir. Bu poemalarda etik-mənəvi məsələlər, şəxsiyyətin fərdi keyfiyyətləri, milli ideal, amal və bir məqsəd uğrunda mübarizəsi məhz çətin həyatın sınaqlarından keçirilərək ümumiləşdirilir. Sosrealizmin ən qızğın çağında belə şair onun çərçivələrini dağıdaraq qapalı cəmiyyətdə şəxsiyyət və ləyaqətin ucalığı, iradi keyfiyyətləri nəsillər üçün örnək ola biləcək ömrünün və mübarizəsinin mahiyyətini üzə çıxarmağa çalışır. Müxtəlif yaradıcılıq dövrlərində qələmə alınan "Yollar- oğullar", "Mərziyyə" və "Ləyaqət" kimi epik əsərlərdə bu cəhət üst qatda özünü büruzə verən yaradıcılıq məziyyəti olaraq səslənir. "Qiymət" poemasında milli mentalitetə dayanan mənəvi meyarları təsvir edərək tələbə qiyməti kontekstində həyati, fəlsəfi nəticələr çıxarılır. "Şəbi-hicran" poemasında Füzuli qəmini, kədərini ifadə edə bilən yeni poetik formadan istifadə edir. Bir sözlə bu poemalar zamandan, mövzudan, məzmundan asılı olaraq müxtəlif forma və struktur yeniliyilə əvəz olunur ki, bu da şairin poema yaradıcılığındakı inkişaf mərhələlərini aydın şəkildə ifadə edir. Bu inkişafın necə getdiyini, hansı mərhələlərdən keçdiyini görmək üçün şairin yaradıcılığının ilk mərhələsinə nəzər salmaq kifayətdir. Bəxtiyar Vahabzadənin epik yaradıcılığında da bu cəhət aydın şəkildə sezilməkdədir. Şairin epik şeir sahəsində ilk axtarışlarının təsnifatını aparan müəlliflər 1944-1958-ci illər arası qələmə alınan poemalardan çıxış edərək belə qənaətə gəlirlər ki: "Əlbəttə, ilk yaradıcılıq axtarışları dövründə (1944-1958) yazdığı poemalarında Bəxtiyar Vahabzadənin bu cür maraqlı, məzmunlu həyat hadisələrini əks etdirməsi, xüsusilə mühüm, miqyaslı mövzulara müraciəti sonrakı poemalarının yaranması üçün bir növ hazırlıq idi, çətin və mürəkkəb bir janrda özünü sınamaq idi". Bununla yanaşı, elə bu mərhələdən etibarən şairin seçdiyi mövzular və həyat həqiqətlərinin inikasına can atdığı ictimai mətləblərin əlvanlığı müxtəlif istiqamətlərə ayrılır. Bu yaradıcılıq mərhələsində şairi düşündürən və narahat edən mövzu və problemlərin tədricən dar və məhdud çərçivəsindən çıxaraq daha geniş və miqyaslı hadisələrin təsvir və inikasına nail olmaq əsas məqsədə çevrilir. Bir cəhəti də qeyd etmək lazımdır ki, epik səpkili ilk nümunələrdə bəzən bir-birini təkrarlayan mövzulara və ya təfərrüfatlara rast gəlinməsi şairin yaradıcılıq axtarışlarının hələ kifayət qədər yetkin bir səviyyəyə gəlib çatmadığını da əyani nümayiş etdirirdi. Bu, daha çox ailə-məişət və insani münasibətlərdən bəhs edilən epik nümunələrdə aydın nəzərə çarpırdı.

Bəxtiyar Vahabzadənin ilk poemalarında "Dostluq" (1944), "Aylı gecələr" (1947), "Toxucu qız" (1949), "Əbədi heykəl" (1951), "Sadə adamlar" (1954), "İztirabın sonu" (1956), "Şəbi-hicran" (1958) müasir həyat həqiqətlərinə maraq, zamanın gerçəkliklərinə, narahat və həyəcan doğuran məqamlarına fəal münasibət zaman-zaman yetkin bir səviyyə kimi formalaşmağa istiqamət alan başlıca yaradıcılıq məziyyəti olaraq diqqəti çəkir. Bu poemaları ayrı-ayrılıqda hər hansı bir formaya daxil etmək çətindir; burada epikliklə liriklik və dramatiklik qovuşuq şəkildə təzahür edir. Şairin bu dövr poemalarında süjet sadəliyi, hadisəçilik, lirik qəhrəmana məxsus hiss və həyəcan kimi elementlər başlıca yer tutur. Bəxtiyar Vahabzadənin bu dövr poemalarını mövzu, süjet və janr baxımından ilkin axtarış məsrhələsi də adlandırmaq olar. Təsadüfi deyil

ki, şairin mövzuları ya istehsalatdan, ya da müharibədən olurdu. Bu da dövrün ideoloji meyillərindən irəli gəlirdi. Lakin onu da demək lazımdır ki, şairin ilk poemalarında mövzu, problem, süjet yeknəsəqliyi olsa da, konfliktin bədii həllinin orijinallığı baxımından tamamilə seçilirdi. Bu poemalarda şair canlı epik, lirik təsvirlərilə oxucunu inandıra bilir, məntiqi poetik mülahizələrilə yeni insan xarakterləri yaradırdı.

## VAHABZADƏ YARADICILIQININ İLK EPİK NÜMUNƏSİ

Bəxtiyar Vahabzadənin "Dostluq" poeması ilk epik nümunə kimi xüsusi əhəmiyyət kəsb edir. Poemanın ayrı-ayrı hissələri lirik, epik, dramatik səhnələrlə zəngindir. Olsun ki, bu qovuşuqluq təsvir olunan hadisələrin mahiyyətindən irəli gəlmişdir, ancaq bunu da yaddan çıxarmaq olmaz ki, Bəxtiyar Vahabzadənin ən kiçik bir şeirində belə bu üçlüyün (lirik, epik, dramatik) sintezini görmək mümkündür. İlk dəfə "Azərbaycan gəncləri" qəzetinin 13, 15, 18 iyun 1947-ci il tarixli saylarında işıq üzü görən poemada təsvir olunan hadisələr Ukrayna torpağında cərəyan edir. Faşist cəlladlarının törətdikləri cinayətlər, xarabazara çevrilən kəndlər, şəhərlər, narahatlıq və həyəcan içərisində yaşayan insanların sarsıntı və iztirabları poemanın elə ilk sətirlərində təsirli bədii vasitələrlə təsvir olunur, oxucu birdən-birə bu gərgin situasiyanın müşahidəçisinə və iştirakçısına çevrilir:

Ukrayna… Fəlakət üz vermişdir bu yurda,

Yaralıdır torpağın çırpınan qəlbi burda.

Xeyli keçmiş gecədən, bütün meşə qaralmış,

Mışıl-mışıl yataraq, dərin yuxuya dalmış.

Xəfifcə əsən külək sanki dillənib ağlar,

Nəğmələr pıçıldayır xışıldayan budaqlar.

Səsində bir ah-fəğan, titrədir gecə yarı,

Yeknəsəq ahəng ilə ötür gecə quşları…

Döyüş səhnələrini, qırğın və fəlakətlərlə müşaiyət olunan məqamları təbiətlə qarşılıqlı əlaqə və vəhdətdə vermək şairin poemalarında uğurla işlətdiyi bədii vasitələrdir. Bu, insan xarakterlərini, psixoloji ovqat və əhval-ruhiyyəni daha münasib təsvir ifadə etmək üçün zəruri bir üsul kimi burada özünü açıq-aydın göstərir. Poemanın ilk sətirlərindən etibarən nisbətən ahəstə bir ahəng üstə köklənən hadisələr tədricən gərgin şəraitlə əvəzlənir, müharibə ovqatına məxsus səciyyəvi cəhətlər görüntüyə gəlir. Şübhəsiz ki, bu həm də çətin və gərgin anlarda insani münasibətlərin, döyüş dostları arasında etibar və sədaqətin, dözüm və dəyanətin çətin sınaqlardan çıxması üçün zəmin yaradır.

Əsərin adından da göründüyü kimi, dostluq şairin qarşıya məqsəd olaraq qoyduğu əsas ideyanı ifadə etmək üçün başlıca bir qayə olduğu üçün ideoloji meyillər də yer alır. Poemada müəllif dost yolunda fədakarlığı konkret situasiya və məqamlarda təsvir predmeti seçir. Buna əyani nümunə kimi İsfəndiyarın öz silahdaşını düşmən əhatəsindən xilas edərkən qolunu itirməsi belə ibrətamiz mənzərəni təbii boyalarla göz önündə canlandırır.

Bəxtiyar Vahabzadənin qələmə aldığı ilk poemalarında tədricən ictimai həyatın və zamanın tələblərindən irəli gələn mövzu və problemlərə fəal münasibət də nəzərə çarpacaq dərəcədə müşahidə edilirdi. Əgər şairin yaradıcılığının ilk illərində yazılan "Dostluq"da döyüş səngərlərində, müharibə illərinin ağır və sərt sınaqlarında öz etibar və dəyanətini qoruyub saxlayan dostluq və sədaqət əsil insani münasibət kimi epik təsvir və tərənnüm predmeti seçilirdisə, bir qədər sonra müharibədən sonrakı dinc quruculuq illərində insanların azad və firavan həyatı, əməyin və zəhmətin sayəsində nail olduğu ruh yüksəkliyi, xoş günlərin müjdəçisi olaraq gələcək haqqında düşüncələri əsas yaradıcılıq məqsəd və məramı kimi müəyyənləşirdi. Bu cəhətdən ilk dəfə "Azərbaycan gəncləri" qəzetinin 27 mart 1949-cu il sayında dərc olunan "Toxucu qız" poemasında dramatizm, öz yerini lirizmlə epizmə verməli olur. Poema dövr üçün populyar olan əmək

mövzusundadır; bu şairin əməyi tərənnüm edən ilk poemasıdır. Bu dövr ədəbiyyatını təhlil edən ədəbiyyatşünaslar Y. Qarayev və Ş. Salmanovun qeyd etdiyi kimi: "Müharibədən sonrakı dövrdə bir sıra nəsr və dram əsərlərində əmək, istehsalat mövzularına güclü maraq duyulurdu".

Əlbəttə, dövrün ideologiyası, mövzu çərçivəsi olsa da, şair buraya poeması üçün başqa bir məziyyəti daxil etmişdir; dərin şeiriyyətlə yazılmış əsərdə psixoloji səciyyələndirməyə cəhdlər edilir. Görünür ki, Bəxtiyar Vahabzadə bununla istehsalat mövzusundan çıxmağa çalışır.

Bəxtiyar Vahabzadənin bu poemasında dövrün ideologiyasının təsiri az olmayıb; mənəvi-əxlaqi problemlərin təsvirilə yanaşı, burada istehsalatçılıq da müəyyən yer tutur. Buna görə də poemada Barat daha çox istehsalat prosesində təsvir edilir. İş zamanı onu işindən qeyri heç nə maraqlandırmır, öz həyatı belə arxa plana keçir. İş yoldaşı Sürazərlə sağlam rəqabət və yarış Seyfi üçün böyük əhəmiyyət kəsb edir. O, yalnız istehsalat sahəsinin tənzimlənməsində və irəliləyişlərində fəal iştirak edən bir obraz olaraq qalmır. Müəllif əsər boyu onu insanlarla, qaynar ictimai mühitlə fəal əlaqə və münasibətdə təsvir edir və belə bir cəhət obrazın daxili-mənəvi aləminin oxucu üçün naməlum tərəflərinə işıq salır. Əsərdə nəzərə çarpan bu məziyyətlərə toxunan tənqidçilər Y. Qarayev və Ş. Salmanov bu xüsusda obyektiv nəticəyə gələrək yazırdı: "Şair eyni zamanda əmək prosesində insanların mənəvi cəhətdən formalaşmasını, onların qarşılıqlı hissi münasibətlərini, xoşbəxtlik axtarışlarını da süjetə daxil etməyə, bununla da poemada süjeti məhz mənəvi-psixoloji cəhətdən qüvvətləndirməyə ciddi həvəs göstərirdi. Bu nöqteyi-nəzərdən qabaqcıl toxucu qız Nabat və Seyfi arasında yaranan, tədricən qüvvətli bir hissə çevrilən məhəbbət xətti, heç şübhəsiz, poemada süjetin inkişafını təmin etmiş olurdu".

Maraq doğuran bir cəhət də ondan ibarətdir ki, şairin epik irsində müxtəlif və rəngarəng mövzular, ayrı-ayrı həyat həqiqətləri də tez bir zamanda əsas münasibət və təsvir predmetinə çevrilməyə başlayır. Bu baxımdan Bəxtiyar Vahabzadənin poemaları üçün səciyyəvi olan janr tipologiyası da elə keçən əsrin 50-ci illərindən etibarən daha effektli şəkildə mükəmməl xarakter almağa istiqamətlənir. "İftixar" poeması ilə şair mövzunun istiqamətini dəyişir. Məktəb yaşlı uşaqlar üçün yazılan poemada mövzunun uşaqların dünyagörüşünə və psixologiyasına uyğunluğu da xüsusi həssaslıqla nəzərə alınmış, uşaqları düşündürən saf və təmiz niyyətlər, arzu və istəklər öz poetik ifadəsini tapmışdır.

Poema nikbin və didaktik-nəsihətamiz sonluqla tamamlanır. Burada xalq müdrikliyindən təlqin olunan fikir və düşüncələr ümumi ideyanın tam halda ifadəsinə kömək edir, əsərin finalına, süjet xəttinin bütövlüyünə, inkişaf xəttinə əsaslı təsir göstərir. Bu əsər həm də Bəxtiyar Vahabzadənin poemalarının janr tipologiyasındakı əlvanlığı, müxtəlifliyi də əyani nümayiş etdirir.

"Əbədi heykəl" (1951) poeması üçün əsas mövzu və konflikti faşist Almaniyasının bütün bəşəriyyət üçün real təhlükəyə çevrilən, insanlıqla bir araya sığmayan vəhşilikləri təşkil edir. Şair poemanı İkinci dünya müharibəsi zamanı həlak olan qardaşı İsfəndiyarın xatirəsinə həsrt etmiş, ancaq poemanın demək olar ki, heç bir yerində onun qəhrəmanlıq və şücaəti ilə bağlı epizodik səhnələrə rast gəlinmir. Bunu poema müəllifinə bir irad kimi ünvanlamaq doğru olmazdı. Ancaq burada faşizm üzərində qələbəni təmin etmiş minlərlə qəhrəmanın, cəsur döyüşçülərin ümumiləşmiş obrazı kifayət qədər görünməkdədir. Poemanın başlanğıc hissələrindən məlum olur ki, faşizmin yuvasına dönən Hitler Almaniyasının əsas hücum hədəfi yalnız Sovet İttifaqı deyil, o Avropanın ayrı-ayrı ölkələrini də öz təsiri altına almağa cəhd göstərir, millitarist, antiinsan siyasətini zor gücünə həyata keçirməyə çalışır.

Poemada cərəyan edən hadisələr əsasən Norveçdə baş verir. Əsərin Proloq hissəsində Norveç kralının öz xalqına xəyanət edərək daş-qaşlarla yükünü tutub İngiltərəyə qaçması, Hitlerin yürütdüyü hərbi-siyasi avantüraya dəstək verməsi epizodları təbii ehtiyatlarla zəngin olan ölkənin başında Kvislinq kimi milli satqının rəyasət uğrunda apardığı iyrənc mübarizəsi bütün təfsilatı ilə təsvir edilir.

Digər epik əsərlərində olduğu kimi, Bəxtiyar Vahabzadə hadisə və təfərrüatı, cərəyan edən təzadlı və ziddiyyətli situasiyaları təbiətlə, təbii amillərlə sıx əlaqə və vəhdətdə ifadə etməyə təşəbbüs göstərir. Əlbəttə, belə bir cəhd mövzunun, onda ifadə olunan mənəvi-psixoloji ovqatın ən xarakterik səciyyəvi əlamətlərini, miqyasını təsəvvür etməyə geniş imkanlar yaradır:

Açıq səmasını qoca Norveçin

Bir gün fəlakətin tutdu kölgəsi

Düşdü xəyanətin məngənəsinə

Bu göllər ölkəsi, dağlar ölkəsi.

Əsdi xəzan yeli, saraldı bağlar,

Çökdü qara duman dağa, dərəyə.

Kral darda qoyub yoxsul xalqını

Daş-qaşlarla qaçdı İngiltərəyə.

Başını itirib qaçan "başçıya"

Londonlu cənablar afərin dedi.

Şair ekskurslar, keçmişə qayıdışlar vasitəsilə Verterin keçirdiyi hiss və düşüncələrin mahiyyətinə nüfuz edir, Narvinin küçələrində dolaşan qəhrəmanın 1914-cü ildə Qərb cəbhəsində həlak olmasını xatırlatması poemada əsas ideyanın bitkin süjet xəttinin ahəngdar inkişafına və şaxələnməsinə zəmin yaradır.

Hərbi çevrilişlərdən və müharibələrdən ağır məhrumiyyətlərə düçar olan alman xalqı kimi, onun ac və yalavac uşaqlarına şəfqətlə öz qoynunu açan Norveç xalqının bu humanist addımından faydalanan Verter bir qoca sənətkarın hamiliyi ilə böyüyüb boya-başa çatır.

Beş minə yaxın himayəyə götürülən uşaqlar bu ölkədə əsil insani münasibət görür, iqtisadi-mənəvi-psixoloji sarsıntıdan uzaq bir həyat tərzi keçirirlər. Almaniyadan gələn yeniyetmə Verterin də taleyinə belə bir qismət düşür. Yeddi il qoca heykəltaraşın tövsiyəsi ilə sənətlə məşğul olan Verterin keçirdiyi hissiyyatlar poemada tədricən özünü büruzə verir, o öz doğma yurd-yuvasına dönməyə qərar verir. Verterin belə bir cəhd göstərməsini şair,  qoca sənətkarın keçirdiyi təlaş və sarsıntı ilə üzvi vəhdətdə canlandırır, onun dilindən səslənən:

Dedi: – Bu vaxtımda məni qoyma tək!

"Balamsan" – demişəm axı mən sənə,

Evlər bucağında tək qalım yenə?!

Beləliklə, Verterin öz vətəninə yollanması, orada baş verən hadisələrdən, gün-güzərandan narazı qalması, öz sənəti ilə məşğul olmaq əvəzinə, yenidən hərbi işə cəlb olunması epizodları poemanın təzadlı hadisələri və bu hadisələrin insan xarakterinə aşıladığı narahatlıq, həyəcan dolu anları dolğun əks etdirir. Vaxtilə aclıq üzündən Norveçə pənah gətirən Verterin indi bir hərbçi kimi bu ölkəyə ayaq basması, qoca sənətkarın yurdunda faşizmin niyyət və məqsədləri həyata keçirmək üçün ehtiyatlar hazırlanmasına cəlb edilmə səhnələri bu mənada diqqəti cəlb edir. Qaniçən və əzazil Hitlerin heykəlinin ucaldılması ideyasını irəli sürən generalın təşəbbüsünə Verterin tərəddüd etməsi, qoca sənətkarın da bu işə cəlb olunmasına edilən cəhdlər əsərdəki konfliktin daha kəskin şəkil almasına səbəb olur.

Üç hissədən ibarət olan poemanının birinci hissəsi daha çox əsər üçün seçilən konfliktin  əsas səbəbləri barədə yekdil  qənaət hasil edirsə, artıq sonrakı hissələrdə hadisələrin gedişatı ziddiyyət və qarşıdurmanı doğuran  səbəblərin tam təfsilatı ilə ifadə edilməsi ilə səciyyəvilik qazanır. Artıq burada poemanın ideya-estetik idealı və problematikası kimi müəyyənləşən  məsələlər yüksələn xətt üzrə  inkişaf etdirilir,  sənət əsəri və onu yaradıb araya-ərsəyə gətirən sənətkarın taleyi, yaratdığı əsərin tarixi aqibəti ilə bağlı keçirdiyi psixoloji sarsıntılar, həyəcan və narahatçılıqlar əsas  münasibət müstəvisinə gətirilir.

Poemanın birinci fəslində  əgər Norveçin təbii sərvətlərinin, faydalı qazıntılarının, dağ-mədən ehtiyatlarının talanması əsas təsvir predmeti idisə,  ikinci fəsildə artıq həmin materiallardan hazırlanan, müxtəlif xarakterləri və obrazları canlandıran  heykəllərin, sənət əsərlərinin sındırılaraq vəhşicəsinə qarət edilməsi,

faşizmin hərbi sursat ehtiyatlarının hazırlanmasına yönəldilməsi səhnələri əsərdə kuliminasiya nöqtəsi həddinə çatır.

Qoca heykəltəraşın fürerin (Hitlerin) obrazını yaratmaqdan imtina etməsi də süjet boyu yadda qalan təsirli epizodlardandır. Bu mənada generalla qoca sənətkarın qarşılaşdığı və üz-üzə gəldiyi səhnələr özünün kəskinliyi, barışmaz mövqelərin toqquşmaları kimi dəyərləndirilə bilər:

Keçdi bir neçə gün... general özü

Çağırdı yanına heykəltəraşı.

Bilincə mətləbi yazıq qocanın

Qaraldı gözləri, hərləndi başı.

– Oyuncaq deyildir əldə sənətkar!

Cənab, sənətin də öz mövzusu var!

– Fürer mövzu deyil?

– Elədir. Ancaq

– Alınan mövzunu hər şeydən qabaq

– Ürəkdən yaşamaq, sevmək gərəkdir,

Yaranan hər əsər çarpan ürəkdir .

Nəhəng zavodların, kombinatların metal ehtiyatlarının talan edilməsinə etiraz edənlərdən biri olan Verterin uşaqlıq və yeniyetməlik dostu Larsenin partizan hərəkatına başçılıq edərək bu mənfur avantürizmə qarşı çıxması poemanın müəyyən hissələrində epizodik hallarda xatırlansa da, əsərin sonlarına yaxın onun qəhrəmanlığı və şücaəti sayəsində qarşıya qoyulan əsas məqsədə nail olunur.

Nəhayət, qoca sənətkarın həbsxana küncündən çıxarılaraq bağçaya gətirilməsi, gözlərinin qabağında uzun illər boyu düşünüb-daşındığı, yaratdığı sənət əsərlərinin, heykəllərin, faşist əsgərləri tərəfindən bir anın içində vəhşicəsinə dağıdılaraq məhv edilməsi fonunda cərəyan edən hadisələr qarşı-qarşıya gələn tərəflər arasındakı mübarizənin gərginliyini bütün təfərrüatı ilə sərgiləyir.

Norveçin milli qəhrəmanı Trammelin öz yurdunu və millətini canından artıq sevən mətin və mübariz obrazını yaradanların, qoca heykəltəraşla, artıq faşizmin vandalist siyasətini icra edənlərin siyahısına qatılan kapitan Verterin vaxtilə birlikdə araya-ərsəyə gətirdikləri sənət əsərinin uçurularaq məhv ediləcək səhnələrində büsbütün dəyişilməsi, heykəli dağıtmağa cəhd göstərənləri silahla qarşılaması, heykəlin (sənət əsərinin) yırtıcı faşist quldurlarından xilas edilməsi, bunun ardınca “Çapıq Larsen”in başçılığı altında igid partizan dəstələrinin meydana atılması haqq və ədaləti təmsil edən qüvvələrin qələbə təntənəsinin ibrətamiz səhifələri kimi qarşılanır.

Poemanın son hissələrində alman generalının qeyri-bərabər döyüşlərdə qumbara ilə Trammelin heykəlinin yerlə yeksan etməsi, yaralanması səhnələri artıq faşizmin məğlub durumunu, acizliyini göstərən fakt kimi də əyaniləşir. Heykəl obrazı poemanın ideya-estetik məzmunu dərindən ifadə edən amil kimi xüsusi əhəmiyyət daşıyır. Bəzən bu, rəmzlər, xüsusi işarələr vasitəsilə də özünü büruzə verir.

Faşistlərlə döyüş zamanı həlak olan Viktorun qəhrəmanlığı, Norveç xalqı qarşısında əvəzsiz xidmətləri yeni bir heykəlin - əbədi heykəlin - xatirələrdə, yaddaşlarda zaman-zaman yaşayacağına dərin inamı da aşılayır. Əslində qoca heykəltəraşın Viktorun qəbri üzərində ucaltdığı heykəl əbədiliyə, ölməzliyə qoyulan bir heykəldir, qənaəti poemanın finalında xeyirxah qüvvələrin qələbəsinə, yenilməzliyinə dərin inamı təsdiqləyir.

Bəxtiyar Vahabzadənin “İztirabın sonu” (1956) poeması da epik səpgidə yazılan belə nümunələrdəndir. Bu poemada da ailə-məişət mövzusu əsərin əsas ideya istiqamətini müəyyənləşdirir, müəllif gənc bəstəkar

Hatəmin şəxsində təsadüfi tanışlıq nəticəsində Şahnazla qurulan ailənin davranış və münasibətlərində, həyat və dünyagörüşlərində baş verən ziddiyyətlərin fonunda yaranan fikir ayrılıqlarını, tamamilə fərqli düşüncə tərzlərini konkret hadisə və təfərrüatlar əsasında açmağa müvəffəq olur. Şair poemanın Proloq hissəsində insan xarakterində baş verən təzadları, gözlənilməzlikləri təbiətdə təsadüf edilən hadisələrlə qarşılıqlı müqayisəyə gətirir, dəyişən və bir-birini əvəz edən fəsillərin, ayların, günlərin heç də eynilə təkrarlanmadığını önə çəkməklə, insanların da belə bir xislətə malik olduğunu diqqətə çatdırmağa çalışır.

Həmin dövrdə yazılan epik nümunələrin bir çoxunda bilavasitə S.Vurğunun “Aygün” poemasının təsiri aydın şəkildə görünməkdə idi. Hətta bu təsir bəzən ailə-məişət mövzusunda yazılmayan və ya epizodik hallarda bu məsələlərə münasibət bildirilən nümunələrdə də nəzərə çarpacaq dərəcədə özünü büruzə verirdi. Ailədəki fikir ayrılıqlarını və ixtilafları qabarıq əks etdirən əsərlərə münasibətdə tənqid və ədəbiyyatşünaslığın irəli sürdüyü mülahizələrdə bəzən bu halların sovet həyat tərzinə yad olması israrla qeyd olunsa da, bu, əslində həyat və dünyagörüşlərində olan ziddiyyətlərin bilavasitə mövcudluğundan irəli gələn bir hal idi. Elmi-nəzəri fikirdə konfliktsizlik nəzəriyyəsi nöqteyi-nəzərindən təhlilə cəlb edilən nümunə kimi “Aygün” poemasına verilən qiymətlər də bu baxımdan birmənalı qarşılanmırdı. Bəzən ailə-məişət mövzularında yazılan əsərlərə münasibətdə ifrat vulqar sosiologizm meyillərinin özünü göstərməsi siyasi-ideoloji diktə və təzyiqlərin nəticəsi kimi meydana gəlir, bunu hətta sənətkarın ailəyə, qadına köhnə münasibətinin bir nümunəsi kimi təqdim edilmək hallarına da təsadüf edilirdi. Məsələn, Aygünlə Əmirxan arasındakı münasibətlərdən bəhs edilərkən belə bir fikir irəli sürən müəlliflərin bir çoxu qətiyyətlə bildirirdi ki: “Şair nə üçün Aygünü həmişə Əmirxanın yaramazlıqlarını bağışlamağa çağırır, o, belə gözəl “əxlaq dərslərindən” Əmirxana nə üçün vermir? Bunun səbəbi müəllifin öz görüşlərində, qadına qarşı köhnə münasibət bəsləməsində, ailəni möhkəmləndirmək ideyasını yanlış başa düşməsində deyilmi?”.

Bu cür suallar şübhəsiz ki, gənc Bəxtiyar Vahabzadənin bir müəllif kimi özünə və qəhrəmanlarına münasibətinə də ünvanlana bilərdi. Çünki keçən əsrin ortalarında ailə-məişət mövzularında qələmə alınan əsərlərə belə bir baxış bucağından yanaşma ön mövqeyə çıxır, hətta mövzu və sənətkarlıq məsələləri kimi yenidən aktuallıq qazanır. Bəzən belə məqamlarda bədii həqiqətlə həyati gerçəkliyi eyniləşdirmək cəhdləri də nəzərə çarpırdı. Qəhrəmanın və ayrı-ayrı surətlərin səciyyəvi cəhətlərinin müəyyənliyindəki sinxronluğu da, yanlış addımları da sənətkarın adına yazmaq təşəbbüslərinə təsadüf edilməsi adi hala çevrilirdi. Belə bir xarakterik məqam istehsalat mövzularında yazılan əsərlərdəki ailə-məişət məsələlərindən bəhs edilən epizodlarda da dəyişməz münasibət kimi nəzərə çarpır. “Sabah nəfəsli sənətkar” adlı dialoqda şairə ünvanlanan sual və ona verilən adekvat cavab bu baxımdan maraqlı, eyni zamanda diqqətəlayiq və özünəməxsus məqamları ilə yadda qalır. Şairə ünvanlanan: “Yaradıcılığınızın bu vaxta qədərki bütün tarixini hansı mərhələlərə bölərdiniz? Hər mərhələnin əsas xüsusiyyəti kimi nəyi və əsas səciyyəvi bədii nümunəsi kimi hansı əsərləri qeyd edərdiniz?” sualına şairin “İztirabın sonu” əsərinin adını çəkməsi təsadüfi deyil. Yaradıcılığının ilk mərhələsi ilə ikinci mərhələ arasında açar hesab etdiyimiz bu poemanı şair özü də yüksək qiymətləndirir: “... Bu mərhələdə ən böyük uğurum “İztirabın sonu” poeması oldu. Bu əsər bilavasitə həyatın diqtəsi ilə yazılmışdı. Buna görə də burada o dövr poeziyasına xas olan ümumiçilik, mühakiməçilik əvəzinə müəyyən şərait daxilində adamların konkret həyəcanları, məhəbbəti və nifrəti göstərilir. Tərənnüm edilmir, məhz göstərilir. Etraf edim ki, bu illərdə (yəni 1945-1960) S.Vurğundan başqa mənə ən çox təsir göstərən şair O. Sarıvəlli idi...

Sonrakı yaradıcılığımı mərhələlərə bölmək mənim üçün çox çətindir. Ona görə ki, mən belə hesab edirəm ki, ümumiyyətlə yaradıcılığımda mərhələdən çox istiqamətlər mühüm rol oynayır. Mərhələlərin sərhədini təyin etmək çətindir”.

Bəxtiyar Vahabzadənin epik yaradıcılığının birinci mərhələsində qələmə aldığı ədəbi nümunələrin mövzu, problematika, süjet və janr xüsusiyyətləri bir daha onu təsdiqləyir ki, şairin bütün istiqamət və sahələr üzrə axtarışları bilavasitə bu dövrdən başlayaraq özünün inkişaf və təkamül prosesini keçirir. Əslində kəskin fikir və mövqe toqquşmaları, dramatik təzadlar və gərgin situasiyalar B.Vahabzadənin poemalarında özünün parlaq bədii ifadəsini tapır. Bu cəhət sonralar şairin bir dramaturq kimi məhsuldar yaradıcılıq axtarışları aparmasına da müsbət təsir göstərir. Məhz bu mərhələdən etibarən şairin poemalarında azadlıq və istiqlal mübarizəsinin ayrı-ayrı səhnələri epik təhkiyə üçün aparıcı münasibət predmeti seçilir. Bu mənada “Aylı

gecələr", "Əbədi heykəl" kimi poemalarda qaldırılan problemlər öz coğrafi ərazi və məkanının müxtəlifliyinə baxmayaraq, istiqlal və azadlığın hər bir xalq və millət üçün əvəzolunmaz bir nemət və tale qisməti olması fikri özünü bütün təfsilatı ilə qabarıq büruzə verir. Buna baxmayaraq şairin ilk dövr poema yaradıcılığında qüsurlar da az deyil. Bu qüsurları vaxtilə ədəbi tənqid də qeyd edirdi. Çağdaş Azərbaycan ədəbiyyatşünaslığının mövqeyindən baxdıqda da dövrün ədəbi tənqidinə haqq qazandırmaq olur. Şairin ilk yaradıcılığında müşahidə olunan bu qüsurları tənqidçilərdən M. Arif, Ə. Ağayev də qeyd etmişdi. Belə ki, Bəxtiyar Vahabzadə yaradıcılığının bu dövründə poemanın janr etibarilə mükəmməl olmadığını görmək olar. Eyni zamanda bu poemalar müəyyən sənətkarlıq qüsurlarından da xali deyildi. Bu poemalarında şair bəzən həddən çox haşiyələrə çıxdığından əsas mətləbdən uzaqlaşırdı. Bəzən isə canlı, realist təsvirlər didaktizmlə əvəz olunurdu.

Şübhəsiz ki, Bəxtiyar Vahabzadənin poema yaradıcılığnın birinci mərhələsindəki mövzu, janr, süjet axtarışları ikinci mərhələdə daha da təkmilləşmiş şəkildə davam və inkişaf etdirilir, süjet-kompozisiya, konflikt və xarakter kimi poetik struktura məxsus komponentlərdə nəzərə çarpan qüsur və nöqsanlar tədricən aradan qaldırılır, hadisə və situasiyaların dinamik inkişafına zəmin yaradan məqamlar fəlsəfi-epik ümumiləşdirmələrlə əvəzlənir.

## NƏTİCƏ

Xalq şairi Bəxtiyar Vahabzadənin çoxcəhətli ədəbi irsinin aparıcı sahə və istiqamətlərindən biri olan poema yaradıcılığı özünün mövzu və problematika, forma, janr, ideya-sənətkarlıq xüsusiyyətlərinin bir sıra əlamətdar məziyyətlərilə diqqəti cəlb edir. Şairin poemalarında insan və zaman tez-tez müraciət olunan, adı mütəmadi olaraq çəkilən anlayışlardandır. Bu, heç də təsadüfi deyil.

Şeirlərində, publisistika və dramaturgiyasında olduğu kimi Bəxtiyar Vahabzadə poemalarında da taleyüklü məsələləri qaldırır və diqqət mərkəzinə çəkir. Ciddi problem məsələlər, milli-mənəvi yaddaşın ibrətamiz səhnələri, azadlıq və istiqlal uğrunda aparılan qanlı-qadalı mübarizələr, insanın daxili dünyasının tərcümanı olan inam və iman uğrunda amansız çarpışmalar şairin poemalarında toxunduğu əsas mövzulardan birinə çevrilməsi baxımından xüsusi önəm daşıyır.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

1. Aytmatov Ç. Yaradıbdır inam məni, mən inamın övladıyam (Ön söz) // Vahabzadə B. "Axı dünya fırlanır". Bakı: Yszıçı, 1987. 208 səh.

2. Vahabzadə B. Əsərləri. 11 cilddə, XI c., (publisistika), Bakı: Azərbaycan, 2005.784 səh.

3. Vahabzadə Bəxtiyar, Əsərləri: 11 cilddə, VI c., Bakı: Çaşıoğlu, 2003. 776 səh.

4. Vahabzadə B. Şəhidlər (Poema). Azərbaycan Mədəniyyət Fondu. Bakı: Elm, 1990. 48 səh.

5. Vahabzadə Bəxtiyar. Əsərləri. 11 cilddə, I c., Bakı: Azərbaycan, 2001. 544 səh.

# ZİRVƏLƏRƏ GEDƏN YOLDA

ON THE WAY TO THE SUMIT

НА ПУТИ К ВЕРШИНЕ

***İradə Əlibala qızı Yusifova***

*AMEA – nın Şəki Regional Elmi Mərkəzinin*

*"Folklorşünaslıq və el sənətləri" şöbəsinin müdiri*

*AMEA – nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun dissertantı*

**XÜLASƏ**

Məqalədə XX əsr Azərbaycan və türk dünyasının qüdrətli söz azmanı Bəxtiyar Vahabzadənin bədii – elmi fikir dünyasının özəlliklərindən söz açılır. Müəllif lakonik şəkildə Şəki ədəbi mühitini, şairin bədii – publisistik, elmi-pedaqoji fəaliyyətinin qısa səciyyəsini verdikdən sonra, B. Vahabzadənin şeir və poema yaradıcılığının məzmun və ideya istiqamətlərini diqqətə çatdırır. Araşdırmada müəllif həmçinin dahi şairin bədii örnəklərində folklordan istifadə məsələlərinə də toxunur. Məqalədə ən mühüm diqqətəlayiq cəhətlərdən biri şairin milli hisslərinin təcəssümü olan "Gülüstan" poemasının təhlil müstəvisinə gətirilməsidir. Tədqiqatçı əsərdən gətirilimiş nümunələrlə analitik təhlil yolu ilə şairin milli duyğularını qabarıq şəkildə diqqətə çatdırmışdır.

**Açar sözlər:** B. Vahabzadə, şeir, "Gülüstan" poeması, publisistika, elmi-pedaqoji irs

**ABSTRACT**

The article discusses the features of the artistic and scientific world of thought of Bahtiyar Vahabzade, one of the powerful orators of the Azerbaijan and Turkish world of the XX century. After briefly describing the literary environment of Sheki, the poet's artistic-journalistic, scientific-pedagogical activity, the author draws attention to the content and ideas of B. Vahabzadeh's creation of poetry and poetry. The author also refers to the use of folklore in the works of the great poet. One of the most important aspects of the article is the analysis of the poem "Gulustan", which contains the national feelings of the poet. The researcher highlighted the national feelings of the poet by making comprehensive analyzes with examples from the work.

**Keywords:** B. Vahabzade, poetry, "Gulustan" poetry, journalism, scientific and pedagogical heritage

**РЕЗЮМЕ**

В статье рассматриваются особенности научно-художественного мирово - зрения Бахтияра Вахабзаде, одного из могущественных ораторов Азербайджан ского и тюркского мира XX века. После краткого описания литературной среды Шеки, в художественно – публицистической и научно – педагогической деятельности поэта, автор обращает внимание на содержание идеи поэтического творчества Б. Вахабзаде. Автор с своем исследование также обращается к художественным образцам фольклора в творчестве великого поэта. Одним из вознейших аспектов статьи является анализ поэмы «Гюлистан», в которой заключены национальные чувства поэта.

Исследователь литературно – аналитическим путём выделил национальные чувства поэта.

**Ключевые слова:** Б. Вахабзаде, стихотворение, поэма «Гюлистан», публицистика, научно – педагогическое наследие.

## GİRİŞ

Dağlar qoynunda məskunlaşan qədim diyar-Şəki. Üç tərəfdən dağlarla əhatə olunmuş, yaşıllığa bürünmüş ipək-çiçək Şəkisindən Azərbaycanımızın paytaxtına doğru bir yol uzanır. Şəki-Bakı yolu. Bu yol sadəcə gediş-gəliş yolu deyil, hərəkətliliyi istiqamətləndirmir. Bu yol-bu hissə həm də Şəkidən şərqə açılan pəncərədir. "Bu dünya bir pəncərədir, hər gələn baxıb gedər"-deyiminə güvən versək bu yolun böyüklüyü, bu pəncərənin genişliyi və işıqlılığı gözlərimizi qamaşdırmaqla yanaşı fikir və düşüncələrimizin söykəndiyi həqiqətləri də sərgiləmiş olur. Şəkidən başlayan bu yol, dünyaya açılan bu pəncərə elmə, biliyə, özünüdərkə və dünyaya Şəkinin və şəkililərin giriş-çıxışıdır. Bu yollardan keçərək Mirzə Fətəli Axundov Şəkidən Tiflisə ayaq açıb ulu Şərqin idrak və təfəkkür zirvəsinə yüksəlib, müdrikliyi fəth edib. On üç yaşında ikən Rəşidbəy Əfəndiyev Şəki şəhərindən çıxaraq maarif və mədəniyyət pərvanəsi kimi öz ziyasını bütün Azərbaycana yayıb...

**Əsas hissə:** Türk dünyasının ikinci minillikdə yetişdirdiyi Azərbaycan ədəbiyyatının, bütövlükdə XX əsr türk poetik fikrinin görkəmli nümayəndəsi, böyük şəxsiyyətlərdən biri, çoxsahəli fəaliyyəti və rəngarəng sənət inciləri ilə könüllər fəth edən Bəxtiyar Vahabzadə Şəkidən pərvazlanıb ümumtürk dünyasının könüllər fatehinə çevrilmişdir.

Türk dünyasının tanınmış şairlərindən olan Çingiz Aytmatov B. Vahabzadənin şairlik qüdrətini yüksək dəyərləndirərək yazmışdır: " Dünyada ad çıxaran çox şair var. "Həyat nədir?" sualına cavab axtaranda yalnız sözü fikirdən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə qol – qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir" [4, s.7]

Ulu şairin irsi-şeirləri, dram əsərləri, elmi-publisist yazıları bir çox xalqların dilinə (ingilis, rus, alman, fransız, fars, türk, polyak, ispan, macar, özbək,qazax,tacik, türkmən,eston, latış, litva, ukrayna, rumin, moldova, gürgü və s. ) tərcümə edilmiş, böyük sevgi, rəğbət və məhəbbətlə qarşılanmışdır.

Əsil sənət əsərinin yaranması günəşin doğulması ilə müqayisə edilərsə, XX əsr azəri-türklərinin poeziya günəşi-xalq şairi, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci il avqustun 16-da Şəkidə doğulmuşdur.

Folklor, dil, etnos, adət-ənənə, bədii təfəkkür və milli özəlliklərə məkan, ərazi, torpaq və təbiət arasında qaynaq və qovşaq da məhz burada - Şəkidə daha çox-qədərincədir. Bu, ulu yaradanın da şəkililərə-bütün azəri türklərinə çox böyük lütfüdür.

Bu gün bütövlükdə ədəbi tənqid və ədəbiyyatşünaslıq dərk və qəbul edir ki, müstəqillik illərindən başlayaraq biz və bizim ədəbiyyatımız bilavasitə türk, şərq və dünya inteqrasiya kontekstindəyik. Getdikcə artan və özünə gələn milli bədii dəyər və sərvət paradiktlərimiz iddia etməyə əsas verir ki, XXI əsr humanitar əsr olmaqla, həm də türk bədii təfəkkür intibahının əsri olacaqdır. Bu gün hər bir azəri-türk ədibi, şairi, mütəfəkkiri bütünlükdə türk dünyasının milli-mənəvi sərvəti olan bədii-intellektual potensial deməkdir.

Bu gün fəxrlə deyə bilərik ki, B.Vahabzadə bu yolda sinəsini yad təsirlərə, şər qüvvələrə səngər edən şeir-sənət Prometeyidir.

Alim Bəxtiyarla şair Bəxtiyar həyat yollarında, elm, ürfan yollarında, milli dərk və axtarışlarında türk oğlu Bəxtiyarı da özlərinə cığırdaş etməklə yanaşı, əqidə və məslək yoldaşına da çevrildilər.

Bəxtiyar Vahabzadə ən böyük beynəlmiləlçi şairdir. Bunun ən ümdə səbəbi isə onun millətçi, millətsevər olmasından, milli varlığı dərkdən, doğma el-obaya bağlılığından, Vətən sevgisindən, Azər-Türk sevgisindən qaynaqlanır, kökə başlılığından rişələnir.

Ömrü boyu qəlbində dünya boyda azəri-türk sevgisi daşıyan və yaşadan Bəxtiyar Vahabzadə qədər son 30-40 ildə ümumxalq məhəbbəti qazanmış ikinci bir şairin adını çəkməkdə söz də çətinlik çəkir.

1945-ci ildə Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilən Bəxtiyar Vahabzadə elmi-pedaqoji fəaliyyətindən də ayrılmamış; 1951-ci ildə "Səməd Vurğunun lirikası" mövzusunda dissertasiyasına görə namizədlik, 1964-cü ildə "Səməd Vurğunun həyat və yaradıcılığı" monoqrafiyasına görə isə filaloji elmlər doktoru alimlik dərəcəsi almışdır. O, 40 ildən artıq bir dövrdə Bakı Dövlət Universitetində dərs demiş, 1990-cı ildə təqaüdə çıxmış, 1980-cı ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildən isə həqiqi üzvü kimi çalışmış, 1980-2000-ci illərdə 5 dəfə Azərbaycan Ali Sovetinə millət vəkili seçilmişdir.

Bəxtiyar Vahabzadə 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi-publisist kitabın və yüzlərlə məqalənin müəllifidir. Onun "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" pyesləri müxtəlif teatr səhnələrində tamaşaya qoyulmuşdur...

1974-cü ildə əməkdar incəsənət xadimi, 1975-ci ildə respublika, 1984-cü ildə isə SSRİ Dövlət mükafatı laureatı adlarına layiq görülmüş, 1995-ci ildə Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsindəki xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Böyük söz ustadının 75 illik yubileyi ərəfəsində Azərbaycan Yazıçılar Birliyinin hazırladığı məlumatdan xatırlatma: "Bəxtiyar Vahabzadənin şeirləri obrazların kamilliyi, bədii vasitələrin müasirliyi və orjinallığı ilə seçilir. Onun bütün əsərlərində dünyaya fəlsəfi baxış əsas yer tutur..."

Bəxtiyar Vahabzadə 60-cı illərdə başlanan milli azadlıq hərəkatının öncüllərindən və ilhamvericilərindən biri olmuşdur. 1950-ci ildə "Gülüstan" poemasını yazıb "Nuxa fəhləsi" qəzetində dərc etdirəndə onun cəmi 25 yaşı vardı. XX əsr Şəki ədəbi – mədəni mühitinin tədqiqatçısı Kamil Adişirinov əsərin ( "Gülüstan" poeması nəzərdə tutulur – İ.Y) "Nuxa fəhləsi" qəzetinin səhifələrinə çıxarılması ilə bağlı yazır: " ....bolşevizmin "məzmunca sosialist" ideyalarının hökm sürdüyü bir vaxtda Məhyəddin Abbasov ( Məhyəddin Abbasov uzun illər "Şəki fəhləsi" qəzetinin redaktoru vəzifəsində çalışmışdır) yüksək vətənpərvərlik nümayiş etdirərək xalq şairimiz B. Vahabzadənin "Gülüstan" poemasını qəzetin səhifələrinə çıxartmışdır" [1, s. 131]. Qurdürəkli şair bu poemasında 1828-ci ildə bədnam Gülüstan müqaviləsi ilə iki yerə parçalanmış bütöv Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyasının vəhşi sifətinə sözün şapalağını elə vurmuşdur ki, o şapalağın yeri və izi hələ də qalmaqda və ürəkləri göynətməkdədir. İki imperiyanın-rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal mübarizəsinə qoşulmuş, son nəfəsinə qədər də bu yoldan bir addım geri çəkilməmişdir. Şairin "Gülüstan" da imperiyalara açıq - aşkar meydan oxuyan hayqırtısı bu gün də qulaqları dəlir:

Hanı bu ellərin mərd oğulları,

Açın bərələri, açın yolları.

Bəs hanı bu əsrin öz Koroğlusu-

Qılınc Koroğlusu, söz Koroğlusu?[ 5, s. 77].

"Söz Koroğlusu" na çevrilən şair Stalin zindanlarının qapılarının yenicə açıldığı bir vaxtda- 1959-cu ildə öz kəfənini özü biçib, özü tikib, özü çiyninə salıb orden, medal növbəsinə "yazılanlanrdan" fərqli imperiya nökərlərinin də üzünə ağ olurdu.

Sovet rejimində milli varlığı tapdanan, hər cür məhrumiyyətlərə məruz qalan millətinin dərdlərini hayqıran şair "Gülüstan"a görə 1962-ci ildə "millətçi" damğası vurularaq çalışdığı universitetdən uzaqlaşdırıldı, yalnız ildən sonra öz iş yerinə qaytarıldı. Əslində o illərdə onun sağ qalmasını böyük yaradanın Azərbaycan xalqına lütfü kimi də dəyərləndirmək olar.

Bütün yaradıcılığı boyu öz xalqının istək və arzularını, ağrı və acılarını tərənnüm edən, gözə görünən və görünməyən məkrli niyyətlərə qarşı mübarizə aparan Bəxtiyar Vahabzadə xalq mənafeyini şəxsi mənafeyindən üstün tutmuşdur.

Nə qədər ki, dünyamızda haqsızlıq görüb, Bəxtiyar Vahabzadənin narazılığı da səngiməyib:

“Gözümün önündə

haqqı döyürlər,

Qışqırır,

səsinə bir səs verən yox.

Zorun arxasında elə gizlənib

Onu nə eşidən,

nə də görən yox...”

Burda şairin haqq səsi ucalır: haqqın haqqı əlindən alınan yerdə “Haqqın haqqı yoxdur, mən haqqam desin**”.**

Bəxtiyar Vahabzadə ətrafında cərəyan edən, onun narahatlığını tarıma çəkən heç nəyə biganə qalmayıb və peyğəmbərliyi də olmayıb. Ancaq bacardığını, qanını və canını da xalqından əsirgəməyib.

Şair, alim, filosof, ictimai xadim Bəxtiyar Vahabzadədən xalq çox şey gözləyir, çox şey umurdu. Və bəzən elə bilirdilər ki, o hər şeyə qadirdir.

Onun bütün titullarına, xalqının gözləntilərinə baxmayaraq, hər şeydən öncə o, şairdir. Bütün “döyüşlərini” də sözlə aparırdı. O, sözünü hər vaxt-50-ci illərdə də, ondan sonra da eyni yanğı, eyni intonasiya ilə deyib.

Şairin zahiri görünüşü, davranışı, danışığı, hadisələrə baxışı və münasibəti də özünəməxsusdur. O, kimsəni təkrarlamayıb və ya təqlid də etməyib. Giley-güzarında da şair ürəyinin çırpıntıları açıq-aydın hiss edilir:

Ey Araz, səpirsən göz yaşı sən də,
Keçdikcə üstündən çölün, çəmənin.
Səni arzulara sədd eyləyəndə,
Niyə qurumadı suların sənin?[ 5, s. 80].

Şübhə yeri yoxdur ki, 90-cı il xalq hərəkatının dalğasının mayasında Bəxtiyar Vahabzadənin “Gülüstan”ı dururdu. O illərdə Azərbaycan gəncləri “Gülüstan”dan dərs alıb “Azadlıq” meydanına azadlıq üçün axışırdılar. Əski düşmən yenə “buynuz çıxardı”, 90-cı ildə Bakının əliyalın azadlıq mücahidlərinin üstünə tanklarla hücuma keçdilər. Azadlığı beşiyində, Bakını öz qanında boğmaq istədilər. “Şəhidlər” dilə gəldi:

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər…[5, s.87; s.315].

İnsan qan verdikcə coşur. Şair də elə, hayqırtısı dağları, daşları lərzəyə gətirir:

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə,
Ölümü kamına çəkdi Şəhidlər…[ 5, s. 315].

50-ci illərdən üzü bu yana zaman da Bəxtiyar Vahabzadənin səsini batıra bilməmiş, onun üsyanına təslim olmuşdur. Hələ o vaxtdan şair görürdü ki, xalqı yuxuya verənlər "öz doğma dilində danışmağı ar bilən

fasonlu ədabazlardı". Şairin onları görən gözü belə yox idi. Dil məsələsində heç kəsə güzəştə getməyən Bəxtiyar Vahabzadə yaxşı bilirdi ki, dil "ürəyin açarıdır", Yad "açar" isə yad qapıları açar.

Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun,
Ancaq Vətən çörəyi,
Sizlərə qənim olsun![4, s.9].

Birinci Qarabağ savaşında da Bəxtiyar Vahabzadə qələmi və ürəyi ilə döyüşlərə atıldı. Türk ellərini birliyə, məkrli düşmənlə amansız mübarizədə birliyə və zəfərə səslədi. O, qələbəyə inanırdı, zəfərin gələcəyinə ümidini itirmirdi. Türk xalqlarının birliyini gündəmə gətirmək onun gündəlik ürək döyüntülərinin əks-sədası, o günü görmək isə ən böyük arzusu idi.

Bu arzunu, bu istəyi qardaş Türkiyə Respublikasının Prezidenti sayın Rəcəb Tayyib Ərdoğan Bakıya ziyarətlərinin birində yüksək tribunadan özünə yaraşan pafosla, yüksək diplomat və ictimai xadim kimi səsləndirdi:

Bir millətik, iki dövlət,
Eyni arzu, eyni niyyət,
Hər ikisi Cümhuriyyət
Azərbaycan-Türkiyə!

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan-Türkiyə!

Ana yurdda yuva qurdum,
Ata yurda könül verdim,
Ana yurdum, ata yurdum,
Azərbaycan-Türkiyə!

Birdir bizim hər halımız,
Diləyimiz, amalımız.
Bayraqlarda hilalımız
Azərbaycan-Türkiyə!

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir.
Eşqimiz bir, yolumuz bir
Azərbaycan-Türkiyə![4, s. 319].

Professor Ramazan Qafarlı yazır ki, “Bəxtiyar Vahabzadə poeziyası həyat dərsliyimizdir. Onun içərisində zaman, eşq, vətəndaşlıq, mübarizlik, üsyankarlıq, mərdlik, ərənlik, qeyrət, ar, namus, düzlük, saflıq və daha nələrə çağırış var. Bu poeziyada inamsızlıq, tərəddüd, məğlubluq, üzüdönüklük yoxdur. İnsan oxuduqca düşünür, düşündükcə mətinləşir, dözümlülük tapır,-özünü dərk edir, ümidsizlikdən yaxa qurtarır, vuruşmaq, qələbə qazanmaq istəyir”.

Ancaq Bəxtiyar Vahabzadə sənətinin bir amalı və ümumiləşmiş baş qəhrəmanı var - o da İstiqlaldır...

Bəxtiyar Vahabzadə poeziyası böyük türkün, ulu türk dünyasının üz ağlığı, qılıncdan iti söz silahıdır.

Dünya nəsrinin görkəmli nümayəndəsi Çingiz Aytmatov Bəxtiyar Vahabzadənin yaradıcılığını iyirminci yüzilliyin zirvəsi hesab edirdi.

Bəxtiyar Vahabzadə indi o zirvədə dayanaraq ürəyi geniş olduğu qədər də sadəlövh xalqını həmişə ayıq olmağa , türk birliyini, bu yoldakı əzmini qorumağa və onu daha da irəli aparmağa çağırır:

Dedim, silinməsin bu qan, bu qada,
Bir də güllə izi dağ-daşımızdan.
Yalnız bu günə yox, biz sabaha da
Güzgü tutmalıyıq yaddaşımızdan [4, s. 216].

## NƏTİCƏ

Şəkidən başlayıb sənətin zirvəsinə gedən yolda Bəxtiyar Vahabzadənin addım səslərini dinlədikcə orada təkcə Azərbaycan türkünün deyil, bütün türk dünyasının ürək döyüntülərini aydınca eşidir və duyursan. Şairin çoxşaxəli yaradıcılı- ğında qazağın da, qırğızın da, özbəyin də, qaqauzun da, türkmənin də, tatarın da, başqırdın da duyğularını, düşüncələrini, istəklərini görürsən.

Bəxtiyar Vahabzadə həm də son dövr tariximizin yaddaşına təkcə bir mütəfəkkir xalq şairi kimi deyil, həm də istedadlı alim, dramaturq, publisist, qeyrətli və cəsarətli ictimai xadim kimi də daxil edilir. Sinəsini xalqının xitabət kürsüsünə çevirən B.Vahabzadə həm də yeni mübariz nəsil yetişdirən müdrik pedaqoq sadə və səmimi insan kimi də tarixin yaddaşına adını öz əlləri ilə yazıb.

Bəxtiyar Vahabzadə poeziyası böyük türkün, ulu türk dünyasının üz ağlığı, qılıncdan iti söz silahıdır.

Bu səs ümumtürk poeziya gülüstanının əbədiyaşar şairi  Bəxtiyar Vahabzadənin səsidir...

## ƏDƏBİYYAT

1.Adişirinov K.F. XX əsr Şəki ədəbi-mədəni mühiti: Monoqrafiya. I Kitab. – Bakı: “Elm və təhsil”, - 2015. -  488s.

2.Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzilliklər : Bakı: Elm, 2002

3. Qafarlı. R. Şeirin fəlsəfəsi, yaxud B. Vahabzadənin pəncərəsindən görünən dünya ( Vahabzadə B. Əsərləri. Cild I. Bakı: Elm, 2008

4.Vahabzadə. B. Seçilmiş əsərləri. İki Cilddə. II Cild. – Bakı: “Öndər” nəşriyyatı, - 2004. -  320 s.

5.Vahabzadə. B. Seçilmiş əsərləri. İki Cilddə. II Cild. – Bakı: “Öndər” nəşriyyatı, - 2004. - 320 s.

6.Vahabzadə. B. Yaman da mən, yanan da mən. ( Publisistika).  – Bakı: “Göytürk”, - 1985.  - 285 s

7. Vahabzadə. B. Əsərləri : 12 Cilddə. Bakı: Elm, 2008-2009

8. Vahabzadə. B. Örtmə pəncərəni: Seçmə şeirlər. – Bakı: Renesanss, - 2015. -  252 s.

# BAHTİYAR VAHABZADE'NİN ESERLERİNDE VATANSEVERLİK VE MİLLİ İDEOLOJİ KAVRAMLARI

THE CONCEPTS OF PATRIOTISM AND NATIONAL IDEOLOGY IN THE WORKS OF BAHTIYAR VAHABZADE

***Gülnar Ramiz qızı Qəmbərova***

*filologiya üzrə fəlsəfə doktoru*

*AMEA Nizami Gəncəvi adına Ədədbiyyat İnstutu*

## ÖZET

Azerbaycan Halk Şairi Bahtiyar Vahabzade, mensubu olduğu milletin hafızasını özümsemiş sanatçılardan biridir.

Modern Azerbaycan edebiyatının en parlak isimlerinden biri olan Bahtiyar Vahabzadeh, eserleriyle sanat düşüncemizi zenginleştirmede önemli rol oynamıştır. Büyük söz ustası, halkımızın yüzlerce yılda oluşan yüksek milli ve manevi değerlerini yaşatmak, geleneklerimizi yaşatmak için altmış yılı aşkın bir süredir yorulmadan yazdı ve yarattı. Azerbaycan ideolojisi ile derinden bağlantılı ve farkındalık çağrısı yapan sayısız eseriyle edebiyatımızın gelişmesine katkıda bulunmuştur. Azerbaycan halkının tarihinin çok eski çağlardan beri farklı aşamalarında meydana gelen kader olayları, büyük şahsiyetlerin parlak yüzleri üstadın ilgi odağı olmuştur.

Bahtiyar Vahabzade'nin bir bilim adamı olarak Azerbaycan bilimine hizmetleri yadsınamaz. Sözlü edebiyat mirasımız, klasik ve modern Azerbaycan edebiyatımızın araştırılmasında yaptığı araştırmaların sonucu olan eserleri, bilim çevreleri tarafından her zaman ilgiyle karşılanmıştır.

Bahtiyar Vahabzadeh'in şiirlerindeki vatanseverlik motiflerinden bahsetmeden önce bu konunun edebiyat öğretimindeki öncü rolü hakkında bilgi vermek yerinde olacaktır. Bu nedenle, hem üniversitenin hem de okulun karşı karşıya olduğu temel görevlerden biri, eğitim ve öğretim birliğini sağlamak, gençlere bilimin temellerini öğretmek, aynı zamanda aktif bir halk olarak büyümelerini ve oluşumlarını sağlamak, ideolojik olarak sağlıklı, vatansever. ve güçlü nesil. Bu nedenle, okul çağındaki çocukların yanı sıra gençlerin dünya görüşünün oluşumu ideolojik çalışmamızın odak noktalarından biridir. Edebiyat da dahil olmak üzere sosyal bilimler çok şey yapabilir ve gençlerin bilimsel bakış açısını şekillendirmede önemlidir. Böylece edebiyat, gençlerin toplumun olaylarını anlamalarına, nesnel dünyanın sırlarını öğrenmelerine, vatanseverlik ruhu içinde yetişmelerine, hayata dair bilgi ve hayal güçlerini genişletmelerine ve tamamlamalarına yakından yardımcı olur. Edebiyatın yanı sıra beşeri bilimler de vatanseverliği aşılamak için daha geniş bir fırsata sahiptir.

**Anahtar kelimeler:** milli ideoloji, vatanseverlik, Azerbaycancılık, devletçilik, anadil

## ABSTRACT

Azerbaijan People's Poet Bahtiyar Vahabzade is one of the artists who assimilated the memory of the nation to which he is a member.

Bahtiyar Vahabzadeh, one of the brightest names of modern Azerbaijani literature, played an important role in enriching our artistic thought with his works. The great master of word has written and created tirelessly for over sixty years in order to keep our people's high national and spiritual values that have formed over hundreds of years, and to keep our traditions alive. He has contributed to the development of our literature with his numerous works that are deeply connected with the Azerbaijani ideology and call for awareness.

The fateful events that took place in different stages of the history of the Azerbaijani people since ancient times, the bright faces of great personalities became the focus of attention of the master.

Bahtiyar Vahabzade's services to Azerbaijan science as a scientist are undeniable. His works, which are the result of his research on our oral literary heritage, classical and modern Azerbaijani literature, have always been met with interest by the scientific community.

Before talking about patriotic motifs in Bahtiyar Vahabzadeh's poems, it would be appropriate to give information about the leading role of this subject in literature teaching. Therefore, one of the main tasks facing both the university and the school is to ensure the unity of education and training, to teach young people the basics of science, while ensuring their growth and formation as an active people, ideologically healthy, patriotic. and strong generation. Therefore, the formation of the worldview of schoolchildren, as well as youth, is one of the focal points of our ideological work. The social sciences, including literature, can do a lot and are important in shaping the scientific perspective of young people. Thus, literature closely helps young people to understand the events of society, to learn the secrets of the objective world, to grow up in a patriotic spirit, to expand and complete their knowledge and imagination about life. Humanities as well as literature have a wider opportunity to instill patriotism.

**Keywords:** national ideology, patriotism, Azerbaijanism, statism, mother tongue

## GİRİŞ

Bakhtiyar Vahabzadeh edebi ve bilimsel çalışmalarını pedagojik faaliyetlerle başarıyla birleştirdi ve uzun yıllar Bakü Devlet Üniversitesi'nde profesör olarak Azerbaycan'da yüksek nitelikli personelin yetiştirilmesine katkıda bulundu. 1951'de "Samad Vurgun'un Sözleri" konulu tezini savundu ve 1964'te "Samad Vurgun'un Hayatı ve Eserleri" konulu monografisini savundu ve filoloji alanında doktora yaptı. 1980 yılında Azerbaycan Milli İlimler Akademisi'nin ilgili üyesi seçildi. 2000 yılından bu yana ANAS'ın tam üyesidir.

Yetmişten fazla şiir kitabıyla okuyucuların sevgisini kazanan Vahabzadeh, iki monografi, 11 bilimsel yayıncılık kitabı ve yüzlerce makale kaleme almıştır.

Adaletsizliğe karşı isyan, Bahtiyar'ın şiirinin ana motiflerinden biridir. Önde gelen söz ustası, 1960'lardan bu yana ülkemizde Sovyet imparatorluğuna karşı ulusal kurtuluş hareketinin öncülerinden biri olmuştur. 1959 yılında yazdığı "Gulustan" şiiri ile Azerbaycan'ın ikiye bölünmüş tarihi trajedisini ifade ederek, imparatorluğun pençeleri altında inleyerek Azerbaycan halkının özgürlük ve bağımsızlık için haklı mücadelesine katıldı.

Bahtiyar Vahabzadeh'in eserlerindeki ana temalardan biri ana dilidir. Ona göre dil, milletin varlığının sembollerinden biri, en değerli varlığı, nesilleri birleştiren ve ataların iradesini torunlara aktaran güçlü bir eğitim aracıdır. Önde gelen bir oryantalist olan Ahmed Schmid, onun eserlerini inceleyen ve eserlerini Almancaya çeviren Bahtiyar Vahabzadeh için şunları söyledi: "Bakhtiyar Vahabzadeh'den bir insanın kendi insanını ve ana dilini sevme yeteneğini öğrendim. Bahtiyar Vahabzadeh gerçekçi bir şairdir. malzemeler ve zarafet sanatına yabancı."

## ARAŞTIRMA VE BULGULAR

Tarihimizin birçok olayını canlandıran Bahtiyar Vahabzadeh'in oyunları genç neslin eğitiminde büyük rol oynuyor. Modern yaşamdaki çelişkilerin, yüzleşmelerin ve ahlaki altüst oluşların tasvirinin yanı sıra, yüksek, saf ve yüce duyguların ilahisi yazarın dramında vücut bulur. Oyunlarının Azerbaycan ve yabancı tiyatrolarda başarıyla sahnelenmesi ve yazara büyük bir ün kazandırması tesadüf değildir. "İkinci Ses", "Vicdan", "Yağmurdan Sonra", "Yollardaki İzler", "Bu Dünya Nereye Gidiyor?", "Çığlık", "Cezasızlık Günahı", "Dar Ağaç", "Rekabet" ve lirik -Kendimizi kesen kılıç gibi psikolojik oyunlar, gerçekliğin çeşitli

yönlerine dikkat çekerek, günün güncel sorunlarını, çağdaşlarımızın iç dünyasını, sürekli yenilenen hayatı ve insan ilişkilerini konu aldı. Tarihi ve güncel konularda 20'den fazla büyük şiirin yazarıdır.

Bahtiyar Vahabzade, Azerbaycan halkının bağımsızlık fikirlerinin ilk müjdecilerinden biriydi. Bu özgürlüğün zor ve onurlu bir görev olduğunu anlayarak, seçtiği yoldan dönmekle kalmamış, mücadelenin her zaman en ön saflarında yer almıştır. Belki de bu yüzden 20 Ocak trajedisini anlatan "Şehitler" şiiriyle yeni bir tarih yazdı.

Bahtiyar Vahabzade, milletin sevgisine layık olduğunu kanıtlamak için hayatının tüm zorluklarına cesurca katlandı ve asla sarsılmadı. Bu nedenle şiirin Bahtiyar'ı, Azerbaycan'ın Bahtiyar'ı olarak sonsuza kadar kalbimizde kalmıştır.

Tarihimizin birçok olayını yeniden canlandıran B.Vahabzadeh'in oyunları genç neslin yetişmesinde büyük rol oynamıştır. Vahabzade'nin dramaturjisinde modern hayattaki çelişkilerin, yüzleşmelerin ve ruhsal altüst oluşların tasvirinin yanı sıra yüksek, saf ve yüce duyguların ilahisi büyük bir sahnede vücut bulur. Oyunları Azerbaycan ve yabancı tiyatrolarda başarıyla sahnelenmiş ve yazara büyük bir ün kazandırmıştır. Vahabzade, bir bilim adamı olarak Azerbaycan ilmine de hizmet etmiştir. Bilim camiası, klasik ve modern Azerbaycan edebiyatını inceleme alanındaki araştırmalarının sonucu olan sözlü edebiyat mirasımızın eserlerine her zaman derinden ilgi duymuştur. Azerbaycan dilinin saflığı, saflığı ve zenginleşmesi için verilen mücadele Vahabzadeh'in çalışmalarının önemli yönlerinden biriydi.

Anadilimize sahip çıkan ve yorulmadan destekleyen B.Vahabzadeh bizlere büyük bir edebi miras bırakmıştır. Araştırmacılar, Vahabzadeh'in eserlerinin her birinin yankı uyandırdığını ve kısa sürede okuyucular arasında yayıldığını yazıyor. Çünkü bu şiir Azerbaycan adında bir annenin sütünden ve sıcacık nefesinden yoğrulmuş bilgece bir şiirdir:

Konuştuğumuzda ilk kez anne diyoruz,

İlk ders kitabımızın adı "Ana Dil".

İlk şarkımız kendi sütümüzle Leyla

Ruhumuzu bu dilde içer.

Bu dil bizim canımız, aşkımız, ruhumuz,

Bu dil birbirimizle olan sözleşmemizdir.

Bu dil bizi bu dünyadaki her şeyle tanıştırdı.

Bu dil bize atalarımızdan kaldı.

En değerli miras, gözlerimiz yalnız

Koruyalım ve gelecek nesillere armağan edelim.

B.Vahabzade, Azerbaycan edebiyat tarihinde özel bir konuma sahip önemli şahsiyetlerden biridir. İnsanları daima manevi doruklara çağıran sanatçının şiirsel-felsefi eseri, milli şiirde yurttaşlık ruhunun güçlenmesinde, edebî ve toplumsal düşüncenin bağımsızlık fikirleriyle zenginleştirilmesinde büyük rol oynamıştır. Tarihi ve kültürel değerlere saygı ve anadilin saflığının korunması Vahabzadeh'in faaliyetinin önemli yönlerinden biriydi."

Şairin eserinde Azerbaycancılığın unsurları, vatan sevgisi, Azerbaycan dilinin militan koruyucusu, onu korumak, yorulmadan yaymak ve büyük bir edebi miras yaratmak bize bir anıt bıraktı, edebiyatımızda büyük bir zirve fethetti.

Azerbaycan halk şairi Bahtiyar Vahabzadeh, eserlerinin fikir ve anlamlarına, fikirlerin akışına ve içeriğine her zaman dikkat etmiştir. Diğer edebi türler gibi, "şiirin dönemin siyasi ve sosyal koşullarıyla doğrudan bağlantısı" Bahtiyar Vahabzade'nin eserlerine açıkça yansır. Şairin istiklal şiiri, vatanseverlik motifleri gerek şekil gerekse içerik olarak insanlara bağlıdır ve bu yönü eserine kelimenin en geniş anlamıyla

milliyetçilik niteliğini aşılamıştır. Popülarizm, şairin yaratıcı dünyasının tüm alanlarında şu veya bu şekilde kendini gösterir.

Özellikle şairin şiirsel üslubunda bu açıkça görülmektedir. Böylece yazarın üslubu, anadilin tüm zenginliğini, sadeliğini ve açıklığını içinde barındırır. Bahtiyar Vahabzade sadece kendi yurdunda değil, tüm Türk dünyasında tanınan ve sevilen güçlü bir kalemin sahiplerinden biridir. Döneminin siyasi rejiminin en zor ve acımasız dönemlerinde yaşayıp yaratmış, çok zengin bir edebi miras bırakmıştır. Milli devlet olma mücadelesinde en ön saflarda yer alan şair-düşünür, çalışmalarını Azerbaycan'ın bağımsızlığından sonra da sürdürmüş, bağımsızlık şiirinin çok sayıda değerli örneklerini oluşturmuştur.

B.Vahabzadeh'in Azerbaycancılık, vatanseverlik, cesaret, milli birlik, kuzey-güney fikirlerinin daha cesurca edebiyata kazandırılmasındaki hizmetleri yadsınamaz. Şiire sadece "İstiklal" adresine, apartmana giden bir yol olarak ihtiyaç vardır. Aslında Bahtiyar Vahabzadeh o yıllarda milletin özgürlüğünü büyük bir milli şiir idealine dönüştürmüştür. Güneyin acısı birçok şairimizin eserlerinde zaman zaman izafi bir tema olarak zikredilse de, Gülistan adlı şiirinde bu konuyu iki imparatorluğa karşı bir suçlamaya dönüştüren ve en büyük hüznü ortaya koyan B.Vahabzadeh olmuştur. bizim insanımız.

Azerbaycancılık ideolojisinin kurucusu - Bahtiyar Vahabzade

Bahtiyar Vahabzade'nin şiir eserinde Güney Azerbaycan sorununun önemi bir takım nedenlerden kaynaklanmaktadır. Her şeyden önce, bir vatandaş olarak şair, yerli halkın ve Anavatan'ın bölünmesini protesto etmek için sesini yükseltmeye çalıştı. Şairin güçlü kaleminden bir ok gibi çıkan ve eserinin mührü sayılan "Gulustan" şiirinden bahseden vatansever şair, vatanımızla gurur duymuş, onun acısını, ıstırabını, gönül yarasını ve kalp atışlarını her okuyucuya hissettirmiştir. Öte yandan şair, Sovyet siyasi rejiminin en zor dönemlerinde ulusal bağımsızlık konusunu gündeme getirmek için bu konuyu seçmiştir. Geçen yüzyılın sonlarında bu rejimin çöküşünün arka planına karşı ortaya çıkan Dağlık Karabağ sorunu, şairin eserinde yeni bir sayfa açmış, ulusal bağımsızlık fikrinin ifadesini benzersiz bir şekilde koşullandırmıştır. Ayrıca bu bağlamda yazar, araştırmasının tematik sınırlarını genişletmiş, eserlerini yeni nitelikler ve tonlarla zenginleştirmiştir.

Şairin şiirleri "Vatan Nöbeti", "Durnalar", "Azerbaycan askeri", "Azerbaycan", "Hala suçlu", "Şehit annesi", "Vatan", "Gulustan", "Şehitler", "Bağımsızlık" ve daha isimsiz onlarca şiiri ve şiirleri vatanseverlik teması üzerine yazılmıştır.

Profesör Yaşar Garayev'in Bahtiyar Vahabzadeh'in şiirinin "modern şiirsel bilincin ayrılmaz bir parçası" haline geldiği görüşü, şairin eserlerinin sadece sanatsal yönünden değil, aynı zamanda vatansever ve sivil niyetlerinden de kaynaklanmaktadır. Zira şiirin "modern şiir bilincinin ayrılmaz bir parçası" olabilmesinin önemli koşullarından biri de vatanseverlik sürecine dayanmasıdır. B.Vahabzadeh'in şiirsel eserlerinde vatanseverlik ve yurttaşlık süreci, sanatsal ve estetik düşüncenin önemli bileşenlerinden biri olarak hareket eder. B.Vahabzade'ye göre, "Dünyanın en büyük dehaları, edebi ve sanatsal şahsiyetleri en güzel eserlerini vatana adamışlardır." Şairin vatanseverlik ruhuyla kaleme aldığı şiirlerinde vatanseverlik ve yurttaşlık duyguları sanatta benzersiz bir şekilde vücut bulur.

## SONUÇ

Bütün hayatını vatan, millet, hürriyet ve istiklal arzusuyla yazan ve yaratan şaire göre vatandaş olmak, "vatana güvenmek", halka, millete karşı "sorumluluk" ile mümkündür. vatanı ve vatanı sevmekle. Şairin "Muhalefet" şiiri ciddi bir vatanseverlik noktasına değinir. İktidar ve muhalefet konusunu eserin sanatsal bir nesnesine dönüştüren yazara göre, Anavatan'ın kaderi üzerinde hiçbir anlaşmazlığa izin verilmemelidir. Yazar, Azerbaycan'ın ortak vatanımız olduğunu ve ülkenin kaderine çift taraflı yaklaşılmaması gerektiğini aşılamaya çalışıyor. Düşman, hükümeti ve muhalefeti hedef almadığı için asıl amacı vatanımızı gasp etmektir. Bu durumda, iktidar ve muhalefet meselesi bir kenara bırakılmalı ve tüm güçler ortak düşmana - Ermeni işgalcilere - yöneltilmelidir.

B.Vahabzadeh milli, vatansever ve sivil eserlerinin önemli bir bölümünü Sovyet siyasi rejimi döneminde kaleme almıştır. Sansürün hüküm sürdüğü o yıllarda şair cesurca "Vatanseverlik, çocuklarımızı enternasyonalizm ruhuyla yetiştirmenin ana koşuludur" diye yazdı. Bu ilahi vatan sevgisi, yazarın yaşamının ve mücadelesinin temeli olmuştur. Bu aşkı şiirsel eserlerinde daha büyük bir cesaretle göstermiştir. Bahtiyar Vahabzade'nin şiiri vatanseverlik ve vatandaşlık açısından oldukça zengindir. Şairin tüm eserlerinden kırmızı bir çizgi gibi geçen bu yön, onun şiirsel düşüncesinde bağımsızlık ideolojisinin oluşmasında belirleyici rol oynamıştır.

B.Vahabzadeh'in eserlerinde Azerbaycancılık ve bütün Azerbaycan teması her zaman güncelliğini korumuş ve okuyucuların ilgisini çekmiştir. Şair, bilim adamı ve halk figürü olarak Azerbaycan devletinin ve kültürünün gelişmesine eşsiz katkılarda bulunmuştur. Geride büyük bir edebi miras bıraktı.

İnsanları daima manevi doruklara çağıran şairin şiirsel ve felsefi eseri, milli şiirde yurttaşlık ruhunun güçlenmesinde, edebî ve toplumsal düşüncenin bağımsızlık fikirleriyle zenginleştirilmesinde büyük rol oynamıştır.

**KAYNAKÇA**

1. Ahundov İ. Kazanan Şair // Günay.- 1995.-14 Ekim.-s. 4

2. Aliyeva M. Milletin Mutluluğu // Cumhuriyet. - 2010.- 14 Şubat.-s. 3

3. Fevziyev J. Türk dünyasının büyük söz ustası // Halk gazetesi.- 2010.- s.6

4. Mehdihanlı T. Şiirimizin parlayan yıldızı // Azerbaycan.- 2005.- 25 Ağustos- s.7

5. Talibzade K. Şairin edebi buluşmaları // Azerbaycan. - 2000. - 24 Mayıs.- s. 6

6. Vahabzadə Bəxtiyar. Vətəndaş (Şeirlər və poemalar).- B.: Gənclik, 1994.- 224 s

# BAKHTIYAR BAHABZADE'NİN YARATICILIĞINDA YALNIZLIK KONUSU

***Aytən Nəriman Qızı Qurbanova***

*filologiya üzrə fəlsəfə doktoru*

*AMEA Nizami Gəncəvi adıan Ədədbiyyat İnstitutunun*

*"Türk xalqları" şöbəsinin doktorantı*

Bahtiyar Vahabzadeh'in yirminci yüzyıl Azerbaycan edebiyatının kalbi ve aklı olduğunu söylemek güvenlidir. Çünkü eserine, özellikle şiirine bakarsak, şairin insan ruhunun derinliklerinde kendine itiraf etmekten korktuğu en gizli duyguları şiirlerinde en iyi okuyucusu olduğunu görürüz. , zamanı geldiğinde. , tarihin, siyasetin ve devletin en mükemmel bilgini olarak hareket edebildi.

Bahtiyar Vahabzade, Azerbaycan halkının en sevilen şairlerinden biridir. Onun yaratıcılığı olmadan kurgumuzu hayal etmek imkansız. Şair, hayatının sonuna kadar sanat için büyük bir tutkuyla yazdı ve yarattı. Bilge yaşama dair düşüncelerini, duygu ve duygularını taşlardan akan bir dağ şelalesi gibi çizgilere dönüştüren, söz ve sanat dünyasını yeni incilerle zenginleştiren sanatçı, bir yıldır ruhların buluştuğu yerde uyuyor. . Bahtiyar Vahabzadeh'in eserinde vatan ve kaderi teması bir aşama veya dönem değildi: kariyeri boyunca kendisini bir bütün ve büyük Azerbaycan'ın milli şairi olarak gördü ve bu misyonun taşıyıcısı olmaktan gurur duydu. Halkımız da bu ölümsüz sanatçıyla gurur duyuyor. Bakhtiyar Vahabzadeh'in kişiliğini gelecek nesillere tanıtmak, insanların kalplerinde Bahtiyar sevgisini artırmak için her vatandaşın temel sorumluluklarından biridir.

Halk şairi Bahtiyar Vahabzadeh, çok yönlü eseriyle Azerbaycan edebiyatının gelişmesine önemli katkılarda bulunmuş önde gelen sanatçılardan biridir. Haklı olarak çağdaş ulusal şiirimizin yaşayan bir klasiği olarak adlandırılır. Şairin şiirsel yeteneğinin bu şekilde takdir edilmesi elbette tesadüfi değildir, ancak bunun nesnel sebepleri vardır. Azerbaycan şiirinin son yarım yüzyıldaki tarihsel evrimini Bahtiyar Vahabzade'nin eseri olmadan hayal etmek imkansızdır.

Bahtiyar Vahabzadeh'in eserlerinde insan duygularının şarkı söylemesinin özel bir yeri vardır. Bu ilahi bazen karamsar, bazen iyimser bir şekilde ifade edilse de en ince nokta, din, dil, milliyet ne olursa olsun herkesin kalbine dokunabilen her yaş grubundan sanatsal şiir örneklerinin ortaya çıkmasıyla karakterize edilir.

Makalede, yazarın insanın hassas duygularından doğan hüzünlü ve samimi duygularını içeren "Yalnızlık" şiirinde, yalnızlık denen psikolojik bir faktörün kişinin düşüncelerinde, etkinliklerinde ve yaşam tarzındaki rolünü keşfetmeye çalışacağız.

**Anahtar kelimeler:** insan duyguları, psikoloji, şiir, yalnızlık, psikolojik an

## GİRİŞ

Bəxtiyar Vahabzadə XX əsr Azərbaycan ədəbiyyatının hiss edən ürəyi, düşünən beyni olmuşdur desək hər halda yanılmarıq. Çünki onun yaradıcılığına, xüsusilə poeziyasına nəzər salsaq, görərik ki, şeirlərində müəllif yeri gələndə insan ruhunun dərinliklərində özünə belə etiraf etməyə çəkindiyi ən pünhan hisslərin ən yaxşı oxuyanı, yeri gələndə vətəninin parçalanmasına, xalqının əzilməsinə, dilinin və dininin alçaldılmasına qarşı kəskin şəkildə etiraz etməyi bacaran vətəndaş, yeri gələndə də dövlətinin tarixinin, siyasətinin, ən mükəmməl bilicisi kimi çıxış etməyi bacarmışdır.

Bəxtiyar Vahabzadə Azərbaycan xalqının sevimli şairlərindən biridir. Bədii ədəbiyyatımızı onun yaradıcılığı olmadan təsəvvür etmək qeyri-mümkündür. Şair ömrünün sonuna qədər böyük sənət ehtirası ilə

yazıb yaratmışdı. Müdrik həyat düşüncələrini, daşlardan süzülüb gələn dağ şəlaləsi kimi içindəki hissləri, duyğuları sətirlərə çevirən, söz, sənət dünyasını yeni incilərlə rövnəqləndirən sənətkar artıq bir ildir ki, ruhların qovuşduğu bir məkanda uyuyur. Bəxtiyar Vahabzadə yaradıcılığında vətən və onun taleyi mövzusu bir mərhələ və ya dövr deyildi: o bütün yaradıcılığı boyu özünü bütöv və böyük Azərbaycanın milli şairi kimi dərk etmiş və bu missiyanın daşıyıcısı olması ilə qürur duymuşdu. Xalqımız da bu ölməz sənətkarı ilə qürur duyur. Bəxtiyar Vahabzadə şəxsiyyətini gələcək nəsillərə tanıtmaq insanların qəlbindəki Bəxtiyar sevgisini daha da artırmaq hər bir vətəndaşın üzərinə düşən əsas öhdəliklərdən biridir.

Xalq şairi Bəxtiyar Vahabzadə özünün çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən, bu istiqamətdə müstəsna xidmətləri olan aparıcı sənətkarlardan biridir. Onu haqlı olaraq çağdaş milli şeirimizin canlı klassiki adlandırırlar. Əlbəttə şairin poetik istedadına verilən belə dəyər təsadüfi deyil, əksinə bunun obyektiv səbəbləri var. Azərbaycan şeirinin son yarım əsirlik tarixi təkamül prosesini Bəxtiyar Vahabzadə yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyil.

Bəxtiyar vahabzadə yaradıcılığında insan hisslərinin tərənnümü xüsusi yer tutur. Bu tərənnüm bəzən bədbin, bəzən nikbin şəkildə də əks olunsa da, ən incə məqam istənilən yaş qrupundan olan, dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir insanın ürəyinə toxunmaq iqtidarında olan bədii poeziya nümunələrinin meydana gəlməsi ilə xarakterizə olunur.

Məqalədə müəllifin insanın incə duyğularından doğan həzin və səmimi hisslərin yer aldığı “Təklik” şeirində insanının düşüncələrində, fəaliyyətində və həyat tərzində tənhalıq adlı psixoloji faktorun rolunu araşdırmağa çalışacayıq.

Tənhalıq hissi fəlsəfi bir hadisə kimi bəşəriyyətə hələ qədim zamanlardan məlumdur. Antik müəllifər Platon və Aristotel tənhalığı şər qüvvə kimi təyin etmişlər və ondan çıxış yolunu sadəcə dostluq və sevgi hisslərində görmüşlər. Etibarlı dostdan aldığı güvən hissindən, eləcə də insana yaradılışdan ən mükəmməl hədiyyə kimi verilən və həyatının başından sonuna doğru insanın yaşayış tərzini, cəmiyyətdəki və mənəviyyatı qarşısındakı rolunu bəlirləyən sevgi hissindən yüksəkdə heç nə ola bilməz. Odur ki, görkəmli şairimiz Bəxtiyar Vahabzadə də insan həyatı üçün önəmli olan belə hissləri tərənnüm etməkdən çəkinməmişdir.

Xəyal gah dağdadır, gah da aranda,

Gah göyə yüksəlir, gah enir insan.

Otaqda bir saat tək oturanda,

Yüz ilin dərdiylə yüklənir insan.

Tənhalıq elə bir hissdir ki, insanın incə duyğularının, həssas hisslərinin vulkan kimi kükrəyib üzə çıxması ilə müşaiət olunur. Müəllif şeirin ilk bəndində məhz bu fikri izah etməyə çalışaraq bildirir ki, özünü tənha hiss edən insan ya yenidən doğulmuş kimi göyə yüksəlməyi, güclənməyi bacarır, ya da tamamilə məhv olur, yox olur. Eyni zamanda müəllif insan psixologiyasındakı boşluqarın məhz təklik, tənhalıq məqamında neqativə çevirilərək geri döndüyünü diqqətə çatdırır.

Fəlsəfi və psixoloji fikir tarixində tənhalıq problemi bir müxtəlif aspektlərdən anlaşılmış və izah edilmişdir. Psixoloji elmi ədəbiyyatlarda da bu ikili durum təsvir olunmaqdadır, yəni təklik bir insanın yenidən güc toplayaraq həyat mübarizəsinə qoşulmasına da, ruhdan düşüb məhv olmasına da gətirib çıxara bilər. İstedadlı şair şeirin ilk bəndində məhz bu məsələyə tam toxunur. Bu nüans da hər halda, bədii ədəbiyyatın qüdrətini göstərir.

## ARAŞTIRMA VE BULGULAR

İnsanın öz təkliyinə müqavimət göstərmək istəməsi də əslində bir növ mübarizə üsuludur. Bəxtiyar Vahabzadə bu dərin hisslər və emosiyalarla yüklənmiş şeirində əslində bu psixoloji problemin insan həyatındakı rolunu, ona təsirini və məsələdən çıxış yollarını sanki bədii dildə araşdırmağa çalışır.

Bir günəş bəs edər, pərişan olma,

Sənin yüz Kür qədər göz yaşın olsa.

Min dərd hücum etsə, könül, sıxılma,

Bir nəfər dərd bilən sirdaşın olsa.

XX əsrdə Qərbdə ortaya çıxan bu məsələ bir çox humanistlərin ən mühüm mövzusuna çevrilmişdir. Çox vaxt tənhalıq hissinə diqqət yetirən ekzistensialistlər: N.A.Berdyaev, M.Buber, A.Kamyu. K. Jaspers və b Şəxsiyyətin tənhalığı antropoloji kainat, insanın daxili təcrid olunması - hər hansı şəxsi həyatın əsası, onun məxfilik prinsipinə uyğun həyata keçirilməsi kimi qəbul edilir. Ona görə də insan başqa insanlarla ünsiyyətdə olarkən emosional rəy tapa bilmədiyi üçün tənhalığı seçir.

Elə bil divarlar gəlir üstünə,

Qulağın səslənir, qəlbin döyünür.

Alışıb yanırsan sən öz tüstünə,

Nidalar gözündə suala dönür.3

Şair bu şeirlə sanki tənhalıq zamanıda insanın psixoloji sarsıntılardan və ya sadəcə hər hansı hadisədən, yorğunluqdan ən primitiv duyğulardan doğan xırda problemlərin də gözündə ən böyük dərdə bəlayə çevirliyini diqqət mərkəzinə çəkir.

**Psixoloqlar tənhalığın** iki növünü - fiziki və psixoloji tənhalığı fərqləndirirlər.

Tənhalığın ən ağır forması psixoloji tənhalıqdır, yəni insanın insanlar mühitində, əhatəsində olmasına baxmayaraq tək, kimsəsiz qalması, özünə həmrəy, həmfikir, həmsöhbət tapa bilməməsi, kimsənin onunla ünsiyyətə girmək istəməməsi psixoloji tənhalıq kimi nəzərdən keçirilməlidir. Məsələn, insanın kollektivdə olması onun hələ başqa insanla ünsiyyətdə olması demək deyil. Qəlbimdə min sözüm, min söhbətim var,

Mən deyim, siz deyin, dil yorulmasın.

Yığılın, yığılın başıma, dostlar,

Mənim bir günüm də sizsiz olmasın.3

Kollektivdə şəxsiyyət öz tənhalığından can qurtara bilmir. Kollektivdə insanın tənhalığı aradan götürülmür, yalnız müəyyən mənada doldurulur, tənhalıq haqqında biliklər sıxışdırılır. Bəzən yüzlərlə insanın arasında da tənhalığı sonuna kimi hiss edənlərin sadəcə

F.Nitşe, daha sonra E.Fromm və İ.Kant əxlaq normalarının tənəzzülünün tənhalıq hissinə səbəb ola biləcəyini davam etdirdilər. Э. Fromm deyir ki, tənhalığın səbəbi şüursuz ehtiyacların tələbidir. K.Horni tənhalığı bazar münasibətləri ideologiyasının mənfi təzahürü, insanın insanla rəqabətinin nəticəsi hesab edirdi. V.Frankla görə, tənhalıq insan müəyyən dəyərləri və həyatın mənasını itirdikdə baş verir. Yalnızlıq hissini yeni dövrün obyektiv psixoloji problemi hesab etmək olar. Məsələn, N.E.Petrovski bunu nəzəri və eksperimental tədqiqatların kompleks şəkildə başa düşülməsini tələb edən iyirminci əsrin xəstəliyi adlandırdı. Müəllifin bu şeiri sanki XX əsr boyunca tənhalığın dəqiq tərifini müəyyənləşdirməyə çalışan bütün dünya psixoloqlarına və sosioloqlarına bir cavab idi.

Psixoloji fenomen kimi tənhalığın yetərliliyi, onun nəzəri və təcrübi tədqiqatları məişət psixologiyasında demək olar ki, yoxdur. Psixoloji proseslərdən birinin üstünlüyü insanın psixoloji rahatlığında tamamilə gizlənə bilməyən digərinin hərəkətlərinin dərhal məhdudlaşdırılmasına gətirib çıxarır.

Tənhalıq problemi uzun illərdir ki, insanları düşündürür. Yalnız hiss etməyin bir çox yolu var. Hansı formada olursa olsun insan tənhalığın qurbanı kimi tək qalır.

Yüz illərdir ki, filosoflar, ilahiyyatçılar, elm adamları və yazıçılar tənhalığın tədqiqi ilə məşğul olublar (və indi də məşğuldurlar). Psixologiyanın fərdi bir elm kimi qısa ömür sürməsinə baxmayaraq, onun hər bir

sahəsində tənhalıq hissi ilə bağlı anlayışlara, nəzəriyyələrə və araşdırmalara rast gəlmək olar. İnsanın subyektiv tənhalığının təzahürü və onun nəticələri xüsusilə pis və insan həyatı üçün çox əhəmiyyətlidir.

Mürəkkəb bir psixi fenomen kimi tənhalıq hissi bir çox müxtəlif humanitar elmlərin obyektidir: sosiologiya, klassik sosial fəlsəfə və psixologiya. Bu əslində bütünlükdə dünya ölkələri üçün qəbul olunmuş bir tendensiyadır. Ancaq fikrimizcə B.Vahabzadənin bu şeiri sübut edir ki, insan həmişə daha çox ədəbiyyatın predmeti olmuşdur və olmaqdadır.

İnsanı tez yorar düşüncələr də,

Verib nəfəsini dərd udar insan.

Özündən başqası olmayan yerdə,

İnsan olduğunu unudar insan...

Hər hansı bir fikri, təklik və tənhalıq sindromunu bundan daha mükəmməl hansı elm izah edə bilər ki?

Amma məişət psixologiyasında tənhalıq hissi, onun mahiyyəti, genezisi və s. Bu məsələlərlə bağlı əsərlər çox azdır. Sanki sovet psixologiya elmi bu hadisəyə məhəl qoymurmuş kimi, o dövrün aprioruna görə, sovet kollektivi tənhalıq hissi ilə xarakterizə olunmur və bu hal ziddiyyət təşkil edir. Ona görə də son yüz ildə bu çox aktual hadisənin müxtəlif aspektləri üzrə tədqiqatlar, əsasən dünya psixologiyasında tənhalığın tədqiqi xarici alimlərin adı ilə bağlıdır. Təbii ki, sovet dövründə məişət psixologiyasının inkişafında və formalaşmasında bəzi alimlər çətin tənhalıq hissinin insan üçün təhlükəli olduğunu görmüşlər. Məsələn, psixologiya klassiklərindən biri - B.Q.Ananyevin fikrincə: Şəhərlərin və kütləvi kommunikasiyaların böyümə miqyası ilə insanların tənhalığı daha da artır.

Öz el-obasını tərk etdiyindən,

Tək-tənha dolanır bayquş bu gün də.

Kolların dibində tək bitdiyindən,

Boynu bükük olur bənövşənin də.

## SONUÇ

Bir çox yerli psixoloqlar, məsələn, İ.S.Kon, R.S.Nemov yetkinliyin psixoloji problemlərini, fərdlərin və onların ətraf mühitin tənhalığa bəzi reaksiyalarını təsvir edir, bu vəziyyətin səbəblərini müəyyənləşdirmək yollarını nəzərdən keçirirlər. Məsələ burasındadır ki, bu günə qədər heç kim tənhalıq anlayışının tam tərifini verməyib ki, bu da bu fenomenin hər kəsə yaxşı tanış olması ilə əlaqədar ola bilər. Bir tərəfdən, bu doğrudur, lakin hadisəni dəqiq dərk etmədən onu elmi cəhətdən öyrənmək mümkün deyil. Yalnızlıq hissinin psixi bir hadisə kimi təsviri, onun təbiətinin və şəxsiyyətlərarası genezinin öyrənilməsi təkcə mürəkkəb təcrübələrin öyrənilməsi üçün əsas deyil .

Dostların qəlbidir yurdum, məskənim,

Ürəkdə bir nisgil gərək olmasın.

Sağlığım bir yana, a dostlar, mənim;

Soyuq məzarım da heç tək olmasın!

Sevimli şairimiz Bəxtiyar Vahabzadə sadə bədii bir şeirlə əslində hələ də real bir elmi nəticəsi olmayan bir problemin həli yollarını araşdırıb. İnsan elə bir varlıqdır ki, istənilən halda hər cür psixoloji vəziyyətə düşə, sarsıntılara məruz qala bilər. Ən əsası odur ki, o problemin altından çıxa bilsin.

Ədəbiyyatın bütün em sahəsləri iə inteqrasiya və əlaqələrini müəyyən dərəcədə görmüşük. Bu məqalə isə mən çalışdım ki, bədii ədəbiyyatı psixoloji fonda araşdırım. Yaxud da əksinə psixologiya elmində araşdırılması çox aparılan lakin, hələ də dəqiq tərif əldə olunmayan tənhalıq problemini B. Vahabzadə konseptindən araşdırmağa çalışdım.

Od vurmasa, qabda su daşa bilməz,

Quş da tək qanadla dağ aşa bilməz.

Kösöyün ikisi çöldə də yanar,

Biri ocaqda da alışa bilməz.

**KAYNAKÇA**

1. Cabbarova L.M. Psixologiyada tənhalıq problemi. Bakı 1997
2. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004, 328 səh.
3. Psixologiya. Bakı, 2007

# BƏXTİYAR VAHABZADƏNİN FƏLSƏFİ GÖRÜŞLƏRİ

***İlahə İzzət qızı Süleymanova***

*ADPU-nun Şəki filialının Humanitar*

*fənlər kafedrasının baş müəllimi*

**ÖZET**

Məqalədə türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadənin fəlsəfi görüşləri şairin şeirlərindən gətirilən nümunələr əsasında araşdırılır.

Vahabzadə yaradıcılığında vətən anlayışına münasibət, vətənin bütövlüyü və bölünməzliyi, müqəddəsliyi və əzəmətindən söhbət açılır. Sovet rejimi dövründə vətənin keçmişinə səyahət, xalqın arzu və istəyi, "özünüdərk" və "özünəqayıdış" anlayışları Vahabzadə yaradıcılığında o dövrün qəlibləşmiş ideyalarından, təhlil və təbliğindən fərqli şəkildə bəhs olunur. İstər lirik şeirlərində, istər böyük həcmli poemalarında,istərsə də dram yaradıcılığında Bəxtiyar Vahabzadə qələmi müxtəlif mövzularda "türklük" ,"türk dili",ana dili" məfhumlarını öz fəlsəfi düşüncəsinin süzgəcindən keçirərək həm poetik ,həm də anlaşıqlı bir dillə oxucuları ilə bölüşür, öz sevənləri, öz auditoriyası, öz xalqı ilə yanaşı, böyük və əzəmətli türk dünyasının hər bir fərdini sənətkar uzaqgörənliyi ilə hadisələrə daha obyektiv baxmağa, xalqın və millətin keçmişini daha dərindən öyrənməyə cəlb edir.

Vahabzadə yaradıcılığında insan anlayışı, digər xalqlara sevgi, cahanşümul məhəbbət, beynəlxalq mövzular ,otaylı-butaylı Azərbaycan həqiqiəti, doğrunu  görmək  və göstərə bilmək, bütün problemlərin çıxış yoluna diqqət məsələləri poeziyanın qüdrətli və ecazkar dili ilə, Vahabzadə qələminin sehri ilə şərh edilir.  Sevgi anlayışı insanda, fərddə, şəxsi münasibətlərdə olduğu kimi daha qlobal məsələlərdə: əzənlə-əzilən, haqlı ilə haqsız, güçlü ilə güçsüz, varlı ilə kasıb, yaşlı ilə gənc münasibətləri zəminində də fəlsəfi və müdrik mühakimələrlə təhlil olunur.

**Açar Sözlər:** fəlsəfi düşüncə, özünüdərk, özünəqayıdış, ana dili,türkçülük

**ABSTRACT**

The article examines the philosophical views of the great poet of the Turkic world Bakhtiyar Vahabzade on the basis of examples from the poet's poems.

In Vahabzadeh's work, the attitude to the concept of homeland, the integrity and indivisibility of the homeland, its sanctity and greatness are discussed.  Journey to the past of the homeland during the Soviet regime, the wishes and desires of the people, the concepts of "self-awareness" and "self-return" are discussed in Vahabzadeh's work differently from the stereotypes, analysis and propaganda of that time.  In his lyrical poems, large-scale poems and dramas, Bakhtiyar Vahabzadeh shares the concepts of "Turkism", "Turkish language" and "mother tongue" on various topics and shares them with his readers in both poetic and intelligible language.  In his works, his audience, along with his people, attracts every individual of the great and glorious Turkic world with an artist's foresight to look at events more objectively, to study the past of the people and the nation more deeply.

In Vahabzadeh's work, the concept of man, love for other peoples, universal love, international issues, the truth of Azerbaijan, the ability to see and show the truth, the focus on the solution of all problems are interpreted with the powerful and miraculous language of poetry, the magic of Vahabzadeh's pen.  The concept of love is analyzed in philosophical and wise judgments on the basis of the relationship between

man, the individual, and more global issues: the oppressed, the right and the wrong, the strong and the weak, the rich and the poor, the old and the young.

**Keywords**: Keywords: philosophical thinking, self-awareness, self-return, mother tongue, Turkism

## GİRİŞ

Bəxtiyar Vahabzadə yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatının özünəməxsus səhifəsidir.Onun tərzi, dili, düşüncəsi, məramı, əxlaqı fərqlilik və novatorluq məktəbi, yaradıcılığı isə əvvəlkilər və sonrakılar nəslinə örnək ola biləcək ideya, əqidə məktəbidir.

Əgər Cabbarlı hələ gənc yaşlarından romantikdirsə ,Vahabzadə filosofdur. Əgər Cavid türkçüdürsə, Vahabzadə türkoloqdur. Əgər Hadi vətənpərvərdirsə, Vahabzadə vətənpərəstdir. Əgər Vurğun aydın danışıq tərzi gətiribsə ədəbiyyatımıza, Vahabzadə aydın fikir ,məntiqi düşüncə , doğru qənaət, düzgün qiymətləndirmə forması aşılayıb Azərbaycan oxucusuna…

Bəşəriyyət, cəmiyyət, insanlıq, təfəkkür, sevgi, dünya, zaman, kainat, mənəvi dəyərlər—hər bir mövzu Bəxtiyar Vahabzadə qələmində çiçək açır.Bir ürəyi dörd fəslə sığdıran, hətta bu ürəyin kainatın sonsuz ənginliklərində pərvazını həzin, məhrəmanə dillə təcəssümünü bəyan edən şair məhz odur---qeyd-şərtsiz zəmanənin ən əvəzolunmaz sənətkarı, xalqın qəlbinin təkrarolunmaz əsl şairi Bəxtiyar Vahabzadə.

Fəlsəfə B.Vahabzadə yaradıcılığının mayası və əsas predmetidir.Vətən Vahabzadə yaradıcılığında fəlsəfi bir məkandır. Allahın lütfü, bəndəsinə məsləhət bildiyi torpaq, müqəddəs bir ərazidir.

Vətən əbədidir,
Gedəriyik biz.
İnsan qüdrətlidir öz vətənində.
Bilirik,dünyaya biz niyə gəldik.
O biz yaradan,
Biz ona bəndə.
Yaradan uğrunda ölməyə gəldik. (1,səh.8.)

Hələ Sovet rejiminin ən kəskin zamanında şair yazırdı:

Vardırsa yaranmış;
Mütləq Yaradan var.
Varsansa, özündən
Əvvəlcə atan var.
Dünya quru bir səs,
Qəm çəkməyə dəyməz.
Yüz-yüz itən olsun,
Min-min də bitən var.
Şükr eyləyəlim ki,
Bizlərdən həm əvvəl,
Həm sonra Vətən var. (1.səh.49).

Sovet dövründə deyəndə, ümumiyyətlə, Vahabzadə ömrünün elə 65 ilini,yaradıcılığının da ən böyük hissəsin elə Sovet dövründə yaşayıb axı…Lakin bu dövr bütün ziyalılardan, şairlərdən, elm adamlarından fərqli olaraq" Vahabzadə özünüdərki", " Vahabzadə özünəqayıdışı" olub. Bilgə xaqan "Ey türk, özünə qayıt, sən özünə qayıdanda böyük olursan!" misralarını deyəndə məhz əsl türkü-Vahabzadə əqidəli,Vahabzadə qeyrətli türkü nəzərdə tutub sanki…

Qul olmaq olar eyləsə məcbur səni gərdiş.

Qulluqla barışmaq ,daha müdhiş!

Qulluqla barışmaz əsl insan,əsl əsgər!

Yurdunda qul olmaz ona övladlıq edənlər! (1.səh.89).

Bəxtiyar poeziyasında Vətənin torpağı, daşı, suyu, çayı, dili , musiqisi həzin bir laylanın misralarına çevrilib hər gün dodaqlarda zümzümə olunur. Gah Araza, gah Kürə nəğmə oxuyur şair. Gah hökmdara, gah sənətkara, gah aşiqə, gah məşuqəyə, hətta mücərrədliyə-- acıya, kədərə, mənliyə, ləyaqətə, vicdana, heysiyyətə şərqilər qoşur, sözlər yazır, musiqi bəstələyir, nağıl danışır, rəvayət söyləyir…Bəzən də üsyan edərək hay basır, haray salır, məhkəmə qurur, hakim tələb edir, hayqırır, bağırır, inləyir, yalvarır…

Araz axır…

Nərildəyə-nərildəyə,

" Mən də varam,varam "--deyə,

Araz axır,

Kürə çatır.

Birləşirlər.

Burda itir onun adı.

Bundan sonra axan çaya ,Kür dedilər,

Araz deyən heç olmadı.

Qəribədir,

Qəribədir! (1.səh 32.)

Bəli, qəribədir.Və qəribə orasıdır ki, Vahabzadədə də Füzulidə olduğu kimi adilikdə qeyri-adilik, sadəlikdə möcüzə, möcüzədə həqiqət, həqiqətdə insan, insanda Allahın dərki var. Şairdə ruh varlığın əzəli və əbədi simvolu, düşüncə bacarığı, duyum qaynağıdır. Şair ruhu poeziya qiyafəsinə girərək onu masa arxasında məcburi şəkildə oturdub, ürək döyüntülərini ağ kağız üzərinə köçürməsinə yardım edir. Milyonların qəlbini eyni ahəngdə, eyni temp və ritmlə vurmasına şərait yaradır. Bu ruh poetik ehtirasın ən potensial bacarığının ifadəsinə imkan yaradır. "İztirabın sonu"nu"Şəbi-hicran"da " Atılmışlar"ın ixtiyarına qoymur."Yağışdan sonra " "Fəryad" edərək" Xəzan bülbülü"nü "Gülüstan"da "Ləyaqət"lə anır."Təzadlar"dan yaranan "Yollar və oğullar"ı, "Həyat və ölümü""Muğam"ın ən iniltili hıçqırıqları ilə qəlbimizə yaxınlaşdırır.

Bu dil-- bizim ruhumuz,eşqimiz,canımızdır,

Bu dil—bir-birimizlə əhdi-peymanımızdır.

Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,

Bu dil---əcdadımızın bizə miras verdiyi qiymətli xəzinədir, (1,səh.8)

deyərək ana dilimizi misilsiz təşbehlə anır,

Küləklər əsməsin, şimşək çaxmasın

Körpə yuxusunda gül dərən zaman.

Göllər gürlaməsın, sellər axmasın

Ana körpəsinə süd verən zaman. (1.səh.93).

deyərək ana-bala məhəbbəti haqqında Bethovenvari sonata yazır.

Vahabzadə yaradıcılığının fəlsəfi gücü dünyanın insan oğlu tərəfindən , möhtəşəm şair tərəfindən dərkini daha yaxşı anlatmağa xidmət edir.

Kimini qaldırar yerdən göylərə,

Kimini endirər göylərdən yerə.

Yaxşını yamana, xeyiri şərə,

Doğrunu əyriyə satan dünyadı.

Tutma bu dünyanı,tutma tək əlli,

Nagahan gülüşü yenə təsəlli.

Nə sevinci bəlli, nə qəmi bəlli,

Zəhəri şəkər qatan dünyadı. (3.səh.242)

Şair bu yeknəsəq dünyanı bəzəyən ruhi aləmi –düşüncəni, ağılı, musiqini, rəssamlığı, digər anlayışları ayrı-ayrılıqda təhlil edir. Bəzən "Mona Liza"nın kədəri önündə xəyala dalır, bəzən Rafaelin qəbri üstündə mütəəssir olur:

Ömrü insan kədəri,

Eşqi gözəllik olan

Bir ustalar ustası…

O,rənglər sultanıdır.

Onun adı dünyanın

Şərəfidir,şanıdır.

Orqan da bir tərəfdən

Həzin-həzin ağlayır.
"Ave Mariya" –deyə

Səslər də gəlmiş bu gün

Bu məzarı səcdəyə…(1.səh 113).

## NƏTİCƏ

Son olaraq Bəxtiyar Vahabzadə yaradıcılığının fəlsəfi gücünü dəyərləndirəsi olsaq deməliyik ki, Bəxtiyar şeirində hər kəsin öz dünyası var. Toxunulmaz dünyası, onun üçün müqəddəs olan mavi dünyası, bu dünyanın masmavi çiçəyi var…Aşıq Veysəlin kor gözlərini açmaq istəyən həkimə dediyi "Gözlərim açılacaq olsa, mənim öz dünyam yıxılıb gedər.Buna razı deyiləm" cümləsinə həsr etdiyi şeir var bu mavi dünyada…

Dayazı görmürdü kor baxışları,

Dərini görürdü… Onun nə dərdi!

Çərdəkdə ağacı, çiçəkdə barı,

Baxışda ürəyi görə bilərdi.
Zülmətə göz yumub bir məşəl təki,
Eşqini göz bildi, nur sandı Veysəl
Zülmətə göz yumub öz qəlbindəki
İşıqlı dünyaya qapandı Veysəl (1.səh.217).

Və , nəhayət, Bəxtiyarın fəlsəfi dünyasında məhəbbətin heç yerdə, heç kəsdə təsadüf olunmayan ruhani bir fəlsəfəsi var…

Həyatın sirrini açırsan, gülüm,
Laybalay, taybatay, qatbaqat mənə.
Yaxşı ki, dünyada sən varsan gülüm,
Mənasız olardı bu həyat mənə…(1.səh.119).

yaxud:

Danışanda ürəyim dolur,boşalmır mənim,
Səsini dinləyirəm,
Vallah,sözün,mətləbin
Yadımda qalmır mənim (1.səh.103).
Sevən doxsanında hələ cavandı,
Sevməyən qocadı otuzunda da …(2.səh.131).

deyən dahi şairimizin bu il doxsan yeddıncı yaşını qeyd edəcəyik. Üzümüzü Bəxtiyarımızın o nurani üzünə tutub, dağınıq saçlarına, dərin baxışlarına ,arıq vücudundakı qocaman ürəyinə, əsrarəngiz, ürəkdən gələn səsinə ,öyrəşdiyimiz və bizə həmişə fəxarət və örnək olacaq vicdanına tutub öz sözləri ilə ona---o böyük insana belə demək istəyirəm:

Ulu könlüm, uca könlüm,
Düşdü sacdan-saca könlüm.
Cavan ikən qoca könlüm,
Qocaldıqca cavan oldu ( 1.səh.101).

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYAT

1.Vahabzadə, Bəxtiyar “Payız düşüncələri”.Bakı,Yazıçı, 1981.səh 376.

2.Vahabzadə, Bəxtiyar ,Seçilmiş əsərləri, iki cilddə, birinci cild,Bakı ,“Yazıçı”, 1983.səh.328.

3.Vahabzadə ,Bəxtiyar ,Seçilmiş əsərləri, iki cilddə, ikinci cild, Bakı,”Öndər nəşriyyat”, 2004.səh 320.

# BƏXTİYAR VƏHABZADƏNİN "GÜLÜSTAN" POEMASI AZƏRBAYCANIN BİRLİYİNƏ VƏ İSTİQLALINA ÇAĞIRIŞDIR

BAKHTIYAR VAHABZADE'S POEM "GULUSTAN" IS A CALL TO THE UNITY AND INDEPENDENCE OF AZERBAIJAN

***Kazımova Nurlana***

*ADPU*

*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Açar söz:** Bəxtiyar Vəhabzadə, "Gülüstan" poeması, Vətən, istiqlal, güneyli-quzeyli

Hər xalqın tarixində elə şəxsiyyətlər olur ki, onların yaradıcılıq və mübarizə yolu öz xalqının taleyi ilə qovuşaraq yaddaşlarda əbədi qalır və heç vaxt unudulmur. Belə yüksək amallı şəxsiyyətlərdən biri də xalq şairi Bəxtiyar Vahabzadədir. Onun əbədi irsi bu gün də xalqımız üçün tükənməyən qiymətli xəzinədir. Bəxtiyar Vahabzadə sözün əsl mənasında xalqın şairidir. O öz şair adını rəsmi titul olaraq yox, xalqın milli mübarizə məktəbində qazanmışdır. Əsərlərində yalnız doğma xalqının deyil, bəşəriyyətin arzu və istəklərini, düşüncələrini böyük ustalıqla əks etdirdiyi üçün təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınıb sevilən şair olmuşdur. Həyatı boyu onu düşündürən məsələlərdən biri xalqının müstəqilliyi, milli istiqlalı olmuşdur. Mənsub olduğu xalqın dərdini, kədərini, duyğu və düşüncələrini dərindən duyan ədibin milli azadlıq uğrunda bir vətəndaş şairi kimi illər boyu davam edən mübarizəsi yaradıcılığında öz əksini tapmışdır. O poeziyamızda milli birliyin, vahid azərbaycançılığın əsas təbliğatçısı, tərənnümçüsü idi.

Əsrlər boyu Azərbaycan işğalçılıq siyasətinə məruz qalmış, onu iki yerə bölüb, sonra da ətindən tikə-tikə qoparmışlar. Vətənimizin yaralarının sağalmaz halını görən və bu yaraların daha da dərinləşməsinə aparan yol xalq şairi Bəxtiyar Vəhabzadəni "Gülüstan" poemasını yazmağa vadar etmişdir. Bəxtiyar Vəhabzadə Azərbaycan ədəbiyyatının azadlıq və müstəqillik simasıdır. Şair vətənini həddindən artıq sevirdi və onu azadlığı olmadan təsəvvür edə bilmirdi.

Xalq şairi Bəxtiyar Vahabzadənin məşhur "Gülüstan" poemasını paytaxt mətbuatı çap etməkdən imtina etmişdir. Şair üzünü doğulub boya-başa çatdığı Şəki torpağına tutur. 1960-cı ilin payız ayları idi. O vaxt rayonda çıxan "Nuxa fəhləsi" qəzetinə İkinci Dünya Müharibəsində bir qolunu itirmiş əsl vətənpərvər, həqiqi ziyalı Məhyəddin Abbasov rəhbərlik edirdi. O ömrünün sonuna kimi qəzetin baş redaktoru olmuşdur. Bəxtiyar Vahabzadə redaksiyaya gələrək redaktorla görüşür, söhbət əsnasında məlum olur ki, şair yeni yazdığı və mübahisəli olan "Gülüstan" poemasını çap etdirmək istəyir. Redaktor "Gülüstan"ı çap etməyə razılaşır. Qəzet nəşr olundu və onu pis gözlərdən kənar saxlayıb oxuculara çatdırmaq lazım idi. Redaktor qəzetin şriftlərinin mətbəədə dağıdılmasını və səhərə qədər etibarlı yerdə saxlanmağı tapşırır. Ən etibarlı yer fotolaboratoriyanı seçirlər. Qəzetləri fotolaboratoriyada stolun gözlərinə yerləşdirirlər. Laboratoriyanın elektrik xəttini kəsirlər. Döşəməyə isə köhnə aşkarlayıcı məhlul tökürlər. Bu məhlul lax yumurta iyi verdiyinə görə nəfəs almaq mümkün olmur. İş gününün sonuna DTK-nın 3 əməkdaşı redaksiyaya gəldi. Onlar "Gülüstan" poemasının çap olunmuş "Nuxa fəhləsi" qəzetinin nüsxələrini müsadirə etməyə gəlmişdilər. Görünür kimsə "Gülüstan" poemasının çap olunacaq xəbərini ağzından qaçırmışdı. Onlar mətbəə və redaksiyanın bütün otaqlarını ələk-vələk etdilər. Növbə fotolaboratoriyaya çatdı. DTK-nın polkovniki fotolaboratoriyanın qapısını açıb tez də örtdü. İy hər yeri basmışdı. Onlar əliboş çıxıb getdilər. Beləliklə, "Gülüstan" həbsdən xilas edildi. Ertəsi gün poçt işçiləri gəlib "Gülüstan" poeması çap olunmuş qəzeti oxuculara payladılar. Və beləliklə Bəxtiyar Vahabzadə həbsdən xilas ola bildi.

Poemanın birinci hissəsini 1959-cu ildə, ikinci hissəsini 1999-cu ildə, Azərbaycan müstəqillik qazandıqdan sonra yazmışdır. Poemanın hər sətrində ürək ağrısı, qəzəb hiss olunur. Həssas məqamlara toxunan şair böyük sənətkarlıqla çar Rusiyasını və onun varisi olan Sovet hakimiyyətini tənqid etmişdir.

Necə ayırdınız dırnağı ətdən-

Ürəyi bədəndən, canı cəsəddən?

Axı kim bu haqqı vermişdir sizə,

Sizi kim çağırmış vətənimizə?

Bu sətirləri yazan şairin qəlbi və beyni üsyan edir, vətənimizin Rusiya tərəfindən işğalının əsasını qoyan iyrənc, mənfur müqavilə və ona imza atan ürəksiz simasızlar şairin qəlbini yaralamış və onun neçə min illik yaddaşı olan milli mənəviyyatına toxunmuşdurlar.

Ağlayıb dağlardan əsən küləklər,

Bu məsum xəbəri aləmə yaydı,

Sanki dilə gəldi güllər, çiçəklər:

"Bu işə qol qoyan qollar sınaydı"

"Gülüstan" poemasının ikinci hissəsini şairin dilində desək:

Zərurət görmədim təsadüf qədər

Məqsədə yönəlir bu başsız axın.

Məndən rica etdi bir vətənsevər

Yazım davamını mən "Gülüstan"ın.

Şair poemanın ikinci hissəsində 1990-cı il 20 yanvar qırğınından bəhs etmişdir. Şair yazır ki, şənbə gecəsi qətl günündə şəhidlər xalqın qəlbindəki qorxu hissini söküb dağıtdılar.

Bəxtiyar Vəhabzadə 1981-ci il yanvarın 23-də Şəhriyarla olan telefon söhbətini qələmə almışdı. Bir-birlərinə gəl deyən ədiblər yaşlarını öyrənmiş, Şəhriyar şairə cavansan demiş, mənim arzum göyərmədi, yaşım keçibdir, o vüsal gününü qardaşının görməsini arzu etmişdir. Şair həmin xoş günü bircə gün görür. Ancaq nə fayda?. Allah bizlərə bir də nə vaxt hansı dolayda belə fürsəti verəcəkdir? 1989-cu ilin dekabr ayında quzey azəri türklərinin tikanlı sərhəd məftillərinin yarıb o taya keçmələrindən yazmışdır. Cəmi bir gün bu tay o tayla qovuşur. Yazır ki, ölmədi, o günü gördü Bəxtiyar. Şəhriyar, ruhun şad olsun, qabaqda işıq var. Yetmiş ildən sonra quzey öz istiqlalına qovuşur, lakin istiqlalı qazanıb, torpaq itirdik. Bu gün biz deyirik, ruhun şad olsun ustad! İtirilən torpaqlar şəhidlərin qanı ilə bizim olan geri alındı.

Köksünə dağ üstdən dağ çəkilən xalq

Bir gün dağ çəkəcək dağın köksünə.

Məftil çəpərləri qıra bilən xalq

Bir il gec, bir il tez-qıracaq yenə.

Bu misralarla şairimiz və biz bilirik ki, Azərbaycanın güneyli-quzeyli xəritəsini görmək ya bizə, ya da gələcək nəslə nəsib olacaqdır.

Bəxtiyar Vahabzadə xalqın şairi idi. O bir vətəndaşın deyil, bütöv bir xalqın missiyasını öz üzərinə götürdü. Onun üçün dünya Azərbaycandan başlayırdı, Azərbaycanda da bitirdi. Yaratdığı ölməz əsərlərindən xalqının tarixi kədərini ürək ağrısı ilə dilə gətirdi, şərəfini isə böyük qürur hissi ilə vəsf etdi. Dahi Niyazi ədibin yaradıcılığını yüksək qiymətləndirərək demişdir "Bəxtiyar ona görə Bəxtiyardır ki, onu xalq sevir, xalqı da ona görə bəxtiyardır ki, onun Bəxtiyarı var".

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**

1) Həmidli Telman. Xalq şairi Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması necə çap olundu və həbsdən necə xilas edildi? (Mətn) İ.Həmidli/Ədəbiyyat qəzeti – 2019-16 noyabr.- s 3.

2) Bəxtiyar Vahabzadə. iki cilddə, II cild "Öndər nəşriyyatı", Bakı,2004 səh. 76-82.

**Keywords**: *Bakhtiyar Vahabzade, poem "Gulustan", Motherland, independence, south-north*

For centuries, Azerbaijan has been subjected to a policy of aggression, divided into two parts, and then torn to pieces. Seeing the incurable state of the wounds of our homeland and the path leading to the deepening of these wounds, the national poet Bakhtiyar Vahabzade wrote the poem "Gulustan". Bakhtiyar Vahabzade is the face of freedom and independence of Azerbaijani literature. The poet loved his homeland so much that he could not imagine it without freedom. He wrote the first part of the poem in 1959 and the second part in 1999, after Azerbaijan gained independence. Heartache and anger are felt in every line of the poem. Touching on sensitive issues, the poet skillfully criticized Tsarist Russia and its successor, the Soviet government as well.

*How did you separate a mother from baby-*

*The heart from the body, the soul from the body?*

*After all, who gave you this right,*

*Who invited you to our homeland?*

The heart and brain of the poet who wrote these lines rebelled, the disgusting, treaty that laid the foundation for the Russian occupation of our homeland and the heartless faceless people who signed it wounded the poet's heart and touched his national morality, which is remembered for thousands of years.

*Weeping winds from the mountains,*

*Innocent news spread to the world,*

*As if flowers, blossoms break silence:*

*"Let stop the hands of this intention"*

The second part of the poem "Gulustan" is expressed by the poet:

*Concidence is real necessity in our life*

*Target oriented this roaming mass*

*A patriot asked me*

*To keep on writing "Gulustan" poem*

In the second part of the poem, the poet spoke about the January 20, 1990 massacre. The poet writes that on the night of the murder on Saturday night, the martyrs dispelled the fear in the hearts of the people.

Bakhtiyar Vahabzadeh recorded a telephone conversation with Shahriyar on January 23, 1981. The writers who told each other to come learned each other's age, Shahriyar told the poet that he was young, my dream

did not come true, I was old, he wanted his brother to see that day. The poet sees that happy day for a day. But what is the benefit? When will God give us such an opportunity again? In December 1989, he wrote about the splitting of the barbed wire of the northern Azeri Turks. Only one day this Thai meets that Thai. He writes that he did not die, he saw Bakhtiyar that day. Shahriyar, may your soul be happy, there is light ahead. Seventy years later, the north gained its independence, but we gained independence and lost land. Today we say, Master, may your soul be happy! The lost lands were taken back from us with the blood of the martyrs.

*The nation who felt wave of grief*

*One day will take his comprehensive revenge*

*The national who is capable to pass through obstacles*

*One day later or earlier will obtain his precious freedom*

With these verses, our poet and we know that seeing the map of Azerbaijan from south to north will happen to us or to future generations.

# BƏXTİYAR VAHABZADƏ İRSİNİN MİLLİ TƏHSİLDƏ YERİ

THE PLACE OF BAKHTIYAR VAHABZADE'S HERITAGE IN NATIONAL EDUCATION

***Mehriban Sərdarova Nağı qızı***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Elmi-Tədqiqat Mərkəzinin Fundamental Araşdırmalar bölməsinin kiçik elmi işçisi*

## ÖZET

Ümummilli liderimiz Heydər Əliyevin təbirincə, “xalqımızın böyük şairi, görkəmli alimi, tanınmış pedaqoqu və yorulmaz ictimai-siyasi xadimi” Bəxtiyar Vahabzadənin irsi müstəqil dövlətçiliyimizin milli ideologiyasının formalaşmasında, xüsusən milli düşüncəyə, milli-mənəvi dəyərlərə əsaslanan milli təhsildə xüsusi yerə malikdir.

Bəxtiyar Vahabzadə irsinin iki başlıca cəhəti – dərin ictimai-pedaqoji məzmunu ilə seçilən müəllimliyi və alimliyi və ənənələri ilə seçilən ədəbi məktəbi, poeziya yaradıcılığı milli dövlətçiliyimizə gedən yolda Heydər Əliyevin həmişə xüsusi diqqət mərkəzində olmuşdur.

XX əsrin ortalarından başlayaraq milli mədəniyyət, milli dil, milli ədəbiyyat istiqamətində yaratdığı əsərlər milli ideologiyamızın ayrılmaz tərkib hissəsini təşkil edir. Bəxtiyar Vahabzadənin irsinin milli idelogiya konteksində tədqiqindən belə bir nəticə çıxarmaq mümkündür ki, o bütövlükdə Azərbaycan milli ideyasını – azərbaycançılığı hələ 1950-ci ildən başlayaraq müdafiə edən, əsərlərinin ideya-məzmunu ilə varisliyi qoruyan şair-mütəfəkkirimizdir. Bəxtiyar Vahabzadə irsini tədqiqindən aydın olur ki, o, əsasən Azərbaycanın bütövlüyünü, tarixi-coğrafi birliyinin qorunmasını milli ruhun, ana dilinin, milli ideyaların, türkçülüyün, islamçılığın, milli azərbaycançılığın qorunması, yaşaması ilə eyniyyətdə görür. Buna görədir ki, onun azərbaycanlıların ruhunda yaşayan, milli yanğı ilə qələmə aldığı, yaratdığı əsrləri sərt tənqidi ilə də diqqəti çəkir. Özünəməxsusluğu ilə seçilən bu ənənə Bəxtiyar Vahabzadənin, müasirləri də qeyd etdiyi kimi, öncə müəllimliyi, pedaqoqluğu ilə bağlıdır, sanki yetişən nəsli ayıq-sayıq olmağa, “titrəyib özünə dönməyə”, şərəfli tarixinə, tarixini unudanların tarixdən silinməklərindən dərs almağa çağırışını müəllim kimi pedaqogikanın tərbiyə üsullarından istifadə etməklə çatdırır:

*“Ey öz doğma dilində danışmağı ar bilən fasonlu ədabazlar,*

*Qəlbinizi oxşamır qoşmalar, telli sazlar?*

*Bunlar qoy mənim olsun, Ancaq Vətən çörəyi, Sizlərə qənim olsun!”*

Cəsarətlə demək olar ki, Bəxtiyar Vahabzadə irsi – şəxsiyyəti, yaradıcılığı azərbaycanşünaslığın ayrılmaz tərkib hissəsidir. Bəxtiyar Vahabzadənin dilə, milli tarixə, milli qeyrət, milli vicdan kimi dəyərlərə həm şəxsiyyəti, həm yaradıcılığı ilə sadiqliyi, əqidəyə bağlılığı haqqında ən yığcam fikri deməli olsaq, onu ümummilli lider Heydər Əliyevin fikrindən üstün ifadə etmək mümkün olmayacaq: *“Çoxillik elmi-pedaqoji fəaliyyətiniz, nurlu şer-sənət dünyanız illər boyu gənclərin tərbiyəsinə böyük təsir göstərmiş, haqq-ədalətin təntənəsi uğrunda mübarizədə qalib gəlməyə xalqı səfərbər etmişdir. Bu gün Vətən torpağının keşiyində duran mərd oğul və qızlarımız məhz doğma xalqın, müqəddəs torpağın azadlığı üçün yanmaq amalı ilə yaşayır, döyüşür və yaradır. Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır.”*

Məlumdur ki, azərbaycanşünaslığın, azərbaycançılığın birinci ən vacib ünsürü dildir və Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin təməlində məhz ana dili dayanır.Ona görə, ana dilini bilmədən azərbaycançı olmaq mümkün deyildir. Heydər Əliyevin ana dilində gördüyü yüksək ideallar Bəxtiyar Vahabzadə ruhundan poeziyaya yayılır:

*Ana dilim, səndədir xalqın əqli, hikməti...*

*Səndə mənim xalqımın qəhrəmanlıqla dolu*

*Tarixi varaqlanır,*

*Səndə neçə min illik mənim mədəniyyətim,*

*Şan-şöhrətim saxlanır.*

*Mənim adım-sanımsan,*

*Namusum, vicdanımsan!*

Azərbaycan türkçülük məfkurəsi, vətənçilik ideologiyası Bəxtiyar Vahabzadə irsinin ana xəttini təşkil etməsi bir tərəfdən, onun əsərlərində doğma türkcəmizə sonsuz məhəbbəti ilə təzahür edirsə, digər tərəfdən də heç vaxt sarsılmayan, təzyiqlərə yenilməyən, təqiblərdən qorxmayan, geri çəkilməyən vətəndaşlıq mövqeyi ilə fərqlənir. Bu kimi məqamları nəzərdə tutaraq Heydər Əliyev deyir: *“Xalqın düşüncə və arzuları, hiss və duyğuları, istək və amalları həmişə sizin zəngin yaradıcılığınızın, mübariz poeziyanızın cövhəri olmuşdur. Məslək və əqidənizin xidmətində sədaqətlə durmuş qələminiz sizi şöhrət zirvəsinə ucaltmış, Azərbaycanın sevimli sənətkarı etmişdir.”*

Heydər Əliyevin azərbaycançılıq tərbiyəsində nəzərdə tutduğu təməl prinsiplərin bir tarixi yaddaş olaraq çoxunun ədəbiyyatda əks olunmağını,  Azərbaycan xalqının zəngin ədəbi irsini azərbaycançılıq tərbiyəsində əsas vasitələrdən biri hesab edir. Bu baxımdan ədəbi irsimizin bütün gənclərə - bu gənclər hansı istiqamətdə işləyəcək, çalışacaqlarsa, ondan asılı olmayaraq - çatdırılması, bildirilməsi, tədris olunmasını  ciddi fikir vermək lazım olan çox mühüm bir iş kimi, vətəndaşlıq mövqeyi kimi dəyərləndirir.

Bu konteksdən Bəxtiyar Vahabzadənin həm də vətəndaşlıq mövqeyini yüksək qiymətləndirir: *"Vətənlə, xalqla, ana dilimizlə qırılmaz tellərlə bağlı olan hər bir misranızdakı hikmət ölkəmizin müstəqilliyi uğrunda vətənpərvər mübarizlərin yetişməsində böyük rol oynamış və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində bir örnək olmuşdur. Siz yüksək ideallar tərənnüm edən poeziyanızla millətin birliyinə, ləyaqətinə ehtiram hissləri aşılamış və onların təntənəsi uğrunda səbrlə, yorulmadan, ardıcıl mübarizə aparmısınız".*

Bəxtiyar Vahabzadə irsində azərbaycançılıq, qeyd etdiyimiz kimi, öz türkçülük məfkurəsi ilə xarakterikdir. Təsadüfi deyil ki, Çingiz Aytmatov, Oljas Süleymenov Bəxtiyar Vahabzadəni əsrin şairi, türk dünyasının böyük şairi adlandırırdı.Onun türk dünyasında da böyük hörməti, heç şübhəsiz, dostu Şirməmməd Hüseynovun da təbirincə,  təpədən dırnağa qədər türk olması ilə əlaqədardır. Filosof Əbu Turxan deyir, ürəkdə yer tutmaq üçün ürək təmiz olmalıdır. Bəxtiyar Vahabzadənin təmiz, saf türkçülük eşqi həm də qısa zaman ərzində ürəklərdə yer tutan, xalq ruhuna, milli yaddaşa çevrilən “Azərbaycan-Türkiyə” şeirinin misralarında saxlanan hikmətdədir. Azərbaycançılıq ideologiyasında da vurğulanan bir millətin iki dövləti kimi eyni arzu, eyni niyyətdə, eyni bir halda, eyni diləkdə, amalda olması Bəxtiyar Vahabzadənin misralarında həqiqət tapdı:

*Dinimiz bir, dilimiz bir*

*Ayımız bir, ilimiz bir*

*Eşqimiz bir, yolumuz bir*

*Azərbaycan-Türkiyə.*

Məlumdur ki, azərbaycançılıq ideallarının formalaşmasında, azərbaycançılığın təbliğində güclü amillərdən biri dindir. Heydər Əliyev dinə, onun tarixdə və cəmiyyətdəki mənəvi-saflaşdırıcı roluna, azərbaycançılığın tərkib hissəsi kimi insanlarda inam, iman və əqidənin formalaşdırılması vasitəsi kimi baxır. Ümummilli liderə görə, islam dini həmişə insanları saflığa, ülvi mənəviyyata dəvət etməklə mənəviyyatın tərkib hissəsi kimi azərbaycançılıq ideologiyasına, vətənpərvərlik tərbiyəsinə güclü təsir göstərir. Bəxtiyar Vahabzadə

azərbaycançılığında din, Allah sevgisi də bu qəbildəndir. Ona görə, Allah sevgisi milli və ümumbəşəri dəyərləri özündə ehtiva edir:

*Insanın əzəl borcudur insanlığa hörmət*

*Insanlığa hörmətdə, ləyaqətdədir Allah.*

Bəxtiyar Vahabzadəyə görə, Allah sevgisi ədalətlə, haqq, həqiqət aşiqliyi ilə, milli vicdanla, sarsılmaz əqidə ilə, xalqı, millәti üçün yanan işıqlı ürək ilə eyniyyətdədir:

*Zülmün üzünə haqq deyilən şilləni çəksən,*

*Şillәndә möhürlәnmiş o qeyrətdədir Allah.*

*Cahil enər alçaqlığa, öz qəlbinə yetməz*

*Vicdandan əgər dönsə də, xeyrindən o dönməz.*

*Zülmətdə, cəhalətdə, ədavətdə o görünməz,*

*Ilqarda, sədaqətdə, məhəbbətdədir Allah.*

Heydər Əliyevin təbirincə, "Bəxtiyar Vahabzadənin hər zaman azadlıq carçısı olması, əqidəsindən dönməməsi" müstəqil Azərbaycan dövlətinin gələcəyi naminə fəaliyyətlərdə də uğurlara vəsilədir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun 90 illik yubileyi münasibətilə bildirir ki, onun irsi azərbaycançılıq ideologiyasının davamlı inkişafında da xüsusi mövqeyə malikdir: "Sənətkarın insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır."

**Açar sözlər:** Bəxtiyar Vahabzadə, azərbaycançılıq, Heydər Əliyev, türkçülük, ana dili, milli-mənəvi dəyərlər, milli təhsil, mənəvi ucalıq, milli vicdan, milli qeyrət.

## ABSTRACT

According to our national leader Heydar Aliyev, the legacy of Bakhtiyar Vahabzade, "the great poet, prominent scientist, well-known pedagogue and tireless socio-political figure of our people," has a special place in the formation of the national ideology of our independent statehood, especially in national education based on national thinking.

Two main aspects of Bakhtiyar Vahabzadeh's legacy - a literary school distinguished by its deep socio-pedagogical content, teaching and scholarly traditions, and poetry have always been in the focus of Heydar Aliyev's path to our national statehood.

Since the middle of the twentieth century, his works in the field of national culture, national language and national literature have become an integral part of our national ideology. From the study of Bakhtiyar Vahabzadeh's legacy in the context of national ideology, it is possible to conclude that he is our poet-thinker who defended the Azerbaijani national idea as a whole - Azerbaijanism since 1950, preserving the heritage with the idea and content of his works. It is clear from the study of Bakhtiyar Vahabzadeh's legacy that he sees the integrity of Azerbaijan, the preservation of historical and geographical unity in the same way as the protection and survival of the national spirit, mother tongue, national ideas, Turkism, Islamism, national Azerbaijanism. That is why he draws attention with his harsh criticism of the centuries in which he lived in the spirit of Azerbaijanis, wrote and created with the national fire. This unique tradition, as noted by his contemporaries, is connected with his teaching and pedagogy, as if the growing generation was awake, as if calling on the younger generation to "tremble", to learn from the glorious history, to learn from the erasure of those who forgot their history. Delivers using:

It is safe to say that Bakhtiyar Vahabzadeh's legacy - his personality, his creativity - is an integral part of Azerbaijani studies. If we say the most concise opinion of Bakhtiyar Vahabzadeh about his personality, creativity and devotion to values such as language, national history, national zeal, national conscience, it will not be possible to express it above the opinion of national leader Heydar Aliyev. Over the years, your world of radiant poetry and art has had a great impact on the education of young people, mobilized the people to win the struggle for the triumph of justice. Today, our brave sons and daughters, who are the guardians of the Motherland, live, fight and create for the freedom of the native people, the sacred land. Your personality and creativity have served the formation of the national thinking of the people, called it to national revival, played an invaluable role in the struggle for independence. "

It is known that the first and most important element of Azerbaijani studies and Azerbaijanism is language, and the mother tongue is the basis of Heydar Aliyev's ideology of Azerbaijanism. Therefore, it is impossible to be an Azerbaijani without knowing the mother tongue. The high ideals that Heydar Aliyev saw in his native language spread from the spirit of Bakhtiyar Vahabzade to poetry.

The ideology of Azerbaijan Turkism and the ideology of patriotism form the main line of Bakhtiyar Vahabzadeh's legacy. Considering such points, Heydar Aliyev says: “Thoughts and desires, feelings and emotions, desires and deeds of the people have always been the essence of your rich creativity and fighting poetry. Your pen, which has been faithfully in the service of your profession and belief, has raised you to the peak of fame and made you a favorite artist of Azerbaijan. ”

He considers the fact that many of the basic principles envisaged by Heydar Aliyev in the education of Azerbaijanism are reflected in the literature as a historical memory, the rich literary heritage of the Azerbaijani people as one of the main tools in the education of Azerbaijanism. From this point of view, he considers the delivery, communication and teaching of our literary heritage to all young people - regardless of the direction in which these young people will work, as a very important work that needs serious attention, as a position of citizenship.

In this context, he praises Bakhtiyar Vahabzadeh's civic position: "The wisdom in each of your poems, which is connected with the motherland, people and mother tongue, has played a great role in the development of patriotic fighters for the independence of our country and set an example in educating the younger generation." With your poetry, you have instilled a sense of respect for the unity and dignity of the nation, and you have fought patiently, tirelessly and consistently for their triumph. "

In the legacy of Bakhtiyar Vahabzade, Azerbaijanism, as we have noted, is characterized by its own ideology of Turkism. It is no coincidence that Chingiz Aitmatov and Oljas Suleymenov called Bakhtiyar Vahabzade the poet of the century, the great poet of the Turkic world. The philosopher Abu Turhan says that in order to have a place in the heart, the heart must be pure. Bakhtiyar Vahabzadeh's love of pure Turkism is also contained in the verses of the poem "Azerbaijan-Turkey", which took place in the hearts for a short time and became the national spirit and national memory. The fact that a nation, like the two states, which is also emphasized in the ideology of Azerbaijanism, has the same desire, the same intention, the same situation, the same wish, is realized in the poems of Bakhtiyar Vahabzade.

It is known that religion is one of the strong factors in the formation of Azerbaijani ideals and the promotion of Azerbaijanism. Heydar Aliyev views religion, its spiritual and purifying role in history and society, as an integral part of Azerbaijanism, as a means of forming trust, faith and belief in people. According to the national leader, Islam always has a strong influence on the ideology of Azerbaijanism and patriotic education as an integral part of morality, inviting people to purity and sublime spirituality. In Bakhtiyar Vahabzadeh's Azerbaijanism, religion and love of God are similar. Therefore, God's love includes national and universal values:

According to Bakhtiyar Vahabzade, the love of God is equal to justice, love of truth, national conscience, unshakable faith, and a burning heart for the people and the nation.

According to Heydar Aliyev, the fact that Bakhtiyar Vahabzade has always been a herald of freedom and does not change his beliefs is a means of success in activities for the future of the independent Azerbaijani state.

It is no coincidence that the President of the Republic of Azerbaijan Ilham Aliyev says on the occasion of its 90th anniversary that his legacy has a special place in the sustainable development of Azerbaijani ideology.  has played a major role in enriching it with the ideas of independence. ”

**Keywords:** Bakhtiyar Vahabzade, Azerbaijanism, Heydar Aliyev, Turkism, mother tongue, national-moral values, national education, moral highness, national conscience, national zeal.

# BƏXTİYAR VAHABZADƏ – SÖZÜN SEHRİYLƏ CANLANAN MƏNƏVİYYAT MƏNZƏRƏLƏRİ

***Prof. Dr. Minaxanım Nuriyeva Təkləli***

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*ORCID ID: 0000-0002-4985-8134*

## ÖZƏT

Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin ədəbi-bədii irsi milli məzmun və ümumbəşəri mündəricə səciyyəli olub mənəviyyat mövzulu və bədii obrazlarla zəngindir. Onun şeirlərinin ana ruhu təbiilik və səmimiyyətdir. Bu ruh onun yaradıcılığının əsas xəttini təşkil edən şeirlərində vətən-yurd sevgisinin, vicdani səsinin, qiymətli bəşəri hisslərin və insani qayğıların sevincinə, kədərinə hopmuş, bu yaradıcılığın başlıca mündəricəsinə çevrilmişdir. Şairin müdriklik notlarıyla süslənən və həyat fəlsəfəsi məzmununa dolan şeiriyyəti onun ana dilinin sehrkar, əfsunu imkanlarından sənətkarlıqla bəhrələnməsilə ortaya çıxmışdır. Başlıcası, yaradıcılığında milli məsələləri əsas mövzu olaraq işıqlandıran Bəxtiyar Vahabzadə Azərbaycan insanının arzu və ideallarını tanıtmaqla onun düşüncə dünyasına hakim olmuş, buna görə də xalqının vətən və azadlıq şairi kimi şərəfli ad almışdır. Bir millətin kimliyi, mənliyi, varlığı, keçmişini bu gününə bağlayan tarix bağları, ana südü qədər müqəddəs olan ana dili şair üçün tapındığı qutsal əmanət idi. Odur ki, həyati mövzuların tərənnümü kimi qəbul edilən və ana dilimizin diqqətəşayan abidəsi olacaq şeiriyyəti incə, həm də dərin, eyni zamanda güclü duyğuların, təəssüratların qiymətli nəticəsi olaraq bundan sonra da öz müasirliyini, aktuallığını saxlayacaqdır.

**Açar Sözlər**: Vahabzadə, şair, fəlsəfi, vətən, sevgi

## GİRİŞ

Böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadə bu torpağın yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Tək əsrimizin deyil, zamanın şairidir, bütün zamanlarda yaşayacaq əqidə və yol, məslək şairidir.

Bəxtiyar Vahabzadə öz dövrünü önləyəcək dərəcədə böyük sənətkar, işıqlı, həm də coşqun amallar şairidir; bütünlüklə başdan-başa dili-üslubu, düşüncəsi, əqidəsi, məfkurəsi türklüklə, insanlıqla, onun bu günü, gələcəyi ilə bağlı olan böyük sənətkardır. Bəxtiyar Vahabzadənin əsərləri milli-mənəvi ideologiyanın inkişafında, gənc nəslin vətənpərvər ruhda tərbiyəsində böyük rol oynamış, şübhəsiz bundan sonra da yeni-yeni türk gəncliyinin istiqamətverici idealı olacaqdır. Hazırda nəinki dünya azərbaycanlılarının, habelə böyük türk dünyasının milli birliyi və mütəşəkkilliyinin əldə olunmasında Bəxtiyar Vahabzadə şeirlərinin əhəmiyyətini görməmək mümkün deyil. Onu Türkiyədə də tanıyır və sevirlər, o bir tək Azərbaycanın deyil, bütün Türk dünyasının şairidir.

Hər bir sənətkarın fəaliyyət əsasını təşkil edən baş istiqaməti, maraq dairəsi və mövzuları olur. Vəxtiyar Vahabzadənin əsas mövzusu Vətəndir! Ana dilidir, yenə Vətəndir, onun insanlarıdır, onun dilidir, onun taleyidir.

Onun şeirlərində, dram əsərlərində, hekayələrində, qələmindən çıxan nə varsa hamısı insan, onun taleyi, onun qayğıları, ürək çırpıntıları ilə bağlıdır. Başqa cür də ola bilməzdi; daim şairin qəlbi öz xalqının qəlbi ilə bir döyünmüşdür, onunla gülmüş, onunla ağlamışdır. Hər zaman həyatının əvvəlindən sonunadək, son nəfəsinədək onu Azərbaycanın, bütün Türk xalqlarının taleyi, müqəddəratı düşündürdü. Bəxtiyar Vahabzadə böyüklüyü məhz bunda idi. Onu milyonlara sevdirən cəhət də hər şeydən öncə sənətkarın səmimiyytində, vicdani təmizliyindədir.

***

Bəxtiyar Vahabzadə adı təkçə respublikamızda deyil, onun sərhədlərindən çox-çox uzaqlarda da mütəfəkkir şair, lirik dramaturq, istedadlı alim və publisist, qeyrətli və cəsarətli ictimai xadim, sadə və səmimi insan kimi çəkilməkdədir. Ədəbiyyatımızın, bütövlükdə XX əsr poetik fikrinin görkəmli nümayəndəsi, Xalq Şairi Bəxtiyar Vahabzadə təkcə Azərbaycanın deyil, böyük Türk Dünyasının şairidir. 80- yaxın şeir kitabının, 20-dən çox poemanın, 10-dan artıq elmi-publisistik, iki monoqrafiya və yüzlərlə məqalənin müəllifidir. Bəxtiyar Vahabzadə hər bir misra üzərində, fikrin aydın və təsirli ifadəsi məqsədilə yorulmadan çalışan sənətkarlarımızdandır. Sözün başqa ədəbi növlərə nisbətən şeirdə daha çox bədiilik tələb etməsi və bu baxımdan şairin xüsusi obrazlılığa, ifadəliliyə malik olan poeziya dili örnəkləri sübut edir ki, həqiqi sənətkar gözəl bədii zövqün inkişafında, zahirən çox sadə görünən, həqiqətdə isə dərin bir məna ifadə edən bədii sözün qüdrətini duymaq hissini tam mənası ilə yüksəltməyə kömək etməlidir. Vahabzadə poeziyasının təsir gücü də elə bundadır. Şair canı və qanı ilə, bütün nəfəsi ilə bağlandığı ana dilinin sonsuz, hüdudsuz imkanlarından sənətkarcasına da istifadə etmişdi. Əlbəttə, başqa ədəbi növlərə nisbətən söz şeirdə daha çox bədiilik tələb edir və bu mənada poeziya dili xüsusi obrazlılığa, ifadəliliyə malik olur. Poeziyanın təsir gücü də elə bundadır. Şair poeziyada uzun illər mövcud olan və bərkiyən sözçülükdən, eyni zamanda ritorik pafosdan uzaqlaşmaqla təbii poetik hadisə və detallara üstünlük verməklə, hətta vəsf və tərənnümdənsə obrazlı düşüncə vəziyyətlərinə keçidlərlə buna nail olur. Onun istifadə etdiyi dil vahidləri obrazların səciyyələndirilməsi, təhkiyə üsulunun cazibəsi, təsvir edilən hadisələrin reallığı üçün çox böyük əhəmiyyətə malikdir. “Dil açanda ilk dəfə ana söyləmişik biz” kimi bir səmimi tərzdə etirafla deyən şairin dilində “ana” sözü bir çox sözlərin təyinedicisinə çevrilir: ana vətən, ana südü, ana laylası, ana arzusu, anasızlıq dərdi ifadələrilə bərabər, ana dili bir lüğəvi vahid olmaqla bərabər şairin daim qəhrini çəkdiyi, eyni zamanda hörmət və məhəbbətinin hədəfidir. Ana dilinə gözəl misralar, şeirlər həsr edən şair üçün dil, söz, ana dili – vəsfindən yorulmadığı, həmişəlik bir sevgidir. Ümumiyyətlə, fədakarlığın, sevgidə sədaqətin dili varmı? Deyirlər var. Bunun kimi:

Başımı qoyaram gündə yüz kərə

Bir yol ayağını qoyduğun yerə.

Eşqindir ucaldan məni göylərə,

Bu eşqin gücünə minnətdaram mən.

Bu mənada bədiiliyə, obrazlılığa xidmət edəcək bir kəlməni, fikrin sərrast ifadəsinə şərait yaradan hər hansı bir deyimi, uğurlu sözü, yerinə düşən sözü belə bədii tapıntılar adlandırmaqda haqlıyıq. Bədii tapıntılar həyatı öyrənmənin, dərin müşahidənin nəticəsində əldə edilir. Sənətkarın şeirlərinə və digər bədii parçalara qoyduğu “Gülüstan”, “Şəbi-hicran”, “Etiraf”, “Muğam”, “Ağ atlı oğlan”, "Həyat, sən nə şirinsən", "Ana dili", “Bir ürəkdə dörd fəsil”, “Bir ömür yuxu”, “Açılan səhərə salam”, “Özümüzü kəsən qılınc”və s. adlar sözlə cızılan, nəqş olunan mənəvi rəsmlərin bütövləşməsinə, tamlanmasına yardım etməklə həm də milli dilin sambalını, dəyərini artırmağa xidmət edir.

Şairin əsərlərində nəzərə çarpan rəngarəng obrazlılıq şairin bilavasitə canlı xalq dilinin zənginliklərindən yaradıcı surətdə istifadə etmək bacarığı ilə bağlıdır.(5,22) “Eynəkli cənabla təsbehli ağa” Gülüstan sülhü zamanı rus və İran tərəflərinə işarədir. Məhz gözəçarpıcı xüsusiyyətlərlə, daha çox geyim detalları ilə şəxsi adlandırmaq bizim xalq danışığına xas olan bariz cəhətdir. Yəni şair istəsəydi həmin eynəkli və təsbehli şəxsiyyətlərin rəsmi adlarını da yaza bilərdi.Yaxud, ana dilində danışmağı *ar bilən fasonlu ədabazlar* deyə şairin müraciətindən aydın olan odur ki, kimsə pis geyimi və ya geriliyi özünə ar bilsə də öz doğma dilində danışmağı ar bilənlər ənənəsi ədəbiyyatımızın canlı qolundan gəlit. Bunun nümunələrinə Üzeyir bəy Hacıbəyov, Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığında kifayət qədər rast gəlmək mümkündür.

Fikrin kasadlığı sözün də bəsitliyinə səbəb olacaqdır – bu bəlli bir həqiqətdir. Əlbəttə şair bu yoldan uzaqdadır; fikrin konkret, həm də obrazlı ifadə tərzinə üstünlük verir...Beləliklə, parlaq, aydın fikrin ifadəçiləri olan ayrı-ayrı sözlər, ifadələr hikmətli ifadələrə çevrilir: “görüş qışdan sonra gələn bahardır”,

“görən hara gedir bu millət, Allah”, “yeklər cövlan edir şeş xanəsində.”, “şeytan başqa, mələk başqa”, “torpaqdan pay olmaz”, “zaman ömrü əridər”, “gül başqadır, çiçək başqa”, hikmət, ibrətamiz nəticələr, məğz və məna Vahabzadə şeiriyyətini səciyyələndirən əsas amillərdir. Bu hikmətləri yazarkən şair hələ gənc idi... məhz həmin zamanlarda görkəmli tənqidçi Mehdi Hüseyn bu fəlsəfəni həyatdan doğan, sağlam fəlsəfə adlandırmışdı. (4. 74) Şairin yaşlı vaxtına aid şeirləri də onun gənclik illərindən qoruyub saxladığı səmimi, təmiz deyə insana həsr edilmiş qiymətli hisslərinin ifadəsidir. Hüseyn Mehdi şairin poeziyada çətin bir yol sayılan psixoloji təsvir və təhlil yolu ilə getdiyini göstərir və “Bəxtiyar Vahabzadə insan psixologiyasının dərindən-dərinə açanda oxucu burada zərərli meyl olan “fəsəfəçilik”lə deyil, şairin həyat haqqında sağlam mühakimələrinin xoş təsirli nəticələri ilə qarşılaşır. Müəllif həyat və hadisələr haqqında aforizmlər işlədərkən də biz onları sonradan əsərə əlavə edilmiş parçalar kimi yox, hadisələr haqqında poetik mülahizə və mühakimələr kimi oxuyuruq. Bəxtiyar Vahabzadə dilində, ifadə tərzində də bir axıcılıq, lirizm və ahəngdarlıq görürük” (5.19). Bəxtiyar Vahabzadə şeirlərində mövzular aləminin təbiiliyi, tipikliyi, hissi-idraki təsir gücü, səmimilik, mədəni əxlaqi dəyərlərin təbliği şairin qayəsini, amalını əks edir. Belə olan halda - şair üçün müqəddəs nədir, nələrdir? – dedikdə tərəddüdsüz olaraq göz önünə ana, ana dili, Vətən, xalq, ana torpaq, sevgi dünyası sandığı türk elləri, insanlıq, ləyaqət... gəlir, bəli, bunlar həm də onun mövzularıdır. Ümid, arzu, mənəvi-əxlaqi sınaqlar, daxili təlatümlü dünya, əsrin adamı, zəmanənin şəxsiyyəti, müşahidənin miqyası, sevilmək, var olmaq eşqi... bunlar da – hamısı mövzudur. Mövzu həyatdan gəlir və ya belə demiş olsaq, mövzunu həyat diqtə edir:

Qatil gülləsinə qurban gedirkən gözünü sabaha dikdi şəhidlər.

Üç rəngli bayrağı öz qanlarıyla Vətən göylərinə çəkdi şəhidlər.

Poema 90-cı ilin ilk günlərində yazılmış və çap olunmuşdu. Baxın bu düşüncə tərzi saxta kommunist ideyalarının hələ nəfəsini alıb verdiyi bir zamanda meydana çıxmışdı. Demək ki, mövzunu “köhnəlməyə” qoymayan şairin əlüstü reaksiyası onun vətəndaş mövqeyini göstərir. Şairin öz millətinin bu “təzə” faciəsinə “qəfil güllə”, “qurban getmə”, “gözünü sabaha dikmək”, “bayraq çəkmək” kimi bircə bənddən götürə bildiyimiz ifadələri isə qədim söz yadigarlarıdır. Bu ürəkdə kök salan bir ağrıdır, təkcə bir adamın dilində yox, millətin dilində ağıdır... poemadakı rəngarəng nitq detalları: söz, məcaz, müqayisələr – hamısı bunu deyir. Bəxtiyar Vahabzadə təbiətdən, mənzərədən, onun təsvirindən çox hal-vəziyyət, insanın arzusu, qəlb həyəcanları ilə maraqlanır. İnsan dağ kimi əzəmətli, qaya kimi möhkəm, axar su kimi yumşaq, həlim, yaxud qış kimi sərt, düşüncəli, payız tək tutqun, yaz kimi şən, nikbin...təbiət mənzərələrini seyr edər kimi olursan; amma sözlə cızılmış mənzərələr sanki daha mənalı... Bəxtiyar Vahabzadə müəllim idi, müəllimliklə məşğul olurdu; həyata müəllim kimi baxırdı. Bu təcrübə sanki həyat haqqında, cəmiyyət, təbiət haqqında təsəvvürlərin genişləndirilməsinə, dərinləşdirilməsinə kömək etməyə sərf olunurdu. Bununla insani həyat təcrübəsi, ovqat, ənənəyə sadiqliyi, daim önəm verdiyi adətlər, müddəalar...mənəvi-ruhi dəyərlər misralara köçürülür, daha bundan sonrası isə göz önündə vərəqlənir, yaddaşlara yazılır. Şeirlərin ruhuna hopmuş hikmətlər, xalq ifadələri, aforizmlər-deyimlər, emosional məcazlar, fikir-obrazlar, qanadlı ifadələr dərin həyat müşahidələrinin, ixtiyar bir dünyagörüşün (bu mənada şairin gənclik və ahıl çağlarının şeirlərini ayırmaq olmur) məhsuludur.

Ömrün payızında sevdim, sevildim,

Elə bilirəm ki, ilk baharam mən.

Arxanca sürünən kölgənəm sənin,

Harda qərar tutsan, orda varam mən.

B.Vahabzadədə bizim ulu babalarımıza xas olan həyat hadisələrini mənalandırma qüdrəti, kiçicik həyat epizodlarını belə ümumiləşdirmə qabiliyyəti güclüdür. Məhz bu qabiliyyətin gücü ilə ayrı-ayrı sözlər, adi ifadələr hikmətli ifadələrə çevrilir; şair özü, müəllif isə, simvolik mənada haqq-ədalət obrazında görünür: *“gah göyə yüksəlir, gah enir insan”, “görüş qışdan sonra gələn bahardır”, “yeklər cövlan edir şeş xanəsində.”, “bir salama dəyməyən eşqə ölüm yaraşır”; “çox əyilən görmüşəm əyilməyən başları”; ”öz hissini dustaq eləyən bəxtiyar olmaz”; “şeytan başqa, mələk başqa”*... kimi mənəvi varlığı dolğun əks edən

ifadələr məsəllərdən, atalar sözlərimizdən seçilmir. Onların vasitəsilə də dərhal etnoqrafik cizgilər, xətlər aydınlaşır.

Bir qələm əsrlik hicran yaratdı,

Bir xalqı yarıya böldü qılınc tək.

Öz sivri ucuyla bu lələk qələm,

Dəldi sinəsini Azərbaycanın.

Burada diqqəti əsasən "qılınc" və "qələm" sözləri cəlb edir; adi situativ məqamda bunlar əks sözlərdir, hər zaman zidd tərəflərin, xarakterlərin və keyfiyyətlərin daha da kəskin şəkildə ifadəsinə yardım edir. Bəs burada? Burada isə bu lüğəvi vahidlər daha çox sinonimik məqamda çıxış edir. "Gülüstan" poemasından aldığımız bu nümunədə qələm qılıncdan da müdhiş yaralar açır: qılınc (xalqı) yarıya böldüsə də qələm – hər zaman ünsiyyətə, insani münasibətlərə vasitəçi, "istəklərin, gizli dərdlərin tərcümanı olan" qələm isə Azərbaycanın köksünü dəlir, xəncərin başlatdığı işi tamamlayır. Şair qələmin xəncərdən artıq gücə malik olduğu fikrini, əgər təbiri caizsə, xalqdan əxz etmişdi. Ümumxalq nitqində qələm barədə: "qələmi qırılsın", qələm belə yazmış", "qələm çalmaq","qələm düşmən əlində", "yazıya pozu yoxdur" və s. inanclar və hökmlər bu fikri təsdiqləyir. Bəxtiyar Vahabzadənin bütün ədəbi təcrübəsinin çıxış nöqtəsini təşkil edən canlı müşahidələr və müşahidələrə dayanan təhlillər nəticəsində bizi əhatə edən aləmdəki fərqlər böyüyür, zidddiyyətə, əksliklərə çevrilir, uçurum dərinləşir. Mənaca zidd sözlər buna kömək edir: *O qədər yaxın ikən, bu qədər uzaq oldun.* (yaxın-uzaq sözləri ilə zidd qütblər, münasibətin əks üzü) *Kimimiz bal içər, kimimiz zəhər; Xəyal gah dağdadır gah da aranda Gah göyə yüksəlir, gah enir insan; Həyat səni güldürəndə gülmüsən, hünərin var ağladanda gül görüm* Şairin əsərlərində əks mənalı sözlər mətnin bədii-estetik təsir gücünü artıran leksik vahid olaraq ciddi rola malikdir. Çünki bununla sənətkarın həm öz təhkiyə dilinə, həm də personajların nitqinə canlılıq gətirir, emosional təsir, qüvvətli kontrastlar yaradır, əşya və hadisələri daha inandırıcı, obrazlı, təsirli əks etdirir, müxtəlif anlayışların bir-birlərinə əks, əlamətlərini qarşı-qarşıya qoyur. Antonim sözlər şairin təsvir və fikirlərində aydınlıq yaradan dil vahidləri kimi də qiymətlidir. Şair onların vasitəsilə rəngarəng məna incəlikləri yaratmaqla əsərlərin ideya məzmununun açılmasına, obrazların hərtərəfli səciyyələndirilməsinə, konfliktlərin düzgün ifadəsinə müvəffəq olur. Müəllif başqa hallarda olduğu kimi, "antonimləri obrazların vəziyyəti və hadisələrin səciyyəsi ilə bağlı şəkildə, məqsədə müvafiq tərzdə işlədir.(6.s. 29)

..."Bu günün fəlsəfəsini yaratmaq cəhdi"(3,202) dünyanın dünya boyda əksliyini görmək, dərk etmək, onu mənalandırmağa gətirir. Məhz çağin, zamanın nəbzi onun anlayanın barmaqları altında daha tez duyular...

Bu əsərlər bəs necə yaranmışdı, birdən-birəmi? Yox, şairin "göydəndüşmə" heç nəyi yoxdur. Vahabzadə qorxmamış, Gülüstan" yazmış, "Ana dili"ni yazmış. Yenə də yazmış... Şair qorxularla üz-üzə dayanmış, 37-ni dadmasa da repressiya dalğalarının müharibədən sonrakı illərdə qopardığı firtınaların şahidi olmuşdu. Xəyanət etməmişdi, gəncikən bu xofu yaşamışdı, şər-böhtan onu da qorxutmuşdu, amma uzaq saxlamışdı onu hər bəladan. Lakin həddindən artıq olan bu müşahidələr həyatın ümumi inkişaf qanunlarını, fəlsəfəsini təhlil etmə bəzən yanlış yola da gətirib çıxarar, nəticədə soyuq nəsihətlər, aqilanə olmadan artıq saxta, həm də qulaq yoran fəlsəfəçilik meydana çıxır . Bəxtiyar Vahabzadə poeziyasında poetik sistemlilik mövcuddur. Məhz bu səbəbdəndir ki, "onun lirik şeirlərinin əksəriyyətində və poemalarında folklor fəlsəfəsi bu günün fəlsəfəsinə çevrilə bilir; xalq müdrikliyi zəmanəmizin idraki-qnesioloji məzmununu əks etdirməyə ustalıqla, poetik üslubi sənətkarlıqla yönəldilir (3.202) *Əgər olmasaydı, dəryaca dərdim, Dərdin yoxluğunu mən dərd edərdim... Şam əgər yanmırsa, yaşamır demək, Onun yaşaması yanmağındadır.* Demək ki, mənzərə yaradan misralar, əslində gerçək aləmin poetik ifadəsi sadədir, sadə olmalıdır. Və "*bircə ondan razıyam ki, özümdən narazıyam*" yaxşı yadımdadır, bu bizim gəncliyin hər gün təkrar etdiyi bir hikmətamiz söz idi. Saf duyğu və düşüncələr, hikmət və aqillik, tərəfsiz səmimi yozum; bir sözünə mini, milyonu şərik edən ürək ... təfəkkür... Şeirlərində insan sevgisi, həmrəylik duyğusu, vətəndaşlıq məsuliyyətinə çağırış məzmunu bədii

mühakimənin gücü, poetik fəlsəfi ümumiləşdirmələr yolu ilə fikrin konkret ifadə tərzinə nail olmaq nəticəsində öz ifadəsini tapa bilir:

Sənin güvəndiyin dünya əzəldən

Əkilən, biçilən zəmi deyilmi?

Yaxud,Yalan hakim olub, böhtan gözətçi,

Çürüyür zindanda həqiqət, Allah.

Və ya

Bir-birinə bənzəsə də,

Ətri də xoş, rəngi də xoş

Gül başqadır, çiçək başqa.

Haqqın yolu-öz yolumdur,

Əyilməyən düz yolumdur.

Xeyirlə şər sağ - solumdur

Şeytan başqa, mələk başqa.

İnsanı tez yorar düşüncələr də,

Verib nəfəsini dərd udar insan.

Özündən başqası olmayan yerdə,

İnsan olduğunu unudar insan...

Şeir könül məlhəmidir demişlər... Burada danışan dil deyil, könüldür susmayan.... nümunələrdə məhz adidən adi sözün, fəqət öz sehri ilə hər bir sətri, misranı necə formalaşdırdığını görürük. Həyatın fikri, bədii və poetik dərki qanadlı fikirlər, qanadlı ifadələr doğururmuş... Şair öz fikir hüdudsuzluğunu, duyğu-düşüncə dünyasının sonsuzluğunu:

Fikrin qanadları da azaddır,

Sərhədi yox,

Səma kimi həddi yox, - deyə dəyərləndirir.

Ustadın ayrıca "qəzəbim sel kimi aşıb daşsa da", "şığımaq istəyirəm başsız küləklər kimi", "səpilmək istəyirəm çöllərə lalələr kimi", "açıq qəlbim kimi qapım-pəncərəm", "dəniztək qovrular, göltək çalxanar", "od kimi istiqanlı, sel tək dəliqanlıyam" qəbilindən olan bu bənzətmələri – bədii təyinləri kiçik çeşmələr tək qaynayır, coşaraq böyük və güclü türk dilinin və türk şeiriyyətinin nəhəng nəhrinə çevrilir.

Şairin poetik nitqinin uğurlu bəhrələri sayılacaq və bizim onun hər biri bir həyat hekayəsi, həyat fəlsəfəsi sayılacaq şeirlərindən örnək aldığımız qüvvətli məcazlar, qanadlı ifadələr: *"tarixdən qədimdir", "zamandan qoca", qaytar tariximin qızıl çağını", "vicdan şahidliyi", "küçələr işıqlı, könüllər qara"; "özümdən narazıyam","ömürdən hədiyyə", "mənfəət meydanı", "vicdan güzgüsü"; "vicdan şahidliyi"; "könüllü dustaq", ;"sözün yükü","könül gözü"; "həyat qədər qədiməm","ömrün fəsilləri"və* qəlb həyəcanlarını ifadə edən və oxucuda təbədüllatlar, ruhi emosiyalar doğuran ritorik suallar və hökmlər: *"hardadır səadət?"; "görən hara gedir bu millət?", "yadlarmı edəcək bu xalqa imdad?"; "zənciri kim vurdu şir biləyinə?"; "məzlumuq ya zalımıq biz?"; "ağıl namərd olar, ürək mərd olar"; "bir salama dəyməyən eşqə ölüm yaraşır"; "özümüzə zalım ikən, başqasına məzlumuq biz"; "ləyaqət, mətanət sıxıldı küncə"; "əbədini dünyada mən əbədi sanmadım"; "axı dünya fırlanır"; "yoxuşu düz yol bilmişik"; "biz yalanı körükləyib həqiqəti çıxdaş etdik", "ümidə heykəl qoyun"* və bu kimi söz örnəkləri həyat

mənzərələrini mahiranə şəkildə nəqş etməklə bərabər ana dilimizin söz xəzinəsini də zənginləşdirməkdədir.

**NƏTİCƏ**

Azərbaycan xalqı öz şair oğlunu təbliğ etdiyi böyük ideallara görə, azadlıq ideallarına görə sevdi, bir də bəsləyib heç zaman itirmədiyi səmimiyyətinə görə sevdi, onun dəvət etdiyi mübarizəyə, şeirlərinin işığı ilə açdığı yola, onun şair əqidəsinə, vicdan səsinə inandı.

Bu gün də, dünən olduğu kimi Bəxtiyar Vahabzadənin əsərləri masaüstü kitab olub əllərdən düşmür. İnanırıq ki, bu hər zaman belə olacaqdır. Çünki əsil şair ömrü çismani deyil, onun hafizələrdə və xatirələrdə yaşayan ömrüdür.

**QAYNAQÇA**

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri (2 cilddə), Bakı. Öndər nəşriyyatı, 2004

2. Bəxtiyar Vahabzadə. Açılan səhərə salam, Şeirlər və poemalar, B., Yazıçı, 1979

3.Həsənov Rüstəm. Bəxtiyar Vahabzadə poeziyasının sənətkarlıq məsələləri,- Dil və Ədəbiyat. Beynəlxalq elmi-nəzəri jurnal, Bakı, 2012,(73), s.202-204

4. Hüseyn Mehdi. Ədəbiyyat və sənət məsələləri, Bakı, Azərnəşr, 1958

5. Hüseyn Mehdi.. Sənətkar həyatdan güc alır, "Azərbaycan" jurnalı, 1963, № 3, s. 3-22

6. Səbinə Alməmmədova. Bəxtiyar Vahabzadə poeziyasının dili, Bakı, 2010

# BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA ANA DİLİMİZİN MÖVQEYİ

THE POSITION OF OUR NATIVE LANGUAGE IN THE WORKS OF BAKHTIYAR VAHABZADE

ПОЗИЦИЯ РОДНОГО ЯЗЫКА В ТВОРЧЕСТВЕ БАХТИЯРА ВАГАБЗАДЕ

***Gülarə Abdurahman qızı Abdullayeva***

*ADPU-nun Şəki filialında tədris işləri üzrə direktor müavini, fil.ü.f.d., dosent*

**Açar sözlər:** məcazi məna, mübaliğə, kiçiltmələr, obrazlılıq, qoşa sözlər, paralel sözlər, antonimlər, sinonimlər.

**Keywords:** figurative meaning, exaggeration, abbreviations, figurativeness, double words, parallel words, antonyms, synonyms.

**Ключевые слова:** переносное значение, преувеличение, преуменьшение, образность, парные слова, паралельные слова, антонимы, синонимы.

## ABSTRACT

Bakhtiyar Vahabzadeh not only created valuable literary works, but also played an exceptional role in bringing Azerbaijan language to its current level. We see the position of a citizen who does his best for the development of this language in the works and. Throughout his career, the poet instills in the reader this love, this spiritual greatness.

The poems of Bakhtiyar Vahabzadeh, who used the opportunities of his native Azerbaijan language to the maximum level in his works attract attention with their richness of language, originality of style and colorfulness of expression. The main features of Bakhtiyar Vahabzadeh's poetry are his skillful use of means of artistic description and expression, rich system of metaphors, parallels, synonyms, antonyms, examples of folklore, proverbs and parables.

The language of B.Vahabzadeh's poems attracts attention in terms of word and creative expression.

The poet used proverbs and parables, which are closely connected with our folklore, on the one hand, as a suitable tool for the artistic description of his thought, on the other hand, he skillfully used the idea expressed in them in an artistic way.

Figurative metaphors, emotional exaggeration, and humiliation attract attention in his poems as a means of artistic expression.

## РЕЗЮМЕ

В своих работах Бахтияр Вахабзаде максимально использовал возможности родного языка, его стихи привлекают внимание богатством языка, оригинальностью стиля, красочностью выражения.

Будучи прочно связанный с нашим фольклором, поэт с одной стороны использовал пословицы и притчы, как подходящее средство для художественного описания своей мысли, с другой стороны, он мастерски смог художественно изобразить выраженную в них идею.

Одной из главных черт поэзии Бахтияра Вахабзаде является умелое использование средств художественного описания и выражения, богатая система переносных значений, парцеляции,

синонимов, антонимов, образцов фольклора, пословиц и притчей, способов художественной росписи.

Язык стихов Б.Вахабзаде привлекает к себе внимание и словесно-выразительным творчеством.

Бахтияр Вахабзаде, создавая бесценные литературные образцы, сыграл исключительную роль в достижении современного уровня нашего языка.

Этот гражданин, на протяжении всего своего творчества, прививает читателю духовное величие этой любви.

В творчестве писателя мы видим позицию гражданина, который прилагал всевозможные усилия для развития языка.

Образные метафоры, эмоциональное преувеличение и преуменьшение -привлекает внимание как средство художественности в его стихах.

Azərbaycan xalqı əsrlər boyu bəşər mədəniyyəti xəzinəsinə ölməz incilər, tanınmış simalar, görkəmli şəxsiyyətlər bəxş etmişdir. Nizami dühası, Nəsimi fəlsəfəsi, Füzuli sevgisi ilə süslənən yaradıcılıq nümunələri bu gün də öz müasirliyini, bədii təravətini saxlamaqda, oxucuları heyrətləndirməkdədir. Adlarını həmişə böyük ehtiramla xatırladığımız və daim uca tutacağımız belə qüdrətli söz ustalarından biri də Azərbaycanın xalq şairi, bütün türk dünyasının azman sənətkarı Bəxtiyar Vahabzadədir. Tanınmış filosof-şair Bəxtiyar Vahabzadə sənət aləminə gəlişi ilə öz xalqını, onun milli-mənəvi sərvətlərini, tarixini, dilini sevən və varlığı, inkişafı, müstəqilliyi, azadlığı uğrunda bir an belə yorulmadan mübarizə aparan əsl vatandaş-şair nümunəsini yaratdı.

Şair – fikirlərin çırpınan seli,

Şair – həqiqətin müğənnisidir.

Şair – təbiətin danışan dili,

Şair – cəmiyyətin üsyan səsidir.

Şair – zəmanənin, əsrin vicdanı,

Şair – tarixlərin şərəfi, şanı,

Şair - bu dünyaya zamanın sözü.

Şair – həqiqətin, haqqın güzgüsü. [10, 367] – deyən ədib şifahi və yazılı ədəbiyyatımızın ən parlaq nümunələrindən öyrənərək daim axtarışda oldu, öz poetik təfəkkürünün gücünə söykənərək həyat hadisələrinə münasibətdə orijinallığı ilə fərqləndi. Bəxtiyar Vahabzadənin yaradıcılığı həm mövzu, həm də mündəricə etibarı ilə zəngin və əhatəlidir. Onun sənatkar qələmində adidə qeyri-adini, sadədə böyüklüyü göstərmək, damlada ümman yaratmaq qüdrətinə heyran olmamaq mümkün deyil. Elə buna görə də Bəxtiyar Vahabzadə poeziyası zaman-zaman sərhədlər aşdı, dünyanı dolaşdı, onun haqqında ən yüksək fikirlər söyləndi. Qeyd etmək yerinə düşər ki, Ümummilli Liderimiz Heydər Əliyev də Bəxtiyar Vahabzadənin yaradıcılığına xüsusi diqqət göstərmis, haqqında həmişə yüksək fikirlər söyləmişdir.

XX əsr Azərbaycan ədəbiyyatının zirvəsində dayanan şair, publisist, dramaturq, ədəbiyyatşünas Bəxtiyar Vahabzadə əvəzsiz ədəbi nümunələr yaratmaqla bərabər, dilimizin hazırkı səviyyəyə çatmasında da müstəsna rol oynamışdır. Ayrı-ayrı dövrlərdə dilin inkişafı, onun lüğət ehtiyatının zənginləşməsi həmin dövrdə yaşayıb-yaradan ədiblərin, şair və yazıçıların adı ilə bilavasitə bağlıdır. Nəsimi, M.Füzuli, Ş.İ.Xətayi, M.P.Vaqifin yaşadıqları əsrin ədəbi dilinin inkişafında çəkdikləri yük XX əsrdə S.Vurğundan sonra B.Vahabzadənin çiyinlərinə düşmüşdür.

Mənim ana dilim – mənim kimliyim,

Pasportum, özümə öz hakimliyim!

Mənim mənliyimin füsunkarlığı,

Danışan kamalı,ağlıdır dilim.

Millətin varlığı, xalqın varlığı

Sənin varlığına bağlıdır, dilim! – deyərək, ana dilini xalqın varlığı üçün əsas şərt hesab edən sənətkarı yaşadığı dövr, zaman-zaman xalqımızın başına gətirilən müsibətlər, dilimizin sıxışdırılması, "daxmalarda dustaq olması" həmişə narahat edən ən böyük məsələ olmuş, buna görə də o, hər şeydən əvvəl, bu dilin inkişafı naminə əməli faaliyyət göstərmişdir. B.Vahabzadənin yaradıcılığında ana dilimizin mövqeyi, əsərlərinin dil xüsusiyyətlərindən danışmazdan əvvəl onun dilə münasibəti, ana dilimiz haqqında düşüncələrinə toxunmaq vacib məsələlərdəndir. Ümumiyyətlə, ana dili məsələsi "Öz yurdunun, ana dilinin divanəsi" olan Bəxtiyar Vahabzadə yaradıcılığının ana xəttini təşkil etməklə bərabər, iki istiqamətdə özünü göstərir. Birinci növbədə, ədibin həm publisistik məqalələrində, həm də şeirlərində bu dili bütün varlığı ilə sevən, onun gələcəyi üçün narahat olan, inkişafi uğrunda əlindən gələni əsirgəməyən bir vətən oğlunu görürük. Ədibin fikrincə, şair ilk növbədə əsl vətəndaş olmalı, torpağı, milləti üçün hər əzaba qatlaşmalı, onun sevincinə, kədərinə şərik olmalıdır. B.Vahabzadə yaradıcılığına üz tutan şəxs hər kəlmənin, hər sözün arxasında vətənini, millətini dəlicəsinə sevən, dilinə, torpağına qırılmaz tellərlə bağlı olan, "xalqıyla sevinən, xalqıyla gülən" bir vətəndaşı görür. Həmin vətəndaş bütün yaradıcılığı boyu oxucusuna bu sevgini, bu böyüklüyü, bu mənəvi ucalığı təlqin edir. B.Vahabzadə yaradıcılığı sanki oxucusuna bu mənəvi kamilliyə gedən yolda bələdçilik edir. Bu müqəddəs missiyanı həyata keçirən ədib ilk növbədə ulu babalarımızdan bizə miras qalmış, ən qiymətli xəzinə olan ana dilimizi qorumağı, onu gələcək nəsillərə ötürməyi özünə və başqalarına müqəddəs borc hesab edir:

Bu dil — bizim ruhumuz, eşqimiz, canımızdır,

Bu dil — bir-birimizlə əhdi-peymanımızdır.

Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,

Bu dil - əcdadımızın bizə qoyub getdıyi

Ən qiymətli mirasdır, onu gözlərimiztək

Qoruyub nəsillərə biz də hədiyyə verək. [10, 416] - deyir.

Şair əsərlərinin birində uzun illər sovet imperiyasının əsarətinə məruz qalan, milləti var olduğu halda, özü daxmalarda dustaq olan ana dılimizi, olmayan millətin yaşayan dili ilə - latın dili ilə müqayisə edir və onu narahat edən bir sualla: "Hansı dilə ölü deyə bilərik?" sualı ilə oxucunu baş-başa buraxır. Şair bu dilin azadlığı, müstəqilliyi uğrunda bütün ömrü boyu mübarizə aparır və bu mübariz ruh onun hər misrasından boylanır, hər kəlməsində tariximizin dəhşətli məqamları öz əksini tapır:

Ey bu günü dilim-dilim

Parçalanan ana dilim,

Sinəsində od qalanan ana dilim.

Qapıların arxasında

Boynubükük qalan dilim.

Var ikən yox olan dilim,

Ayaqlarda kilim dilim,

Savaşlarda bir qəhrəman,

Barışlarda həlim dilim. [10, 408]

Ana dili məsələsi onun yaradıcılığının daimi mövzularındandır. Dili xalqın mənəvi dünyası hesab edən B.Vahabzadə "Dil yoxsa, millət də yoxdur!" fikrini bütün yaradıcılığı boyu bayraq etmiş, ana dilinə ögey münasibətin əslində özümüzə - milli varlığımıza ögey münasibət olduğunu vurğulamışdır.

Anasının dilində dil açmayan kəs

Millətin dərdini anlaya bilməz.

Şeirlərində bu məsələyə toxunmaqla yanaşı, “Ana dilim – ana kököm!”,”Ana dili”, “Dil haqqında sorğu”,”Dil və əlifba”, “Bir daha ana dilimiz haqqında”,”Dildə təbiilik və gözəllik” və s. kimi məqalələrlə də qəzet və jurnallarda çıxış etmiş, dilimizi yüksək qiymətləndirmiş, ədəbi dilimizi bədii təsvir və ifadə vasitələri ilə zənginləşdirmişdir.

O, bütün yaradıcılığı boyu xalqa yaxın olmuş, onun düşüncə tərzı, poetik təfəkkürü, dilindən faydalanmışdır. Bunun nəticəsidir ki, onun əsərlərində xalq ruhu, xalq dili özünün parlaq ifadəsini tapmışdır.

Mən bu dildə hiss etmişəm

Həm sevinci, həm də qəmi,

Bu dil ilə yaratmışam

Hər şeirimi, hər nəğməmi. [5, 72]

Ikinci bir tərəfdən, Bəxtiyar Vahabzadə öz əsərlərində ana dilimizin imkanlarından maksimum səviyyədə istifadə etməyi bacaran, sözdən al-əlvan çələng hörən sənətkarlardandır. Dərin psixologizmi, incə lirikası, kəskin ictimai məzmunu, həyat hadisələrinə fəlsəfi yanaşma tərzi ilə seçilən Bəxtiyar Vahabzadə yaradıcılığı həm də özünün dil zənginliyi, üslub orijinallığı, ifadə əlvanlığı ilə diqqəti cəlb edir. Şairin poetik dili bir tərəfdən özünəqədərki ədəbi-bədii dildən, digər tərəfdən isə xalq danışıq dilindən, zəngin folklor qaynaqlarından bəhrələnmişdir. Bəxtiyar Vahabzadə yaradıcılığı ulu babalarımızdan bizədək uzun bir yol keçən folklorumuzun üzərində köklənmiş, Şərq ədəbiyyatından qidalanmış, S.Vurğun bulağından su içmişdir. Bədii təsvir və ifadə vasitələri, zəngin məcazlar sistemi, parselyasiyalar, sinonim, antonimlərdən, folklor nümunələrindən, atalar sözləri və məsəllərdən bədii boyalama yolu ilə məharətlə istifadə Bəxtiyar Vahabzadə poeziyasinin əsas xüsusiyyətlərindəndir.

B.Vahabzada poeziyası həqiqi sənət əsəri olub, dilin bütün leksik və frazeoloji qatlarına nüfuz edir. Onun poeziyasının böyüklüyü fikir və düşüncələrinin necə ifadə olunmasında, bəzən ildırım kimi parlaq işıq saçan, bəzən də kaman kimi həzin və kövrək duyğular yaradan dilindədir. Elə B.Vahabzadə poeziyasının qüdrətinin sirri onun ana dilinin bütün imkanlarından, incəliklərindən bacarıqla istifadə edəbilmə məharətindədir. Şairin özünəməxsus ifadə tərzi, təsvir üsulu vardır. Şeirlərinin dili söz və ifadə yaradıcılığı etibarı ilə də diqqəti özünə cəlb edir. Dilindəki canlılıq, güclü lirizm, fikrin yığcam, qısa, təsirli bir dil ilə ifadəsi oxucunu istər-istəməz özünə cəlb edir, onu düşündürür, ilk misralardan öz arxasınca çəkib aparır.

Cavanlıqda əllər uzun, dillər qısa,

Qocalıqda dillər uzun, əllər qısa.

Cavanlıqda günlər qısa, illər uzun,

Qocalıqda günlər uzun, illər qısa. [10, 317]

- misraları başdan-başa həyatımızın fəlsəfəsi deyilmi? İnsan ömrünün iki dövrü va onların paradoksal müqayisəsi. Cavanlıq və qocalıq, günlər və illər, əllər və dillər, uzun və qısa. Fikrin ifadəsi üçün müəllif yalnız bu paralel sözlərdən istifadə etmişdir. Lakin sözlər az olsa da, fikrin dərinliyi, genişliyi, nəhayət, mənanın dərinliyi oxucunu özünə cəlb edir. Sonda insan misraların təsiri altında düşünür: "Deməli, cavanlıqda gücünə çox da güvənmə, əbədi deyil. Deməli, cavanlıqda ömrü mənalı keçir, gedən ömür bir də geri qayıtmayacaq. Deməli, elə yaşamalısan ki, çevrilib arxada qalan ömür yoluna baxanda təəssüflənməyəsən". Elə Bəxtiyar Vahabzadə yaradıcılığının gücü də dərin mənaları az sözlə, ustalıqla ifadə edərək oxucusuna təlqin etmə gücündədir.

Folklorumuza möhkəm tellərlə bağlı olan şair atalar sözləri və məsəllərdən bir tərəfdən, öz fikrinin bədii təsviri üçün tutarlı vasitə kimi istifadə etmiş, digər tərəfdən, onlarda ifadə olunan fikri bədii şəkildə məharətlə boyamışdır. Məsələn, "Bağa çanağından çıxdı, çanağını bəyənmədi" atalar sözü:

Sərçə uçdu budağından,

Budağını bəyənmədi,

Bağa çıxdı çanağından,

Çanağını bəyənmədi, ö10, 392ğ - formasında,

"Zər qədrini zərgər bilər" atalar sözü:

Sapı dərziyə ver, zəri zərgərə,

Qiymətdə su hara, simuzər hara! [10, 406] - formasında, "Tək əldən səs çıxmaz" atalar sözü:

Od vurmasa, qabda su daşa bilməz,

Quş da tək qanadla dağ aşa bilməz.

Kösöyün ikisi çöldə də yanar,

Biri ocaqda da alışa bilməz.[10, 442] – şəklində, "Ot kökü üstdə bitər" atalar sözü;

Ağaclar kök üstdə qalxır, yüksəlir,

Meyvənin şirəsi rişədən gəlir,[10, 456] - kimi, "Artıq tamah daş yarar, daş qayıdıb baş yarar" - atalar sözü;

Bilmədik tamahın min bəlası var,

Tamah girən evdən səadət qaçar, - misraları ilə, "Taylı tayını tapmasa, günü ah-vayla keçər" - atalar sözü:

Yel əsər, ağaca ağac sürtüşər,

Meşədə başlanar yanğin o anda.

Ürək də odlanar, gözə yaş düşər,

Evdə də zövqlər bir olmayanda – kimi oxucuya təqdim edilir, bəzən də atalar sözləri yeni məzmunda öz ifadəsini tapır:

Kor kora kor desə, bu, keçib gedər,

Gözlüyə kor deyən kor, daha dəhşət. [10,334]

Nağıl dedim yalançının sözünə,

Söz yalansa, buna nağıl neyləsin?

Bu dünyada fəsil dörddür, ağıl bir,

Yazla qışa bircə ağıl neyləsin? [10,400]

Şairin yaradıcılığında fikri antonimlərlə *(gənclik//qocalıq, sevinc//kədər, eniş//yoxuş, işıq//zülmət, bahar/qış, dolu//boş, vüsal//həsrət, gəliş//gediş, qorxu//cəsarət, yalan//gerçək, dağ//dərə, dost//düşmən, gəlsən//getsən, toy//yas, doğum//ölüm)* qoşa sözlərlə, həmcins va ya sinonim söz və ifadələrlə *(söz//söhbət, yurd//məskən, el//oba, şübhə//şəkk, sel//su, dərd//ələm, məqsəd//məram)* qollu-qanadlı ifadə etmək bir üslubi keyfiyyət kimi özünü göstərir. Obrazlı məcazlar *("Vaxtın dəyirmanında daş əridi qum oldu", "Bulaqlar dağlarda ağlamasaydı, Qəhqəhə çəkməzdi dərədə sellər", "Həsrət ürəyimdə qaladan möhkəm")*, emosional mübaliğə *("Şairçün boş ürək tonlardan ağır", "Göydəki buludlar insan ahıdır", "Əgər olmasaydı dəryaca dərdim, Dərdin yoxluğunu mən dərd edərdim")* va kiçiltmələr *("Bizim sənət dünyasının qırıq telli sazıyam, Bircə ondan razıyam ki, özümdən narazıyam")* onun şeirlərində bədiiləşdirmə vasitəsi kimi diqqəti cəlb edir. Antonimlər şairin yaradıcılığında məharətlə istifadə olunan vasitələrdəndir. Antonim sözlər həyatın

müxtəlif sahələrində mövcud olan təzadların nəzərə çatdırılmasında, obrazların daxili aləminin bədii şəkildə ifadə olunmasında mühüm rol oynayır:

Gəl qışa "zəhrimar", yaza "can" demə,

Qışın dəhşətləri yaz içindədir.

Enişdə yoxuş var, yoxuşda eniş,

Ən böyük atəş də buz içindədir.

Yüz təpə boyu var bir uca dağda,

Yaxından yaxındır bəzən uzaq da.

Nifrət də, sevgi də, qara da, ağ da,

İşıq da, zülmət də göz içindədir. [8, 43];

Hər kədəri səadət, hər sevinci qəm izlər. [10,481];

İşıqlı saraydan zülmət axanda

Qaranlıq daxmadan nur axdı ancaq. [8, 96]

Dilimizin lüğət tərkibində mövcud olan sinonim sözlərdən Bəxtiyar Vahabzadənin yaradıcılığında fikrin ifadə olunmasında əlverişli vasitə kimi istifadə olunur:

Atasını söyən, yada baş əyən,

Rəhbərlər görmüşəm, qəddar, amansız. [6, 96]

Tikana «gül» deyən, gülə «kol» deyən,

Qaralar görmüşəm, dinsiz, imansız. [7, 64]

Bəxtiyar Vahabzadənin yaradıcılığında ana dilimizin mövqeyi, əsərlərinin dil və üslub xüsusiyyətlərinin araşdırılması çox geniş bir tədqiqat mövzusudur. Müxtəlif dövrlərdə ayrı-ayrı alimlər Bəxtiyar Vahabzadənin yaradıcılığına müraciət etmiş, M.Məmmədov, 0.Ağayev, T.Hacıyev, Y.Qarayev, A.Məmmədov, N.Cəfərov və başqalarının əsərlərində şairin əsərlərinin dili ilə bağlı məsələlər əhatəli şəkildə öz əksini tapmış, onun yaradıcılığının dil va üslub xüsusiyyətləri təhlil edilmişdir. Lakin Bəxtiyar Vahabzadənin zəngin ədəbi-bədii irsi təkcə bu gün deyil, gələcək nəsillərin də dönə-dönə üz tutacağı çox qiymətli bir xəzinə olacaq, dilimizin istənilən sahəsi ilə bağlı araşdırmalar üçün əvəzsiz mənbə rolunu oynayacaqdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Adilov M. Klassik ədəbiyyatımızda dil va üslub. Bakı, “Maarif”, 1992.

2. Hacızadə N. Yaxşı ki, bu yurdumun Bəxtiyarı var. Bakı, "Yeni Azərbaycan", 2003,

1 iyun.

3. Qafarlı R. Dilimiz - ruhumuz, eşqimiz, cismimizdir. «525-ci qazet», Bakı, 2003,

8 noyabr.

4. Məmmədov M. B. Filoloji düşüncələr. Bakı, “Nurlan”, 2005.

5. Vahabzadə B. Açıq söhbət. Bakı, “Gənclik”, 1977.

6. Vahabzadə B. Seçilmiş əsərləri. I c., Bakı, “Yazıçı”, 1983.

7. Vahabzadə B. Seçilmiş əsərləri. II c., Bakı, “Yazıçı”, 1984.

8. Vahabzadə B. Nağıl-həyat. Bakı “Yazıçı”, 1991.
9. Vahabzadə B. Əsərləri. I c., Bakı, “Azərbaycan”, 2001.
10.Vahabzadə B. Əsərləri. VIII c., Bakı, "Elm", 2009.

# MİLLİLİKDƏN DÜNYƏVİLİYƏ YOL GEDƏN ŞAİR – BƏXTİYAR VAHABZADƏ

POET ON THE ROAD FROM NATIONALITY TO SECURITY – BAKHTIYAR VAHABZADE

***Aynur Qafarlı***

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*

*«Türk araşdırmaları» bölməsinin kiçik elmi işçisi*

**XÜLASƏ**

Bəxtiyar Vahabzadə XX əsr Azərbaycan ədəbiyyatı tarixində istiqlal şairi kimi tanınır. Ədəbiyyata bu yöndən yanaşanda onun həm özü və şəxsiyyəti, həm də yaradıcılığı tamamilə başqalarından fərqlənir. Mövzu baxımından da şairin yazıları rəngarəng və zəngindir. Ancaq ideyaca düz və bir xətlidir. Vətən və millət ideyasının bu xətdə şahdamar təşkil etməsi isə başlıca məqsəddir. Demək olar ki, B.Vahabzadə yaradıcılığının yetmiş-səksən faizi bu mövzulardadır. B.Vahabzadə Vətənini, millətini, ana dilini sevən, ona vurğun olan milli, hətta sözün əsl gerçək mənasında millətçi şairdir. Məncə, milli və millətçi olmaq heç də dünyəvilikdən uzaqlaşmaq, dünyaya qarşı çıxmaq deyil. Yalnız milli varlığını qorumaqla bəşəri dəyərlərə malik ola bilərsən. Bir sözlə, dünyəvilik milli olmaqdan keçir. Dünyəvilik milliliyin təməl daşları üzərində olanda daha yaxşı, gözəl və gerçək görünür. Ona görə də B.Vahabzadə yaradıcılığına nəzər yetirsək, onun həm yazdıqlarının, həm də özünün məhz bu cür göründüyünün şahidi oluruq. Beləliklə, buradan çıxan son nəticə də o olur ki, dahi şair nə qədər millidirsə, o qədər də dünyəvidir. B.Vahabzadə həm də şəxsiyyətdir. O, bir şəxsiyyət kimi də öz yaradıcılığını şəxsiyyətləndirən şairimizdir. Onun hansı mövzuda yazılmasından asılı olmayaraq bütün şeirlərində oradan bir şəxsiyyətin boylandığını görürük. Özü də elə-belə şəxsiyyət yox, məğrur və qürurlu, əyilməsi mümkün olmayan şəxsiyyət... Belə şəxsiyyəti olan xalq isə, əlbəttə, xoşbəxt xalqdır. Axı milləti irəli aparmaq, onun qamətini həmişə düz saxlamaq, dünya arenasında tanıtmaq, yüksək səviyyədə təmsil etmək həmişə B.Vahabzadə kimi şəxsiyyətlərin elə bil boyuna biçilmiş, bu şərəfli işin ağırlığı belə simaların çiyinləri üzərində durmuşdur. Bu cür simalar həm özləri, həm də yaradıcılıqları ilə mənsub olduqları milləti şərəfləndirir və ona şərəf gətirir. Birmənalı olaraq deyə bilərik ki, dahi şair B.Vahabzadə bu cərgədə olanların birincilərinin birincisidir. Elə bu baxımdan da biz bu böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına müraciət etmişik. Əlbəttə, onun ümumtəhsil məktəblərinin “Ədəbiyyat” dərsliyinə salınan şeirləri əsasında...

**Açar sözlər:** Bəxtiyar Vahabzadə, milli şair, vətəndaş, millət, şəhidlik, şəxsiyyət, yaradıcılıq.

**ABSTRACT**

Bakhtiyar Vahabzade is known in the history of XX century Azerbaijani literature as a poet of independence. When approaching literature from this point of view, both himself and his personality, as well as his creativity, are completely different from others. The poet's writings are colorful and rich in terms of subject matter. But the idea is straightforward and is a linear. The main goal is to form the main idea of the homeland and the nation in this line. It can be said that seventy to eighty percent of Vahabzadeh's work is on these topics. B.Vahabzadeh is a national poet, who loves his homeland, nation, mother tongue, and even a nationalist in the true sense of the word. In my opinion, to be national and nationalist is not to move away from secularism, to oppose the world. Because you can have human values by preserving your national identity. In short, secularism goes beyond being national. Secularism looks better, more beautiful and more real when it is on the cornerstones of nationality. Therefore, if we look at the work of B.Vahabzadeh, we witness both what he wrote and how he looked like. Thus, the end result is that the more national a genius poet is, the more secular he is. As mentioned above, B.Vahabzade is also a personality. He is a poet who personalizes his work as a person. Regardless of the subject on which it is written, we see that a personality

emerges from it in all his poems. He is not such a person, but a proud and arrogant person who cannot be bent…A nation with such a personality is, of course, a happy nation. After all, to lead the nation forward, to always keep its shape straight, to promote it in the world arena, to represent it at a high level is always cut on the necks of such personalities as B.Vahabzade, the weight of this honorable work rests on the shoulders of such faces. Such personalities honor and bring honor to the nation to which they belong, both by themselves and by their creativity. We can say unequivocally that the great poet B.Vahabzade is the first of those in this line. From this point of view, we appealed to the works of this great Azerbaijani poet Bakhtiyar Vahabzade. Of course, on the basis of his poems included in the literature textbook secondary schools ...

**Keywords:** Bakhtiyar Vahabzade, national poet, citizen, nation, martyrdom, identity, creativity.

Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatına N.Gəncəvi, M.Füzuli, İ.Nəsimi, M.F.Axundzadə, M.Cəlil, M.Ə.Sabir, H.Cavid, S.Vurğun və bu kimi digər simaları bəxş etmişdir. Bu simalar həm də dünya ədəbiyyatının bir hissəsi olan Şərq və eləcə də ümumtürk ədəbiyyatının böyük azman sənətkarlarıdır. Hərəsi bir dövrün başlanğıcı, onun hərəkətverici qüvvəsidir. Öz zamanının tarixi və o tarixi bütün gerçəkliyi ilə göstərən güzgüsüdür. Xalqımızın, Türk kimliyimizin göstəriciləri olan Nizamini, Füzulini, Mirzə Fətəlini, Mirzə Ələkbər Sabiri, Mirzə Cəlili oxuyan dünya oxucusu xalqımızın necə müdrik və uzaqgörən olduğunun şahidi olur. Təkcə böyük Nizaminin adı və yazdığı əsərlər belə deməkdə bizə əsas verir. Şübhəsiz, ayrı-ayrı dövlərin özünəməxsus ədəbiyyatı olmuşdur. Onu yaradanlar da həmin özünəməxsusluğu görərək ona uyğun, ancaq Böyük İnsan və insanlıq amilinə söykənərək fəaliyyət göstərmiş, əsərlərində həmişə reallığa önəm vermişlər. Bir sözlə, insanı insanlığa sığmayan əməllərdən uzaq durmağa səsləmiş və haqqın yanında olmağı özlərinə mənəvi borc bilmişlər. Xəqani – Nizamidən üzübəri bu, həmişə belə olmuşdur. Əgər belə demək mümkünsə, ədəbiyyat hər bir an xalqın yolgöstərəni olmuş, onun yoluna işıq salmışdır. Ümumiyyətlə, ədəbiyyatın ümumi mənzərəsi çox vaxt belə olmuşdur. Bu ədəbiyyatı yaradanlar özləri də, yaratdıları ədəbiyyat da milli olmaqla yanaşı, həm də dünyəvi olmuşdur. Bu istər ədəbiyyatın azad, sərbəst, istərsə də başının üstündə «demokl» qılıncı olduğu dönəmlərində də bu cür görünmüşdür.

B.Vahabzadə Azərbaycan ədəbiyyatı tarixində özünün müstəqil olaraq ayrıca yeri olan şairdir. O, XX əsr Azərbaycan ədəbiyyatı tarixində istiqlal şairi kimi tanınır. Ədəbiyyata bu yöndən yanaşanda onun həm özü və şəxsiyyəti, həm də yaradıcılığı tamamilə başqalarından fərqlənir. Mövzu baxımından da şairin yazıları rəngarəng və zəngindir. Ancaq ideyaca düz və bir xətlidir. Vətən və millət ideyasının bu xətdə şahdamar təşkil etməsi isə başlıca məqsəddir. Demək olar ki, B.Vahabzadə yaradıcılığının yetmiş-səksən faizi bu mövzulardadır. Buna baxmayaraq başqa mövzular da şairin yaradıcılığında azlıq təşkil etmir. Sənətkarlıq baxımından da bu şeirlər çox mükəmməl şəkildə özünü göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi, B.Vahabzadə həm də şəxsiyyətdir. O, bir şəxsiyyət kimi də öz yaradıcılığını şəxsiyyətləndirən şairimizdir. Onun hansı mövzuda yazılmasından asılı olmayaraq bütün şeirlərində oradan bir şəxsiyyətin boylandığını görürük. Özü də elə-belə şəxsiyyət yox, məğrur və qürurlu, əyilməsi mümkün olmayan şəxsiyyət... Belə şəxsiyyəti olan xalq isə, əlbəttə, xoşbəxt xalqdır. Axı milləti irəli aparmaq, onun qamətini həmişə düz saxlamaq, dünya arenasında tanıtmaq, yüksək səviyyədə təmsil etmək həmişə B.Vahabzadə kimi şəxsiyyətlərin elə bil boyuna biçilir, bu şərəfli işin ağırlığı belə simaların çiyinləri üzərində durur. Bu cür simalar həm özləri, həm də yaradıcılıqları ilə mənsub olduqları milləti şərəfləndirir və ona şərəf gətirir. Birmənalı olaraq deyə bilərik ki, dahi şair B.Vahabzadə bu cərgədə olanların birincilərinin birincisidir.

Elə bu baxımdan da biz böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına müraciət etməklə fikrimizi əsaslandıracayıq. Əlbəttə, onun Azərbaycan ümumtəhsil məktəblərinin ədəbiyyat dərsliyinə salınan şeirləri əsasında...

Ümumtəhsil məktəblərinin 6, 7, 9, 11-ci siniflərinin «Ədəbiyyat» dərsliklərində şairin yaradıcılığı tədris olunur. 6-cı sinif üçün «Ədəbiyyat» fənni üzrə dərsliyinin «Bədii əsərlərdə təsvir» bölməsində (4; 29-33)

şairin «Qocalar» şeiri şagirdlərin nəzərinə çatdırılır. Əsərin birinci bəndində şair qocaları çox ustalıqla təsvir edərək deyir:

*Çənə əl üstündə, əl çomaq üstə,*

*Qocalar əyləşir tin başlarında.*

*Sinə bayatılı, könül şikəstə,*

*Ömür varaqlanır yaddaşlarında (4; 31).*

Gördüyümüz kimi, qocanı və qocalığı bu cür yüksək duyğu ilə təsvir etmək yalnız B.Vahabzadə duyumunun məhsulu ola bilər. Bu bir bəndi oxuyan oxucu sözün qüdrətini hiss edərək görür ki, ən mahir rəssam da öz boyası ilə belə bir tablo yarada bilməz. Bunu yalnız və yalnız B.Vahabzadə qələminin gücü yarada bilərdi. Şeirin digər bəndlərində də biz onun sözünün gücünü ali məqamda hiss edirik. Necə ki, başqa bir bənddə deyildiyi kimi...

*Yaşıdlar köç edib, cavanlar işdə,*

*Tək-tənha oturmaq son əlacları.*

*Həyatın amansız yalqızlığında,*

*Tutur əllərindən əl ağacları (4; 31).*

Ümumiyyətlə, şeir son misrasına qədər bu cür notları özündə əks etdirir. Qocaların əsl yaşam tərzini çılpaqlığı ilə göstərir. Şeirin bütünlükdə məzmununu izah etsək, daha maraqlı söz və yeni fikir səhnələri ilə tanış olarıq. Bu, şəksiz, B.Vahabzadə sözünün gücünü nümayiş etdirir.

Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün «Ədəbiyyat» fənni üzrə dərsliyinin «Vətən sevgisi, qəhrəmanlıq səhifələri» bölməsinə salınan (5; 68-70) «Vətəndaş» şeiri də maraqlı süjeti ilə yadda qalır. Əsər heca vəznində yazılmış və beş bənddən ibarətdir. Bütün bəndləri «Vətəndaş! Nə gözəl səslənir bu söz» misrası ilə başlayır. Bəndlərin hər bəndində isə ayrı-ayrı fikirlər özünə yer alır. Yəni doğum ölüm arası Vətəndaşın – İnsanın onu yaradana borcu sadalanır. Vətəndaş sözünün mənasının nədən ibarət olduğu deyilir. Birinci bənddə eyni bir Vətəndə doğulanların qardaş olmağından söhbət açılır. Qardaşın qardaşa necə münasibətdə olması ustalıqla izah olunur və onların bir-birinə arxa-dayaq, kömək olmasından danışılır. Həm də burada Vətən anaya bənzədilir və hər bir vətəndaşın onun bədənindən dünyaya gəlməsi deyilir. Bu bədəndə vuran hər bir ürək bir anadan olan vətəndaşların ürəyidir. Çünki bu vətəndaşlar həm də eyni bir iqlimi olan yurdun övladlarıdır. Allah insanı yaratdığı kimi Vətən də vətəndaşı yaradır. Özünün suyu, havası ilə qidalandıraraq və işığı ilə işıqlandıraraq... Vətəndaş övlad da gərək Anasının xoşbəxtliyi üçün çalışa... Şairə görə əsas olan budur. Şeir sonda bu bəndlə bitir:

*Vətəndaş! Nə gözəl səslənir bu söz,*

*Vətən əbədidir, gedəriyik biz.*

*İnsan xoşbəxt olur öz Vətənində.*

*Bilirik dünyaya biz niyə gəldik.*

*O bizi yaradan, biz ona bəndə,*

*Yaradan uğrunda ölməyə gəldik! (5; 69)*

Bu bəndi ədəbi dildə möhür bənd də adlandıra bilərik. Ona görə ki, burada sanki bir sonluğun sonunda yeni bir başlanğıcın əsası qoyulur. Bu başlanğıc əbədi olan Vətəndir. O, şair üçün həmişə başlanğıcdır, son deyildir. Yaradan olduğuna görə yaratdıqları tərəfindən sevgi ilə əhatə olunmaq isə onun haqqıdır. Yaradan uğrunda ölənlər isə həmin haqqın qoruyucularıdır. B.Vahabzadənin «Vətəndaş» şeirinin qayəsi, məncə bu deyilənlərin məcmuəsidir. Bir də «Vətəndaş! Nə gözəl səslənir bu söz» misrasının yanında «Bəxtiyar

Vahabzadə! Nə gözəl səslənir bu ad» misrası da möhtəşəm səslənərdi... Əlbəttə ki, biz bu fikri buraya əlavə etsəydik...

Orta ümumtəhsil məktəblərinin 9-11-ci siniflərində də B.Vahabzadə yaradıcılığına müraciət edilir. 9-cu sinif üçün «Ədəbiyyat» dərsliyinin «Müstəqillik illərində ədəbiyyat (1991-ci ildən günümüzə)» bölməsində (6; 168-174) şairin «İstiqlal» şeiri şagirdlərin oxuması üçün nəzərdə tutulur. İstiqlal dadını dadan xalqların istiqlalın nə olduğunu bilməsi əsərdə bir ana xətt kimi verilir. Özünü və sözünü anlayandan bütün mübarizəsini həyat məşğuliyyətinə çevirən şair bu mövzuda olan əsərlərinin hər birində baş rolda çıxış edir. Öz azad sözü ilə istiqlal mübarizəsinin həmişə önündə gedir. Özündən əvvəlki istiqlal şairlərinin xələfi olmağı, özü də layiqli xələfi olmağı özünə şərəf bilir. Ancaq o hər zaman özü olmağı bacarır. Yəni öz sələfi böyük şair M.Ə.Sabir əgər «İstiqlalınız lağlağıdır» – deyirsə, B.Vahabzadə istiqlala başqa yöndə yanaşır, onu hər bir insanın – millətin halal haqqı hesab edir.

Sözsüz, biz bunu əsərdən seçilmiş ayrı-ayrı nümunələrlə izah etməyə çalışacağıq. Ayrı bir Azərbaycanlı şairin – B.Vahabzadənin özünə ustad saydığı S.Vurğundan isə onun istiqlala olan baxışları tamamilə fərqli görünür. S.Vurğun amerikalı qara zəncini yalnız Amerika üçün kölə bir formada, həm də elə-belə yalvarışlarla dolu bir formada göstərirsə, B.Vahabzadə köləliyi qəbul etməyən Afrika zəncisini üsyankar və mübariz bir formada göstərir, onu doğma vətəni olan Azərbaycanla müqayisədə verir. Əsərdən seçilmiş ayrı-ayrı nümunələrlə biz bunu daha yaxşı izah edə bilərik:

*Qullar silahlandı qəzəbdən, kindən,*

*Ayıra bildilər dumandan sisi.*

*Qovdu ağasını məmləkətindən,*

*Kölə Afrikanın kölə zəncisi* (6; 168).

Göründüyü kimi, şair burada təkcə zəncinin yox, həm də onun yaşadığı torpağın – Vətənin də köləliyindən danışır. Öz haqqını, hüququnu başa düşən zənci öz azadlığına, yəni istiqlalına qovuşur. Həmin istiqlalın Azərbaycana da gəlişini şair çox emosional formada təqdim edir. Öncə o, Azərbaycanın ikiyə bölünməsindən, onun nəticəsi kimi «Gülüstan» müqaviləsindən danışır. Bütün dünya xəritəsindən bu bütövlüyün silinməsindən, sonra Quzeydə şəhidlərin qanı bahasına əldə edilən istiqlaldan söhbət açır. Bununla da öz millətinin şərəfli bir yoldan keçdiyini deməklə istiqlalın asanlıqla əldə edilmədiyini dilə gətirir. İllər öncəsi yazmış olduğu «Gülüstan» poemasında ürək ağrısı ilə dediyi, gündəmə gətirdiyi arzularının bir hissəsinin artıq həyata keçdiyini deyir. Çünki bütöv arzuların yerinə yetirilməsi üçün «Vahid Azərbaycan» olmalıdır. Dünya xəritəsində o taylı bu taylı, yəni Güneyli-Quzeyli Azərbaycan bir verilməlidir. Şairi şeir belə sonluqla bitirir:

*Salaq yadımıza bu gün cahanın,*

*Rəngləri dəyişən beş qitəsini.*

*Biz də görəcəyik Azərbaycanın,*

*Güneyli-Quzeyli xəritəsini* (6; 171).

Düşünürəm ki, şairin bu arzusu tezliklə reallaşacaqdır. Bunun həyata keçməsi üçünsə bugünkü məktəblinin gələcəkdə qarşısında çox məsuliyyətli işlər, vəzifələr durur. Bu baxımdan da şagirdləri bu yönə yönləndirməkdə böyük şairin «İstiqlal» şeirinin xüsusi rolunun olmasını qeyd etmək lazımdır.

Nəhayət, Bəxtiyar Vahabzadə yaradıcılığına bir daha orta ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün «Ədəbiyyat» dərsliyinin «Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı» bölməsində yer ayrılmışdır (7; 171-182). Onun həyatını əks etdirən yarımmövzuda həyatı ilə bağlı müəyyən məlumatlarla birgə, yaradıcılığına da qısaca olaraq toxunulmuşdur. Müəyyən şeirlərindən nümunələr verilmiş və əsərlərinin mövzusu ilə tanışlıq xarakterli fikirlər söylənilmişdir. Onun Ana dili, Vətən, milli azadlıq, milli düşüncəni əks etdirən əsərlərinin az bir qismi haqqında qısaca məlumat verilmişdir. Sonra isə 80-ci illərin sonlarında, 90-cı illərin əvvəllərində Azərbaycanda başlayan istiqlal savaşının məntiqi nəticəsi kimi baş

verən 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş «Şəhidlər» poemasının müəyyən bir hissəsi şagirdlərin nəzərinə çatdırılır. Əsərdə şair şəhidlərin qəhrəmanlıq nümunələrini verməklə yanaşı, həm də özünün qaniçən, qansız düşmənə nifrətini də deməkdən çəkinmir. Əsərdə şəhidlərin obrazı ilə şairin öz obrazı yanaşı dayanır. Sanki əsərdəki şair obrazı şəhidliklə qaziliyin ortaq obrazına çevrilir. Poemadan gətirilən bir nümunə ilə fikrimizi əsaslandıraq:

*Qatil gülləsinə qurban gedərkən,*

*Gözünü sabaha dikdi şəhidlər.*

*Üçrəngli bayrağı öz qanlarıyla,*

*Vətən göylərinə çəkdi şəhidlər (7; 179).*

Adama elə gəlir ki, bu parçada şair ən azı yüz il geriyə dönür, böyük M.Ə.Rəsulzadənin “Bir kərə yüksələn bayraq bir daha enməz” fikrinin həqiqətə çevrildiyinə işarə edir. Bu əsəri şairin digər zamanlarda yazdığı əsərlərlə yanaşı qoyanda onun nə qədər uzaqgörən olduğunu görə bilirik. İstər torpaqlarımızın iki yerə bölündüyünü əks etdirən «Gülüstan» əsərində, istər «Şəhid məzarları» şeirində, istərsə də digərlərində...

Bu cür misalların sayını artırmaq da olar. Elə dediklərimizin üzərində dayanıb ona əsaslanaraq deyə bilərik ki, B.Vahabzadə Vətənini, millətini, ana dilini sevən, ona vurğun olan milli, hətta sözün əsl gerçək mənasında millətçi şairdir. Məncə, milli və millətçi olmaq heç də dünyəvilikdən uzaqlaşmaq, dünyaya qarşı çıxmaq deyil. Çünki milli varlığını qorumaqla bəşəri dəyərlərə malik ola bilərsən. Bir sözlə, dünyəvilik millilikdən keçir. Dünyəvilik milliliyin təməl daşları üzərində olanda daha yaxşı, gözəl və gerçək görünür. Ona görə də B.Vahabzadə yaradıcılığına nəzər yetirsək, onun həm yazdıqlarının, həm də özünün məhz bu cür göründüyünün şahidi oluruq. Beləliklə, buradan çıxan son nəticə də o olur ki, dahi şair nə qədər millidirsə, o qədər də dünyəvidir.

Bir tədqiqatçı kimi sözümü dedikdən sonra yekun olaraq bu dahi şairin azad ruhuna öz şeirimlə sığal çəkmək istəyirəm. Necə ki, şair özü də belə demişdir:

*Qatlayıb dizinin altına qoyar,*

*Alim Bəxtiyarı şair Bəxtiyar.*

Təbii ki, ölçüyə gələ bilməyəcək bu alim şairi sözlə də ifadə etmək çox çətindir.

Bir sönməz ilhamla yazıb yaratdın,
Sözün meydanında ixtiyar oldun.
Ömrünü əritdin millət yolunda,
Sən özün taleyə, bəxtə yar oldun.

Sözə maya tutdun doğrudan-düzdən,
İşlədi dərinə, olmadı üzdən,
Dikəldin çinartək soykökümüzdən,
Ruhun var olduqca özün var oldun.

«Birdir Azərbaycan – birdir can» yazdın,
Yurdumun şəninə çox dastan yazdın,
Ən qorxunc zamanda «Gülüstan» yazdın,
Ən cavan çağında saçı qar oldun.

Vətən ana oldu, sən ona bəndə,
Ucaldın vətənlə göylərə sən də.
Şəhid oğullara ağı deyəndə,
Sızlayan, inləyən kaman, tar oldun.

Haqqın, ədalətin səndin hakimi,
Sağaltdın, hər dərdin oldun həkimi.
Ad yazdın tarixə bir ustad kimi,
Həmişə dillərə belə car oldun.

Ürəyin bir vurdu obayla, ellə,
Zirvəyə ucaldın pillə və pillə,
Bu xalqa yadlardan dəyəndə güllə,
Dözmədin, talandın, tarimar oldun.

Bir bayraq, bir Vətən, bu idi andın,
Vicdanı həmişə Allahın sandın,
«Şam əgər yanmırsa» dedin də yandın,
Yanıb qətrə-qətrə Bəxtiyar oldun. (1; 125)

B.Vahabzadə yaradıcılığı millətimizin ömrü qədər həmişə əbədiyaşar, cavan və möhtəşəm olacaqdır. Bu möhtəşəmlik, bu cavanlıq onun poeziyasında sözün əsl mənasında özünü göstərir və bu poeziyaya eşq olsun.

## ƏDƏBİYYAT

1. Aynur Qafarlı. Dənizdir, günəşdir, nəğmədir, mənəm. «Elm və təhsil», Bakı, 2021, s.256.

2. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. I cild, «Öndər nəşriyyat», Bakı, 2004, s.328.

3. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. II cild, «Öndər nəşriyyat», Bakı, 2004, s.318.

4. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Afət Süleymanova, Təranə Bağırova. «Təhsil Nəşriyyat-Poliqrafiya» , Bakı, 2017, s.240.

5. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva, Sədaqət Məmmədova. «Şərq-Qərb», Bakı, 2016, s.208.

6. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bilal Həsənov, Aynur Mustafayeva, Soltan Əliyev, Nuriyyə Verdiyeva. «Şərq-Qərb» , Bakı, 2016, s.224.

7. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. İsa Həbibbəyli, Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva. «Bakı», Bakı, 2016, s.208.

# MİLLİ POETİK FİKRİN BƏXTİYAR VAHABZADƏ ZİRVƏSİ

BAKHTIYAR VAHABZADE SUMMIT OF NATIONAL POETIC THOUGHT

***Razim Məmmədov***

*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

*ADPU- nun Ədəbiyyat kafedrasının müdiri*

**Açar sözlər:** Bəxtiyar Vahabzadə, Vətən, poeziya, milli poetik fikir, ana dili, milli mücadilə

**Keywords:** Bakhtiyar Vahabzade, Motherland, poetry, national poetic language, mother language, national struggle

## XÜLASƏ

Böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadə milli poetik fikrimizin formalaşmasında özünəməxsus yeri olan söz ustalarındandır. Onun poeziyasında Vətənə sonsuz məhəbbət, ana dilinin saflığı uğrunda mübarizə, xalqımızın milli istiqlala qovuşmaq arzusu, bu amal uğrunda qəhrəmanlıq nümunələri geniş əksini tapır. Şairin poeziyasında xalqımızın saf duyğuları, soykökə bağlılığı və s. məsələlər dolğunluğu ilə diqqəti cəlb edir.

## ABSTRACT

The great Azerbaijani poet Bakhtiyar Vahabzade is one of the masters of words who has a special place in the formation of our national poetic thought. His poetry reflects the endless love for the Motherland, the struggle for the purity of the mother tongue, the desire of our people to achieve national independence, the examples of heroism for this cause. In the poet's poetry, the pure feelings of our people, ancestral ties, etc. issues attract attention with fullness.

Müasir Azərbaycan ədəbiyyatında milli düşüncənin formalaşmasında misilsiz xidmətləri olan böyük şair Bəxtiyar Vahabzadənin mübariz nəslin yetişməsində, azərbaycançılığın güclənməsində, milli ideologiyanın yeni məna kəsb etməsində zəhməti əvəzsizdir. Poeziyamıza yeni ruh, yeni nəfəs gətirən sevimli şairimiz dərin mənalı şeirləri ilə xalqımızın təfəkküründə milli istiqlal məfkurəsini daha da alovlandırmış, hələ keçən əsrin 80- ci illərindən başlayaraq onun şeirləri Azərbaycanın ərazi bütövlüyü və azadlığı uğrunda ümumxalq mübarizəsinin himninə çevrilmiş, istiqlal nəğmələri kimi ürəkləri coşdurmuşdu.

Doğma xalqının zəngin mənəviyyatına, əxlaqi gözəlliyinə, istək və arzularına, qaynar və mənəvi həyatına yaxından bələd olan şair millətin faciəsinə, ağrı- acısına biganə qalmamış, fədakar ziyalı, azadlıq mücahidi kimi ən çətin anlarda sinəsini qabağa vermiş, insanları Vətənin azadlığı və bütövlüyü uğrunda müqəddəs mübarizəyə və mənəvi birliyə səsləmişdi. Onun “Vətən sevgisi” sərlövhəli məqaləsində oxuyuruq: “Vətən sevgisi insan duyğularının ən alisi, ən yüksəyi, ən müqəddəsidir. İnsan mənsub olduğu Vətəni sevməklə özünü, cəmiyyətinqarşısındakı borcunu tapmış olar. Vətən və xalq hissindən məhrum olan şəxs bütün insani hisslərdən məhrumdur. Vətəni sevən adam həyatı sevir, dünyanı sevir. Çünki o, nə üçün yaşadığını və nəyin naminə çalışdığını bilir. Vətən sevgisi insana məslək, and gətirir. Məslək isə ürəyə cəsarət, qollara qüvvət, gözlərə işıq verir.”

Azərbaycanın milli istiqlal mübarizəsində həmişə həmvətənlərinin yanında olan “Bəxtiyar Vahabzadəni həyatı boyunca düşündürən çoxsaylı milli, ictimai problemlərin birincisi, heç şübhəsiz, öz xalqının

müstəqilliyi, milli istiqlal məsələsi olmuşdur. Mənsub olduğu xalqın ideallarını, dərdini, kədərini, duyğu və düşüncələrini dərindən duyan sənətkarın milli azadlıq uğrunda bir vətəndaş şair kimi illər boyu davam edən mübarizəsi əsərlərində əks olunmuşdur."

B.Vahabzadəni millət xadimi kimi həmişə narahat edən ən vacib və mühüm məsələlərdən biri ana dilinə münasibət olmuşdur. Sovet hakimiyyəti illərində ana dilinə bəslənilən soyuq münasibətin gündən- günə güclənməsi şairi narahat etmiş, o, Azərbaycan dilini sıradan çıxarmaq üçün yürüdülən siyasətin güclənməsinə qarşı gur səsini ucaltmışdır. Böyük ədib bu mövzu ilə bağlı silsilə şeirlər yazmış, doğma dilə ögey münasibətə son qoyulmasını tələb etmişdir. Onun "Ana dili", "Latın dili", "Əlifba kitabı", "Mənim anam", "Nə ondansan, nə bundan", "Riyakar" və s. şeirlərində, eləcə də "Ana dilim- Ana köküm", "Ana dili", "Ana dili- Dövlət dili", "Ana dili, yenə ana dili", "Bir daha ana dili haqqında", "Dilimiz-ədəbiyyatımız", "Kökümüzə gedən yolu tikanlardan təmizləyək" və s. kimi qiymətli publisistik yazılarında əcdadlarımızın bizə qoyub getdiyi doğma dilimizin təəssübünü çəkmiş, onu göz bəbəyi kimi qorumağın vacibliyini bildirmişdi.

Bu gün iftixarla söyləmək olar ki, milli istiqlala, azərbaycançılıq əqidəsinə sadiqliyi, milli birliyə, soykökə bağlılığı ilə əsl vətəndaşlıq nümunəsinə çevrilən B.Vahabzadə Azərbaycan milli poetik fikrin ən uca zirvəsini fəth etmiş şair kimi yaddaşlara həkk olunmuşdur..

**ƏDƏBİYYAT**

1. Aytmatov Ç. Yaradıbdır inam məni, mən inamın övladıyam, Ön söz, B.Vahabzadə, Əsərləri, iki cilddə, I cild, Bakı, 2004

2. Cəfərov N. Bəxtiyar Vahabzadə, Bakı, 1996

3. Vahabzadə B. Əsərləri, on iki cilddə, II cild, Bakı, 2008

4. Vahabzadə B. Əsərləri, on iki cilddə, III cild, Bakı, 2008

5. Qarayev Y. Azərbaycan ədəöbiyyatı: XIX və XX yüzillər. Bakı, 2002

# BƏXTİYAR VAHABZADƏNİN "ALLAH" ŞEİRİNİN TƏSƏVVÜFİ ANLAMDA "QURANİ-KƏRİM" AYƏLƏRİ VƏ HƏDİSLƏR ÜZRƏ TƏHLİLİ

***Xəlilov Habil***

*AMEA-nın Şəki Regional*

*Elmi Mərkəzinin əməkdaşı*

## XÜLASƏ

Məqalədə xalq şairi B.Vahabzadənin təsəvvüfi görüşləri müəyyənləşdirilmiş, şairin "Allah" şeiri "Qurani-Kərim" ayələri və "hədisi-şəriflər"lə müqayisəli şəkildə təhlil müstəvisinə çıxarılmışdır. Tədqiqat işində bölgədən topladığımız epiqrafik abidələrin üzərində olan dini məzmunlu şeir parçalarından, həmçinin, bölgənin nüfuzlu din xadimlərinin əlyazma və qeydlərindən istifadə edilmişdir. Həmin nəzm nümunələri Bəxtiyar Vahabzadənin yaradıcılığındakı oxşar nüanslarla müqayisəli təhlil edilmişdir.

**Açar sözlər:** Bəxtiyar Vahabzadə, təsəvvüf, mənəviyyat, hədisi-şərif, Allaha məhəbbət.

## GİRİŞ

Azərbaycan ədəbiyyatının klassiklərindən olan Bəxtiyar Vahabzadə poeziyası insan duyğularının məcmusudur. Şairin könül dünyası Allahın yaratdığı bütün mövcüdata sonsuz məhəbbətin sirr aləmidir.Vahabzadə yaradıcılığı ilə tanış olan hər bir oxucu bu sirli aləmin sehrinə düşüb onu addım-addım izləyərkən, özünü, kimliyini dərk etməyə başlayır. Şairin yaradıcılığı xalqın tarixi, mənəviyyatı, mədəniyyətinin əks etdirilməsi baxımından olduqca maraqlıdır. Şairin yaradıcılığındakı bu xüsusiyyət onun insana, insanlığa, yaradana olan sonsuz sevgisindən, məhəbbətindən qaynaqlanır. Vahabzadənin bütün yaradıcılığı xalqın ruhundan, düşüncəsindən süzülüb gələn bir bulaq kimi axar-baxarlıdır. Onun ədəbi irsimənəvi dəyərlər üzərində kök salmış, qol-budaq atmış, insanların duyğu və düşüncələrini əks etdirən bədii nümunələrlə zəngindir. Şairin sevgisinin fövqündə Allaha və onun peyğəmbərinə olan sonsuz məhəbbəti dayanır.

## I. BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA TƏSƏVVÜFLƏ BAĞLI MƏQAMLAR

Təsəvvüfün müstəqil bir təlim-tərbiyə, bir cərəyan kimi ortaya çıxması mütəxəssislərin qeyd etdiyi kimi, islamı həyatın zaman keçdikcə əvvəlki gücünü itirməsi, dinimizdəki zöhd hərəkatının zəifləməsi ilə bağlıdır.

Müasir dövr dini-fəlsəfi cərəyanın nümayəndələrindən olan Osman Nuri Topbaşın fikrincə, "Təsəvvüf İslamın qəlbi, həyatı, özü və ruhani tərəfidir. Allahın kitabı, sünnəti-səniyəni yüksək bir qəlb keyfiyyəti ilə həyatın hər sahəsində sirayət etdirmə şüuru ilə yaşanılan mənəvi bir həzz ilə arınma və təkamül yoludur" (Osman Nuri Topbaş, İpəkyolu nəşriyyatı, 2018, səh. 15).

"Təsəvvüf yolunun yolçuları nəfsi arındırmaq və qəlbi saflaşdırmaq yolu ilə məşğul olurlar. Bu məşəqqətli əməliyyat "üsuli aşərə" adlandırılan on üsulla mümkündür və bunlara tövbə, zöhd, təvəkkül, qənaət, üzlət, Allaha təvəccöh, səbr, rıza, zikr, və müraqəbə adı verilməkdədir" (Osman Nuri Topbaş, İpəkyolu nəşriyyatı, 2018, səh. 7).

Təsəvvüfün əsasında nəfsə həzz verən hər bir şeydən üz çevirmək, nəfsi təmizləyib ruha tam mənasıyla ram etmək, bununla da mənəvi saflıq əldə etmək dayanır. Bəxtiyar Vahabzadənin Cəlaləddin Ruminin xatirəsinə həsr etdiyi "Təsəvvüf" şeirində şair həmin məqama diqqət çəkərək, Allaha gedən yolun insanın qəlbindən keçdiyini vurğulayır:

Hər kəsin ürəyindən

Allaha bir yol gedir.

O yola biganələr,

Özünə biganədir.

Özünü aşmaq üçün,

Haqqa ulaşmaq üçün.

Gərək öncə aşasan,

Nəfs adlı dağları (Vahabzadə Bəxtiyar, Çaşıoğlu Bakı, 2003, səh.364).

Təsəvvüfün ən mühim cəhətlərindən biri də islamın əsaslarına, dinin ehkamlarına uyğun həyat tərzi ilə yaşamaqdır. Bu o deməkdir ki, təsəvvüfdə şəriətsiz təriqət, mərifət və həqiqət mümkün deyildir. Şair bu məqamı maraqlı təşbehlərlə ifadə edərək oxucuların diqqətinə çatdırır:

Şəriət-bir bağçasa,

Təriqət-budaqları,

Mərifət-yarpaqları,

Həqiqət-meyvəsidir.

Təsəvvüf-haqq səsidir (11, 364).

Təsəvvüf kəlməsi peyğəmbərimizin (s.a.v) nümünəvi həyatında kəlmə olaraq işlədilməsə də, mahiyyət və reallıq baxımından mövcud idi. Gözəl əxlaqa sahib olmaq üçün peyğəmbərimizin (sallallahu aleyhi vəsəlləmin) örnək əxlaqından bəhrələnərək tərbiyələnmək vacibdir. Onun əxlaqı barəsində, "Qurani-Kərimdə" "Şübhəsiz, sən uca əxlaq üzərindəsən" buyurulmuşdur ("Qurani-Kərim", "Qələm" surəsi, 4).

"Təsəvvüfi meyillər Azərbaycan ədəbiyyatında ayrı-ayrı ədəbi mühitin təmsilçilərinin yaradıcılığında da özünü göstərmişdir. Şəki ədəbi mühitində XIII əsrin sonu, XIV əsrin əvvəlində yaşayıb yaratdığı ehtimal edilən Ənbəroğlunun, XIX əsrdə İsmayıl bəy Nakamın, Molla Məhəmməd Hüzninin, Zövqinin və digər şairlərin lirik və lirik-epik yaradıcılığında sufizm ünsürləri özünü göstərmişdir" (Mənəfova Reyhan. II uluslararası Hamza Nigari sempozyumu, 20-22 oktyabr 2014. Bakı-Qazax Azərbaycan, səh. 46).

Azərbaycanın şimal-qərb bölgəsində apardığımız tədqiqatlar zamanı Şeyx Mustafa əfəndi, əl-Malaxi tərəfindən yazılan müxtəlif məzmunlu nəsihətamiz nəzm nümunələrindən birində şairin təsəvvüf görüşləri əks olunmuşdur.

Ey oğul, bən səndən şirin halva istərəm,

Bana şirin halva al, gətir.

Amma oğlum, şəriət unundan ununu al,

Həqiqət ələyindən keçir,

Məhəbbət balıyla yoğur,

Təriqə oduyla bişir,

Şükür tabağına qoy, gətir (Xəlilov Habil, "Çağdaş Azərbaycanda elm və təhsilin prioritet istiqamətləri" respublika elmi konfransının materialları Bakı-02 aprel 2021, səh.141 ).

## II. BƏXTİYAR VAHABZADƏNİN "ALLAH" ŞERİNDƏ "QURANİ-KƏRİM" AYƏLƏRİ VƏ HƏDİSİ-ŞƏRİFLƏRLƏ SƏSLƏŞƏN MƏQAMLAR

O, rəbbinə olan bağlılığını şeirlərində əks etdirərək öz oxucusuna Allahın varlığını və birliyini, onun ən gözəl təsvir üzrə yaratmış olduğu insanı, insanın təfəkkür dünyasının sirlərini, yaratmış olduğu aləmin insan təbiətinə təsirləri nəticəsində kamillik və təkamülə çatmağın yollarının nəfsi tərbiyədən keçdiyini söyləyir.Vahabzadənin fikrincə, cəhalət insanın başınabəla və müsibətlər gətirir, onu hər iki dünyada "heyvandanda aşağı" ("Qurani-Kərim", "Tin2  surəsi, 5) mənəvitənəzzülə uğradır. Şair ruhun tərbiyəsində mükəmməl olanİslam dininin vətəsəvvüf yolunun insanların saflaşmasında böyük təsirə malik olduğunu yalnız bu süzgəcdən keçdikdən sonra qəlbin saflaşmasını görməyin mümkün olduğunu deyir.

Bəxtiyar Vahabzadənin "gecələr mənim şahımdır" sözləri, "Qurani-Kərim"in "Duha" surəsində "And olsun sakitləşməkdə olan, getdikcə zülməti artan gecəyə" ("Qurani-Kərim" , Duha surəsi 2) kəlmələri ilə tamamilə səsləşir. Şairin gecəyə qiymət verməsinin səbəbi məhz onun zülmət səssizliyinin sirrindədir. Onunbədii yaradıcılığında gecə-gündüz bilmədən gününün hər vaxtını elmə, öyrənməyə, bədii yaradıcılığa sərf etməsi şairin dərin təfəkkürünün, müdrüklüyünün təcəssümüdür. Qurani-Kərimdə qeyd olunan: "O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!" ("Qurani-Kərim" "Ali-İmran" surəsi, 191).

Bəxtiyar Vahabzadə poeziyasına nəzər saldıqda, onun dərinliklərinə endikdə şairin Allaha olan sonsuz etiqadının, onun yaratdığı məxluqata sevgisinin əlvan boyalarla əks olunmasının şahidi oluruq:

"İdrakda yol açmış gecədən gündüzə Allah

Güldürməsən öz könlünü, gülməz üzə Allah" (Vahabzadə Bəxtiyar, Çaşıoğlu nəşriyyatı, 2002, səh.109).

Şairin təfəkkür fəlsəfəsinə görə, Allahın dərk olunması insanın ilk olaraq özünü dərk etməsilə başlayır. İnsan kim olduğunu dərk edərkən əslində, onu yaradana yaxınlaşır. Bütün varlığı-ağlı, düşüncəsi və ruhu ilə Allahı dərk edir.

Qurani-Kərimin Ali-İmran surəsində Allahın varlığının isbatı bu şəkildə öz əksini tapmışdır: "Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır" ("Qurani-Kərim", "Ali-İmran" surəsi, 190).

Vahabzadə düşünür ki, insan öz idrakının köməyilə kamilliyə yüksələ bilər. Kamil insan isə mütləq şəkildə özündən sonrakı nəsillər üçün çıraq rolunu oynayır. O yandıqca, ətrafdakılar onun ziyasından aydınlanırlar. Deməli, kamil insanların qəlb dünyası əkin torpağı kimidir, ölü toxumu dirildir.Qurani-Kərimdə "O, ölüdən dirini, diridən ölünü çıxarır. Yeri ölümündən sonra dirildir", deyilir.(Rum surəsi 19 ayə)Şairin əsərindən təsirləndiyi Osman Nuri Topbaşın düşüncələri də olduqca maraqlıdır. O yazır: "Kamil insanların qəlb aləmi torpaq altında çürüyüb yox ola bilməz. Bu səbəbdəndir ki, onların qəlb məhsulu olan əsərləri də əbədi yaşayır" (Osman Nuri Topbaş. İpəkyolu nəşriyyatı, 2018, səh. 12).

Şairin növbəti misralarda ifadə etdiyi

Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş

Qəlbin gözü yanmazsa, görünməz gözə Allah (Vahabzadə Bəxtiyar, Çaşıoğlu nəşriyyatı, 2002, səh. 109).

fikirləri barədə şairlə olan söhbətimiz və onun verdiyimiz sualları səbrlə cavablandırdığı dioloqda daha aydın təzahür edir. Ondan "dünyaya şəfəqlər kimi tanrım səpələnmiş"in nə demək olduğunu soruşduqda, o, "dünyada gedən bütün proseslər, yaradılış qanunları ilahi nizam-intizamın yaradanın bir təcəllası deyilmi?" deyə, cavab vermişdir. Eyni zamanda qulun Allaha c.c. yaxın olmasının gözəl isimləri ilə dua etməsi ondan əczaniyyətini bilavasitə təslim etməsidir.

Qurani-Kərimdə Allahın gözə görünməsi barədə yazılır: "Musa Tür dağında rəbbini görmək arzusunda olduğu halda, rəbbi ona "sən məni əsla görə bilməzsən" ("Qurani-Kərim", "Araf" surəsi, 143) Allah da ona

“dağa bax”, əmrini vermişdir. Bundan sonra Musa dünya gözüylə rəbbini görmək arzusunda israr edincə, huşunu itirir. Ayılanda anlayır ki, Allahı gözlə görmək mümkün deyil. Allahı yalnız zikrlə dərk etmək olar. Rad surəsi 28-ci ayədə “Diqqət! Qəlblər yalnız Allahı zikrlə tətmin olar”, buyurulur. Buradan da anlaşılan odur ki, Allahı gözlə deyil, qəlbin inkişafını və rəbbin varlığını zikrlə anmaq mümkündür.

Allah! Bilirik cism deyil, bəs nədir Allah?

Ən yüksək olan haqda, həqiqətdir Allah.

Dondunsa, təkamül və gözəllik qabağında

Dərk et, bu təəccübdə, bu heyrətdədir Allah (Vahabzadə Bəxtiyar, Çaşıoğlu nəşriyyatı, 2002, səh.109).

Şair demək istəyir ki, əslində, Allah əlçatmaz deyil, amma biz ona nə toxuna, nə də onu görə bilmirik. Biz Allahı hisslərimiz və ruhumuzla dərk etdiyimiz zaman ona əlimiz çata bilir. İslam alimləri zaman-zaman onu əqli-dəlillərlə izah etməyə çalışmışlar. Sadəcə bizə qoyulan məhdudiyyətlər baxımından Allahı yalnız ağlı və nəqli-dəlillərlə dərk edirik. Allah üçün edilən bütün ibadət və xidmətlər iman eşqi,məhəbbət, vəcd ilə xalisanə mühüm qulluğun bariz nümunəsidir.Qurani-Kərimin Qaf surəsində buyurulur: “O, insana şah damarından yaxındır” (“Qurani-Kərim” “Qaf”, surəsi, 16).

Hədisi-şərifdə “Allah gözəldir, gözəlliyi sevər, kainatda Allahın yaratmış olduğu bütün aləm mükəmməl yaradanın xariqələr möcüzəsi sayılır. Və bunun dərk olunmasını yalnız bəni-adəmə həvalə edilir. Adəm övladı bu gözəllikləri təfəkkür edir, Allaha olan şükür borcunu ona təzim edərək heyrətlə qulluq etməsini ondan niyaz edir”, deyə buyurulur. Bütün bunları çox gözəl dərk edən şairAllahın gözəllik qarşısındakı heyrətini nəinki gizlətmir, hətta gözəlliyə təzim etdiyini, bunun Allahın bir lütfü olduğunu təsdiqləyir.

Bildik, bilirik, gizlidir insandakı qüdrət

Hər kəs onu fəhm etməsə, acizdir o əlbət.

İnsanın əzəl borcudur insanlığa hörmət

İnsanlığa hörmətdə, ləyaqətdədir Allah (Vahabzadə Bəxtiyar, Çaşıoğlu nəşriyyatı, 2002, səh.110).

Vahabzadə insanı Allahın yaratdığı ən mükəmməl və kamil bir varlıq olaraq dərk edir. O, insandakı qüdrətin Allahın təcəllası olduğuna inanır. Məlumdur ki, rəbbimiz Adəm övladını əşrəfi məxluq, yaradılmışların ən mükəmməli olaraq yaratmış, ona düşünmək üçün ağıl, görmək üçün göz, danışmaq üçün dil kimi afətlər bəxş etmişdir. Qurani-Kərimin Rəhman surəsində “İnsanı (Adəmi) saxsı kimi (toxunduqda səs çıxardan) quru palçıqdan O yaratdı” buyurmuşdur (“Qurani-Kərim”, “Rəhman”, surəsi, 14).

Allah insana öz ruhundan nəfəs üfləmiş, ona metafizik bir təfəkkür, duyğu bəxş etmişdir. İslam mahiyyət etibarı ilə insanda imanlı könüllər üçün ruhaniyyət, feyz, məhəbbət, vəcd, duyğularını aşılayır. Deməк ki, İslam münbit elmin və irfanın meyvə bağçasında şaxələnən köklü-budaqlı bir ağacdır. O, cəmiyyətin hər təbəqəsinə xitab edən, rahatlıq zamanı tənbəllik və biganəliyə mane olan sıxılmış nəfəslərə pəncərə açan, yaralı könüllərə məlhəm, yorğun zehinlərə rifah verəndir. Buna görə də Allaha və onun yaratdığı insana, bütövlükdə insanlığa hörmət və mərhəmət etmək insanın mənəvi yaddaş borcudur.

Gerçək də budur: gizlidir hər zərrədə vəhdət

Bir zərrə ikən küllə qovuşmaq ulu niyyət.

Gördüklərimiz zahirdir, bətnə nüfuz et

Batindəki, cövhərdəki fitrətdədir Allah (Vahabzadə Bəxtiyar, Çaşıoğlu nəşriyyatı, 2002, səh. 110).

Şairin fikrincə, insanlar Allahın yerdəki zərrələridir. Hər bir zərrə nəhayətdə küllünə qovuşub bir bütün yaratmalıdır.“Qara buludlardan sıxılmış halda narın yağışı yağdıran” (“Qurani-Kərim”, Nəbə surəsi, 14) Allahın rəhmət və bərəkəti bu şəkildə bütün zərrələrə, mövcudata abi-həyat verər. Bu düşüncə, insanların qəlbində yaşatdığı Allah sevgisinin təzahür forması kimi şairin poeziyasından qırmızı xətlə keçir. Şairə görə, bizim hər birimiz öz daxilimizə enib Allahı orada axtarmalıyıq, çünki ona qovuşmaq“qəlbi-səlim” (“Qurani-

Kərim" , "Şüara" surəsi, 89) ilə mümkündür."Hər doğulan körpə İslam fitrəti üzərinə doğular, sonra ana-atası öz inancına görə Yəhudi, Xristiyan, Məcusi kimi yetişdirər" (Canan İbrahim, Zaman nəşriyyatı, 2014, səh. 22). Bu minvalla insan öz fitrəti üzərinə yaşamağa başlayar.

Fitrət də yatır sözdə, sözün öz yükü fikrim

Seçmiş, seçəcək daima tükdən tükü fikrim.

Mən bir ağacam, yarpağı sözlər, kökü fikrim

Sözlərdə deyil, sözdəki hikmətdədir Allah (Vahabzadə Bəxtiyar, Çaşıoğlu nəşriyyatı, 2002, səh. 110).

Gözəl fikirlərin əldə olunması üçün "Allahı çox-çox zikr" ("Qurani-Kərim" "Əhzab", surəsi, 41) etməklə, imanın ləzzətinə nail ola bilmək üçün qəlbi və dili tövbeyi-istiğfarla daim pis sözlərdən qorumaq və tərbiyə etmək lazımdır. Çünki Allah qatında dünyanın dəyəri milçəyin qanadı qədər əhəmiyyəti olmadığını, "axirətinsə əbədi olduğunu" ("Qurani-Kərim", "Duha" surəsi, 4) dərk edən möminin fani dünya nemətləri qarşısında böyük məsuliyyətinin qarşılığında əbədi cənnət nemətlərinə qovuşacağı vəd olunmaqdadır. Hədisi-şərifdə buyrulur: "elə sözlər vardır ki, o sehrdir". Sözlərin insan üzərində gücü, ahəngi məhz irfan yolçusunu əlçatmaz üfiqlərə aparır. Onu qüdsi-hədisdə buyurulduğu üzərinə "qulum mənə yaxınlaşarsa, mən qulumun görən gözü, tutan əli, yeriyən ayağı olaram". Deməli, bu həqiqətləri dərk edən insanın nəinki özü, hətta ətrafındakılar da ilahi hikmətlərdən faydalanaraq kamil, fazil, aqil insanlardan olar. (Epitafiya Mustafa əfəndi əl-Malaxi)

Cahil enər alçaqlığa, öz qəlbinə enməz

Vicdandan əgər dönsə də, xeyrindən o dönməz.

Zülmətdə, cəhalətdə, ədavətdə görünməz,

İlqarda, sədaqətdə, məhəbbətdədir Allah (Vahabzadə Bəxtiyar, Çaşıoğlu nəşriyyatı, 2002, səh.110).

Qurani-Kərimin Nur surəsinin 35-ci ayəsində buyurulur: "Allah göylərin və yerin nurudur". Nur surəsinin 24-cü ayəsində "Allah göyləri və yerləri günəşlə aydınlatdığı kimi mələk, cin, insanlar kimi varlıqları da öz hidayət nuruyla aydınlatmış, onları cəhalətdən, zəlalətdən, qaranlıqdan qurtarmışdır" ("Qurani-Kərim", "Nur" surəsi, 24). İnsanla Allah arasında yetmiş min pərdə var olduğu buyrulur. Hədisi-şərifdə "Allahın nuru və qaranlığı arasında yetmiş min pərdə vardır (Canan İbrahim, Zaman nəşriyyatı, 2014, səh. 293). Allah-tala öz zatı sifətlərilə pərdələnmiş. Qul ruhun bədən qəfəsinə girdiyindən sonra özünə təcalla edən sifət pərdəsi səbəbi ilə haqqı görmək iqtidarına sahib deyildir, həqiqi varlıq haqqın varlığıdır. Başqa varlıqlar isə ona görə kölgə mahiyyətindədir. Şairə görə, insan Allahı varlığı ilə hiss edən zaman onun üçün bütün qaranlıqlar, zülmət və cəhalət yox olub gedir. Qurani-Kərimin Araf surəsi 199-cu ayəsində Allah buyurur: "Cahillərdən üz çevir".

"Allahım, səndən səni sevməyi, səni sevən şəxsi sevməyi, sənin sevgini əlçatan edən əməlləri istəyirəm" (Tirmizi Dəavət 72). Ümumiyyətlə, Allahın adı çəkilən hər yerdə mərhəmət, sevgi, məhəbbət, inam, etibar və s. duyğular insan qəlbini qucaqlayır, ona rahatlıq və hüzur bəxş edir.

## NƏTİCƏ

Beləliklə, Bəxtiyar Vahabzadənin ədəbi irsinə nəzər salarkən İslam dininin ehkamlarına, keçdiyi tarixi mərhələlərə, bu dinin mahiyyətinə yaxından bələd olduğu məlum olur. Şairin yaradıcılığında mərhələli şəkildə əks etdirilmiş təsəvvüf həyatından insanın özünüdərkinə və son olaraq Allahı dərkinə doğru istiqamətlənən yol, onun mənəviyyat aləmi bədii obrazlarla, yüksək bədii sənətkarlıqla əks etdirilmişdir. O, insanın Allaha doğru yüksəlməsində mənəvi paklığın, əxlaqi dəyərlərin əsas vasitə olduğunu bildirir. Qeyd edilən məqamlar "Qurani-Kərim"in nəzəri və həyati mahiyyətini özündə ehtiva edir.

**ƏDƏBİYYAT**

1. "Qurani-Kerim". Marmara Universitesi, II baskı. İstanbul, 2020.
2. Canan İbrahim. Kütubu-sitte. Müslim Qədər, 22, Zaman nəşriyyatı, 2014.
3. Füzuli Məhəmməd. Rind və Zahid. Bakı 2012.
4. Xəlilov Habil. "Ədəbi nümünələrdə təsəvvüf həyatının izləri" (şimal-qərbi Azərbaycanda toplanmış materiallar əsasında. "Çağdaş Azərbaycanda elm və təhsilin prioritet istiqamətləri" respublika elmi konfransının materialları Bakı-02 aprel 2021.
5. İslami Bəyazid. Haqq dostlarından hikmətlər. İpəkyolu nəşriyyatı, Bakı, 2016.
6. Mənəfova Reyhan. "Sufizm və Şəki ədəbi mühiti. (ədəbi-tarixi konteksdə)". II uluslararası Hamza Nigari sempozyumu. 20-22 oktyabr 2014. Bakı-Qazax Azərbaycan.
7. Osman Nuri Topbaş. İmandan Ehsana Təsəvvüf. İpəkyolu nəşriyyatı, 2018.
8. Osman Nuri Topbaş. Mövlana dərgahından əsintilər. Bakı, 2018.
9. Sədi Şirazi. Bostan, Tehran 1368.
10. Vahabzadə Bəxtiyar. "Fəryad" pyesi, V cild, Çaşıoğlu Bakı, 2002.
11. Vahabzadə Bəxtiyar. Əsərləri. VI cild, Çaşıoğlu Bakı, 2003.

# BƏXTİYAR VAHABZADƏ: ŞEİRİM – İMANIM MƏNİM

***Dadaşova Reyhan***

*Filologiya üzrə fəlsəfə doktoru*

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*Cəlilabad filialı*

*ORCID ID: 0000-0002-3407-2817*

Söz bəşər övladına təkcə ünsiyyət azadlığı vermədi, onu vəhşi həyat tərzindən uzaqlaşdırdı, insan məhəbbətini, insan nifrətini əyaniləşdirdi. Təbiidir ki, söz insan təfəkkürünün, xüsusən də bədii, poetik təfəkkürün reallaşmasına güclü təkan verdi. Bu da həqiqətdir ki, nitqin xüsusilə də poetik təfəkkürün canı-çövhəridir. Yəni fikrin emosional, ritmik forması olan şeir insan duyğularının ifadəsi üçün daha enerjili, daha ötkəmlidir. Lakin şeirin, poetik təfəkkürün güclü olması üçün təkcə qafiyə sistemi, misra ölçüsü, nida işarəsi, gurultulu, hay-küylü ifadələr insan ruhunu ehtirasa gətirmir. Poeziya hər şeydən əvvəl xüsusi ehtiras, mənalı fikir, ürək yanğısı tələb edir. Nizami "sözün də su kimi lətafəti var", hikmətini, Nəsimi "…həq sözün gör ki, necə dürdanədir", deyərək sözün dəyərini anlatdı. Füzuli "...kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz", qüdrətini, S.Təbrizi "...quş kimi açdı qanad göylərdə covlan etdi söz", sözün sənə aid olmadığını və bu səbəbdən danışdığın sözə diqqət etməyi məsləhət gördü. Q.Təbrizi "...ta zərurət düşməyincə söyləmən, zinhar söz" deyərək sözün həm qüdrətini, həm də dəyərini oxucusuna catdırdı. Dahi sənətkarlar "söz zərdir: necə gəldi, harda gəldi danışmaq onu dəyərdən salır" fikrini bizə çatdırıblar. Əslində bütün ədiblər eyni fikri səsləndirib, ancaq hər biri sözün qüdrətini özünəməxsus ifadə edib. B.Vahabzadə isə, sözdəki məntiqi məzmunu, törəmə məna və emosional cəhətləri görə bilir və onun vasitəsilə öz emosiyasını ifadə edirdi. O, dəfələrlə vurğulayırdı ki, "İnsanın varlığı, mahiyyəti-onun fikridir, düşüncəsidir. Fikir, düşüncə isə insanın sözlərində özünü göstərir. İndi ki belədir, demək sözlərim mənim aynadakı əksimdir" - deyirdi.

Biz bu mənada Bəxtiyar Vahabzadənin poeziyasını həqiqi poeziya kimi qiymətləndirməyə haqlıyıq. Bu Prometey ruhlu şairin şeirlərindəki parlaq fikirlər, həqiqi vətəndaş yanğısı bütöv bir nəsli sanki dərin qəflət yuxusundan ayıltdı, bizi özümüzə tanıtdı, Vətən, torpaq anlayışlarının həqiqi mənasını beynimizə yeritdi, bizi məcbur etdi ki, təzədən Babək, Cavanşir, Tomris ana, Koroğlu kimi şəxsiyyətləri unutmayaq böyük qəhrəmanlar yetirək.

# BƏXTİYAR VAHABZADƏ YARADICILIĞININ SİRLƏRİ VƏ QAYNAQLARI

***Firədun Nadir oğlu İbrahimov***

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*

*Şəki filialında kafedra müdiri,*

*pedaqoji elmlər doktoru, professor*

Bəxtiyar Vahabzadə yaradıcılığında dörd istiqamət prioritetdir: şeir, dramaturgiya, publisistika və elm. Şeir Bəxtiyar emosiyasının, dramaturgiya məntiqinin, elm fikir dərinliyinin, publisistika isə ictimai düşüncəsinin təzahürü və məhsuludur. Bunları birləşdirən əsas amillər Bəxtiyarın bir sənətkar kimi öz yaradıcılığına ciddi və ardıcıl münasibəti, məsuliyyət və xalq qarşısında borc hissidir. Şeiri qiymətləndirmə baxımından fenomen şəxsiyyət səviyyəsinə yüksəlmiş Bəxtiyar Vahabzadənin əksər hallarda iki meyara üstünlük verməsini hiss etmək mümkündür: dil üslubu, daha doğrusu dilin saflığı və şeirdə obrazlı şəkildə ifadə olunan fikrin mövcudluğu. Şair Bəxtiyara görə, şeiri hər hansı başqa ədəbiyyat janrından fərqləndirən amil məhz fikrin yığcam və obrazlı ifadəsidir.

Bəxtiyar Vahabzadənin yaradıcılığı dörd mühüm qaynaqdan qidalanaraq formalaşmışdır. Bu qaynaqlardan biri xalq yaradıcılığı -folklordur. Digər qaynaqlar isə Azərbaycan ədəbiyyatında üç böyük sənətkarın - Füzuli, Sabir və Səməd Vurğunnun yaradıcılığıdır. Milli zəminə, kökə, xalq ruhuna və xalq mənəviyyatına sadiq qalmaq, yalnız döğma xalqın istiqlalı naminə qələm çalmaq əqidəsi Bəxtiyar Vahabzadə yaradıcılığının əsas mahiyyətini təşkil edir. Bəxtiyar Vahazadənin poeziyası fəlsəfi olduğu qədər də poetikdir. Bu fəlsəfi poeziya təkcə təxəyyülün deyil, həm də təfəkkürün məhsuludur.

B.Vahabzadənin əsərlərində müasirlik hissi çox güclüdür. O, qələmə aldığı bütün ictimai-tarixi məsələlərə də insanın maddi və mənəvi ehtiyacları və tələbləri baxımından yanaşır. Elə fikirləri və hissləri diqqət mərkəzinə çəkir ki, onlar bu gün insanı düşündürən, həyacanlandıran fikir və hisslərdir. Bəxtiyarın qəhrəmanları həyatı, mübarizəni, gözəlliyi, vicdanı, həqiqəti sevən? bu uğurda vuruşan adamlardır.

B.Vahabzadə cəmiyyətin sosial ab-havasını, bu günün əxlaq və mənəviyyat qatlarını, bəşəri sual-problemləri, tarixin və çağdaşlığın ortağı kimi cilalanmış, sınanmış səviyyələrdən dəyərləndirir. Onun lirik-fəlsəfi yaradıcılığına mövqe və dünyagörüşü aydınlığı, konsepsiya tamlığı, poetik-həyati əqidənin dəyişməzliyi xasdır.

B.Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Milli və beynəlmiləl münasibətlər problemi günümüzün canlı mübahisələrə çevrilən məsələlərindən biridir və bu problem öz mütərəqqiliyini, obrazlılığını, nadir əhatəliliyini və məhsuldarlığını bir daha Vahabzadə yaradıcılığında tapıb.

Hələ neçə-neçə əsrlər sonra da Bəxtiyar Vahabzadə yaradıcılığının böyüklüyü öz oxucularını heyrətləndirəcək və xalqımız yetişdirdiyi ölməz sənətkarı ilə həmişə fəxr edəcəkdir.

# BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA MİLLİ RUHUN AŞILANMASI.

***Muradova Şəfa***

*ADPU, Məhəmməd Füzuli adına*

*Əlyazmalar İnstitutunun dissertantı*

Xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarıxinə "Şəbi-hicran", "Gülüstan", "İstiqlal", "Muğam", "Şəhidlər" kimi poemaları, "Aərbaycan oğluyam", "мətən marşı" "Ana dili", "Ana hədiyyəsi", "Vətəndən Vətənə" kimi dillərdə əzbər olan şeirləri, hekayə, dram yaradıcılığı və publisistik məqalələri ilə özünəməxsus yer tutur.

Xalq şairi Bəxtiyar Vahabzadənin həyat amalı millətin dərdini çəkmək, problemlərinin həlli yollarını axtarmaq olmuşdur desək, yanılmarıq. Əlizadə Əsgərlinin sözü ilə desək, B. Vahabzadə torpaq, vətən və millət dərdindən daha çox yazan şairimizdir...

Şair bunun üçün şeirlərində milli ruhun aşılanmasını əsas yol kimi götürmüşdür.

Ey Vətən oğlu, bil ki sənindir bu Vətən,

Sabahın, həm bu günün, həm dünənindir bu Vətən

deyərək gənc nəsli Vətən üçün, yurd üçün, millət üçün yaşayıb-yaratmağa, çalışmağa səsləmişdir. Fikrimizi Səməd Məlikzadənin sözü ilə təsdiqləyə bilərik: "Qeyd edək ki,Vətən, torpaq və xalq təəssübkeşliyi Bəxtiyar Vahabzadə yaradıcılığının həmişə aparıcı xətti olmuşdur. Şairin amalı xalqının hər fərdini bir-birinə bağlamaq, sevgi bağları ilə birləşdirməkdir."(5,56)

B. vahabzadə hələ gənc yaşlarında, 1959-cu ildə yazdığı "Gülüstan" poemasında- bildiyimiz kimi bu poemanı yazdığına görə xalq şairi "millətçi" damğası altında Universitetdən qovulmuşdur- Sovet imperiyasının xalqımızın milli-mənəvi dəyərlərini tapdamasını əks etdirmişdir.

"Azərbaycan oğluyam", "Biz Vətənçün doğulduq", "Vətəndən Vətənə", "Vətən marşı","Şair-Vətən" , "Fikir qanadlarım", "Anamın kitabı" və bu siyaının sayını artıra biləcək bir çox şeirləri Bəxtiyar Vahabzadə yaradıcılığının milli ruhun keşiyində durmasına göstərdiyi xidməti təsdiqləyir.

Azərbaycan tarixində qanla yazılan səhifələr çoxdur. Bu qanlı tarixin bir günü də 1990-ci ilin 20 yanvarıdır.

Bəxtiyar Vahabzadə bu faciəyə „Şəhidlər," adlı poema həsr etmişdir. Şair bu poemada təkcə şəhidlərdən danışmır, həm də hər misrasında xalqın qəzəbini, kinini, 70 illik əsarətin mənəviyyatlara hopdurmaq istədiyi yaddaşsızlığı, biganəliyi, laqeydliyi, bu əsarətdən qurtulmaq üçün millətin meydan mübarizəsini əks etdirmişdir. Burada professor ramazan Qafarlının böyük sənətkar haqqında dediyi fikri nümunə gətirmək istərdik: "Sözü gülləyə çevirən Bəxtiyar bəzən bəlanın böyüklüyündən doğan sorğularının cavabsız qaldığını görür, lakin acizləşib əyilmir, dünyanın özünə qarşı üsyan qoparır"(5, 38)

Poemanın "Axı biz neyləmişdik" başlıqlı hissəsində az sözlə böyük bir millətin acınacaqlı taleyindən doğan fəlakəti özünəməxsus şəkildə qələmə almışdır:

..."Axı biz neyləmişdik?"

Bu ittiham, bu sual
Məktəbli Larisanın
Qara lentə tutulmuş
Partasında səslənir.
“Axı biz neyləmişdik?”
Günahsız qurbanların
başdaşında səslənir.
Onların yetim qalan
Körpə balalarının
Dünyadan haqq istəyən
göz yaşında səslənir.
...Sərvəti talan olmuş,
Düz sözü yalan olmuş
Böyük bir məmləkətin
Göygölündə səslənir,
Şahdağında səslənir...(7,291)

Azərbaycan poeziyasında vətənpərvərlik və vətəndaşlıq ruhunun qüvvətlənməsində, şeirimizin sənətkarlıq imkanlarının genişlənməsində, təzə, təravətli təsvir və ifadə vasitələrilə zənginləşməsində, təsir dairəsinin vüsətlənməsində şairin xüsusi xidmətləri vardır. (5,35)

“Şəhidlər” poeması Bəkir Nəbiyevin Bəxtiyar Vahabzadə haqqında dediyi bu fıkrə bariz nümunədir.

Böyük sənətkarın “Şəhid anası” şeiri böyük bir millətin qaysaq bağlaya bilməyən yarasından dillənir. Azərbaycan torpaqlarının haqsızlıqla işğal olunub xalqın köksünün cavabsız suallarla dolu inlədiyi bir zamanda qələmə alınan bu şeir təkcə millətin dərdindən xəbər vermir, həm də dövrün ictimai-siyasi mənzərəsini canlandırır, eyni zamanda Vətən övladını ayıltmağa çalışır:

O hələ bilmir ki, açar bildiyi
Düşmür kilidlənmiş daş ürəklərə.
Bəsdir təsəlliyə könül verdiyi,
Döyür qapıları o nahaq yerə.
-Şəhid anasıyam!- Naləyə bir bax!
Bu nalə bir qəlbi yumşaltmır ancaq.
Biz niyə həmişə özgəyanlıyıq
Amma özümüzə soyuqqanlıyıq?(6,142)

Asəf Quliyev xalqın iztirabını misralarında döyündürən şairin qələmindən çıxan kəlmələrə istinad edərək onu haqlı olaraq millətin vəkili adlandırmışdır.

Mən həm bakılıyam, həm lənkəranlı,

Gəncəli, qubalı, həm naxçıvanlı,

Şəkili, şirvanlı, qarabağlıyam,

Bütöv Vətənimə bütöv bağlıyam...(6,73)

Bu misralarda şair yuxarıda qeyd olunan fikri bir daha təsdiqləyərək, yurddaşlarını bir olmağa, onsuz da başqaları tərəfindən zaman-zaman parçalanmağa məruz qalan bu eli bir də öz içimizdə bölməməyə çağırır.

Başqa bir şeirində ikiyə ayrılmış Azərbaycanın dərdi belə ifadə olunur:

Qəmin də tamını istəyən oğul,

Bəs yarı Vətəndə necə yaşarsan?(6,55)

B.Vahabzadə bir çox şeirlərində Vətən həsrətinin yanğılı bir fəryadla tərənnüm etmişdir. Bu fəryadın kökü Azərbaycan torpağının ikiyə bölündüyü gündən qaynaqlanır. Bu fəryad cənub həsrətli ana bacıların, bir birinə həsrət bir ömrü başa vuran ata oğulun fəryadından doğmuşdur. Şair bunu belə tərənnüm edir:

Bu xalq əzəl gündən düşüb zillətə,

Öz doğma yurdunda yoxsa kölədir?

Necə ayırdınız dırnağı ətdən

Ürəyi bədəndən canı cəsəddən?

Axı kim bu haqqı vermişdir sizə,

Sizi kim çağırmış Vətənimizə?

Neçə vaxt səngərdə hey ulaşdılar,

Gülüstan kəndində sövdalaşdılar

Bir ölkə ikiyə ayrılsın deyə...

Və bu fəryadı bu ulu torpağın ulu hökmdarının harayına birləşdirərək deyir:

Göy də buludlamış deyirlər o gün

Çölləri, düzləri buludlar sarmış

O göy gumultusu Oğuz xaqaqnın

Ruhuymuş, hönkürüb fəryad qoparmış(7,78)

Bu müqaviləni bir damcı mürəkkəb kəlməsi iklə ifadə edən şair

Onun ağırlığının ölçüsünü də verə bilir
Bir damcı mürəkkəb bir vətəndaşı
Qanına bulayıb ikiyə böldü,
Bir damcı mürəkkəb olub göz yaşı
İllərlə gözlərdən axdı, töküldü.

Hökmü gör nə qədər böyükmüş anın
Möhür də basdılar varağa təkrar
Yox,varağın deyil, Azərbaycanın
Köksünə dağ boyda dağ basdı onlar.(7,79)

Bir millətin qismətinə nə qədər ağır tale düşürsə, o millətin yazarının çiyninə də bir o qədər ağır yuk düşür. Çünki bir yazar qələmindən həsrət, nisgil tərənnumtək süzülürsə, o tək bir nəfərin deyil, bütöv bir xalqın ürək səsi, naləsi, etirazı, üsyanıdır.

Bu üsyan Bəxtiyar qələmində daha geniş fonda verilir:

Hanı sormadılar bəs yarı canın-
Niyə ucaltmırsan üsyan səsini?
Niyə görməmişik Azərbaycanın
Bir yerdə biz bütöv xəritəsini?!(7,134)

Bir də qanla səhifələnmiş tariximizə nəzər salaq. Hələ qəlbimizdən ikyə bölünmüş Vətən həsrəti getməniş daha bir nisgil şeirlərimizdə korun-korun yanmağa başladı Qarabağ nisgili... Vətənimizi sinəsində neçə - neçə Şəhidlər xiyabanı adlı şırım-şırım yaralar açan Qarabağ dərdi...Bu elin qaçqın dərdi, köçkün dərdi, itkin dərdi Bəxtiyar qələmində bir də dilləndi:

Bu bahar oxuma bülbül, sən Allah,
Zülmətdir, yoluna şam tutanın yox
Şuşan ağlar qaldı, köçdü el- oba
Şirin cəh – cəhinə dəm tutanın yox
Sən cıdır düzündə cəh- cəh vuranda
Qədir hay verərdi sənə bir anda
İndi bu dağlardan didərgin olduq(6,135)

Tarixdən məlum olduğu kimi, Azərbaycan yerləşdiyi ərazi baxımından yarandığı gündən zaman-zaman işğallara, məhrumiyyətlərə düçar olmuşdur. Ona görə də bu qəbildən olan millətlərdə milli-mənəvi dəyərlərin qorunması daha vacib amildir.

Biz bu gün qürur hissi ilə qarşılarında baş əyərək andığımız şəhidlərimizin, igid döyüşçülərimizin qəhrəmanlığı sayəsində illərlə həsrətində olduğumuz Qarabağımızın geri alınmasını buna nümunə gətirə bilərik.

Bəxtiyar Vahabzadə də minlərlə ziyalımız kimi, bunu bilmiş və yuxarıda da qeyd etdiyimiz kimi yaradıcılığının böyük hissəsini milli ruhun aşılanmasına həsr etmişdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Əsgərli Ə. Bəxtiyar Vahabzadə poeziyasının sirri, Azərbaycan"qəzeti 24 avqust, 2020

2. Qafarlı R. Bəxtiyar zirvəsi, Xalq qəzeti, 27 sentyabr, 2000-ci il № 220 s.5

3. Qarayev Y. Salmanov Ş. Poeziyanın kamilliyi, Bakı, 1985

4. Soltanqızı P.Bəxtiyar hekayələrində mənəvi tərbiyənin insan taleyində rolunun bədii ifadəsi, Pedaqoji Universitetin xəbərləri, Bakı, ADPU, 2015, №3

5. Türk dünyasının Bəxtiyarı, Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu, I hissə, Bakı, 2002

6. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə, I cild, Bakı, 2004

7. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə, II cild, Bakı, 2004

# A COMPREHENSIVE SURVEY OF HERPETOFAUNA AT THE GORAI MANGROVE SWAMPS IN THE MUMBAI COASTLINE, INDIA

***Vidya PADMAKUMAR[1*], Shine P JOSEPH[2]***

*Department of Studies and Research in Biosciences, Mangalore University, Mangalagangotri,*

*Mangalore, Dakshina Kannada, Karnataka, India*

*[1*]ORCID ID 0000-0002-3830-4232*

## ABSTRACT

Mangroves are coastal forest developments that are surrounded by riverine areas and salt water that is swamped often by tides. Mangroves, which grow in the intertidal zone and at the mouth of estuaries, provide vital biome for a wide range of marine and terrestrial plant and animal life. Wetlands are essential for a healthy maritime ecosystem. Between May 2017 and June 2018, a comprehensive survey of the Gorai Mangroves' herpetofauna species composition was attempted. The study's aim was to find out how diverse the herpetofauna is across the broader mangrove forests. Amphibians (frogs and toads), as well as reptiles (lizards), were identified in a terrestrial transect using active searches and personal monitoring, while reptiles (snakes) were randomly gathered during the survey. The findings reveal three amphibian families: Bufonidae, Ranidae, and Rhacophoridae, with a total of 13 species. Ophids (serpents), Saurians (lizards), and Testudines were among the reptile species encountered. Twelve species from four families, Gekkonidae, Agamidae, Varanidae, and Scincidae, dominated the order Sauria. Seven non-poisonous, four semi-venomous, and six venomous snake species were found in the Serpentes order. With six species representing four non-venomous and three semi-venomous snakes, Colubroids dominated the ophids. Only one species, *Lissemys punctata*, was found in the Testudines (Trionyx). Because of the proximity to the sea, the population of herpetofauna at the sites is rather modest, despite the fact that these animals are tough to locate owing to their unique characteristics.

**Keywords:** Gorai, mangroves, herpetofauna, amphibians, ophids, saurians

# THE STUDY OF SUICIDE IN PERSIAN FOLK TALES

***Mahboubeh Khorasani Ph.D.***

*Associate Professor, Persian Language and Literature Dept., Najafabad Branch,*

*Islamic Azad University, Najafabad, Iran.*

## ABSTRACT

Suicide is one of the reactions of each person to his/her psychological pressures that to escape from these pressures, the person chooses among the various solutions to eliminate his/herself. In fact, suicide is the last resort for someone who is not able to resist the worries and emotional excitement and troubles of life. This action has long been reflected in myths and legends, and fictional characters have made this choice in the ups and downs of the story. The roots of suicide, its reasons and the reflection of its result in the plot of the story are among the unknowns that this article tries to answer. This study has been done by descriptive-analytical method and its statistical society is a collection of folk tales which has been collected in 19 volumes in the book of Collection of Legends of the Iranian People. The sample size of this research is all types of stories in which at least one of the characters in the suicide commits suicide or there is talk of suicide in the plot. So, the main question of our research is in which stories and by which characters do the most suicide statistics occur? The result is that suicide is usually the highest frequency in love stories, and it is done by people who are involved in a love affair and there are obstacles to reaching their lover. The lover commits suicide when he becomes frustrated with his beloved or the psychological pressures on him become too strong.

**Keywords**: Folk tale, Persian literature, suicide.

# RESEARCH IMPLICATIONS OF TRIANGULATION IN EXPERIMENTAL REASEARCH

***Jelena S. Osmanović Zajić***

*University in Nis, Faculty of Philosophy, Department of Pedagogy, Serbia*

*ORCID: https://orcid.org/0000-0002-2289-9438*

***Jelena Ž. Maksimović***

*University in Nis, Faculty of Philosophy, Department of Pedagogy, Serbia*

*ORCID: https://orcid.org/0000-0001-8356-0211*

## ABSTRACT

Experimental pedagogical research deals with the study of cause-and-effect relationships and seeks to systematically and systematically determine the effects of pedagogical procedures. The data show that this type of research can include a large number of different or somewhat contradictory hypotheses. One of them is that pedagogical experiments can be applied only with the help of quantitative methodology, statistical indicators and a strict distinction from the qualitative paradigm. In addition to quantitative and qualitative methodology, there is a mix method known as "triangulation" that seeks to mitigate the positivist approach in the pedagogical and other social sciences. Quantitative data are used to answer research questions, and theories can be reported by real experiments or less rigorous quasi-experiments about which very little is known as well as in their practical applicability. In this paper, we have tried to point out the pedagogical implications of mix methodology and application goals of conducting experimental and quasi-experimental research, as well as the potential for this type of pedagogical research to be conducted by a combination of different methods, techniques and instruments. This article tries to answer the question "*why are research trials based on triangulation important*"? Practitioners cannot always easily determine the suitability of certain methods, data collection and analysis, which is a necessary step for a quality interpretation of research findings. Also, teachers and practitioners often conduct certain types of experimental research without even being aware of it. This paper points out the importance of the triangulation procedure in experimental studies and affirms the possibilities of flexibility of research paradigmatic research frameworks that can offer quite practical findings that can improve the work of all those involved in education. The paper uses the method of theoretical analysis with the technique of content analysis.

**Keywords**: Mix method, triangulation, experimental research, paradigmatic debate, pedagogical implications

# THE WOMAN AS A WIFE AND MOTHER TO A *VIRTUOUS* MAN: REREADING PROVERBS 31:10-31 FROM THE REPORT ON MARITAL INSTABILITY AND DOMESTIC VIOLENCE IN SUB-SAHARAN AFRICA

***Favour C. Uroko***

*Department of Religion and Cultural Studies,*

*Faculty of the Social Sciences*

*University of Nigeria, Nsukka*

## ABSTRACT

I review the nexus of Proverbs 31:10–31, marital instability, and domestic violence in Nigeria. Traditionally, the qualitative literature has focused on marital instability, domestic violence, and divorce in Nigeria, with specific reference to sociology, psychology, economics, and health. Literature on the link between these variables from a theological lens is scarce. In Nigeria, marriages are broken by violence and abuse, and they are broken by an abuser through abusive behaviour. Marriages are increasingly becoming unstable due to women's lack of higher levels of education and improved socioeconomic status. Women seem to have forgotten that mothers are the bedrock of the family and custodians of family traditions, while men seem to have forgotten that women are not slaves in the house. Nigeria is a developing nation where women contest rights balanced with men. What is seen in Nigeria is a convention or tradition where the husband wants to dominate, and as a result, marriages will collapse. Marital instability follows perceptions of low marital satisfaction or necessarily results in the termination of a marriage. The effect is seen in the increasing death rate among couples and also children, which has becomea disturbing factor in society. Proverbs 31:10-31 is believed to speak anew to these challenges. I outlined the theoretical arguments put forward by this literature, provided case studies of marital instability and divorce, and thereafter explored the nexus between the text and the context.

**Keywords**: Marriage, Marital instability, divorce, domestic violence, Proverbs 31:10-31, Gender

# *GUPUH, ARUH, RENGKUH, LUNGGUH, AND SUGUH* AS THE BUSINESS PHILOSOPHY FOR GAINING COSTUMERS' SATISFATION (LEARNING VALUE FROM JAVANESE PEOPLE IN INDONESIA)

***Bambang SEPTIAWAN***

*Balitar Islamic University, Faculty of Economics, Department of Management, Blitar, Indonesia.*

*ORCID ID: https://orcid.org/0000-0003-0865-6293*

## ABSTRACT

The purpose of this study is to explore about *gupuh, aruh, rengkuh, lungguh, and suguh* as the main point that has to be applied seller for gaining costumers' satisfaction for improving the sales turnover, learning from javanese value. It absolutely has a significant role in business as the seller. It is not only has the great product or services but also it needs an ethics that can make costumers feel comfortable and happy for having transaction in a business. Many people in business mostly focus on earning money and they don't remember the costumers' is a human that requires to be treated well. Sometimes, modern business fogets about the ethics or value. For example in fast food restaurant normally costumers take the food by theirselves and it is essencially contrary with the right service philosophy that costumers are the king then whatever they want, seller must be deliver to them. Moreover, the javanese value can be analyzed and make it as the strategy to satisfy the costumers. Therefore, business not only money but also treats costumers humanly. This study is included in qualitative and employed literature study approach from alot of resources related to javanese value about *gupuh, aruh, rengkuh, lungguh, and suguh* that can be adobted for business philoshophy in gaining costumers' satisfaction. The result of this study shows G***upuh*** means rushing and enthusiastic when receiving or welcoming customers. ***Aruh*** means to say hello, that is, we have to open up through conversation so that the customers don't feel awkward expressing their intentions and goals openly. ***Rengkuh*** means graciously accepting someone's presence, even though it is not expected. ***Lugguh*** means to invite someone to come in immediately and have a seat. The last ***Suguh*** means to give a treat or a modest dish or best service for the costumers.

**Keywords:** business ethic, costumers' satisfaction.

# YETKİNLİK YAŞINA ÇATMAYAN UŞAQLARDA OLAN DAVRANIŞ POZUNTULARI VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

ПОВЕДЕНЧЕСКИЕ РАССТРОЙСТВА У НЕСОВЕРШЕННОЛЕТНИХ И ПУТИ ИХ УСТРАНЕНИЯ

BEHAVIORAL DISORDERS IN MINORS AND WAYS TO ELIMINATE THEM

***R.N.Qasımova***

*ADPU-nun ümumi psixologiya kafedrasının baş müəllimi*

**Açar sözlər:** deviant davranış, assosiallıq, korreksiya

**Ключевые слова:** девиантное поведение, асоциальность, коррекция

**Keywords:** deviant behavior, antisociality, correction

## XÜLASƏ

Tezisdə yetkinlik yaşına çatmayan uşaqlarda olan davranış pozuntuları, onları yaradan səbəblər haqda məlumat verilmişdir. Deviant davranışı aradan qaldıran üsul və vasitələr göstərilmişdir.

## РЕЗЮМЕ

В тезисе представлена информация о нарушениях поведения у несовершеннолетних и их причинах. Показаны методы и средства устранения девиантного поведения.

## ABSTRACT

The thesis provides information on behavioral disorders in minors and their causes. Methods and means to eliminate deviant behavior are shown.

Bu gün cəmiyyətimizdə baş verən dəyişikliklər, bir sıra problemləri gündəmə gətirir Bu problemlərdən biri də yetkinlik yaşına çatmayan uşaqlarda olan davranış pozuntusu və onun korreksiyasıdır. Davranış pozuntularının səbəbi kimi çox zaman siyasi, sosial, iqtisadi və ekoloji qeyri-sabit cəmiyyət, ailə-məişət problemləri, davranış üzərində nəzarətin olmaması, valideynlərin həddindən artıq məşğul olması, boşanmaların çoxalması göstərilir.

Yetkinlik yaşına çatmayan davranış pozuntusu olan uşaqların narahatedici simptomları assosial konfliktli və aqressiv davranışlarda, destruktiv hərəkətlərdə, təlimə marağın olmamasında və s.-də özünü göstərir. Davranış pozuntusuna səbəb kimi valideyn və müəllimlərin uyğunsuzluğu, valideynlərin öz övladlarına səhv yanaşmağını, onları düzgün tərbiyə etməməyini və s. bu kimi amilləri göstərmək olar.

Deviant davranışın xüsusiyyətləri ilə əlaqədar xarici ölkə psixologiyasında müəyyən tədqiqat işləri, kitab və məqalələr mövcuddur. Bunlara Amerika və Qərbi Avropa alimlərindən Jan Piaje, Melvin Rouz və başqalarınn tədiqqatlarını göstərmək olar.

Rusiya alimlərinin tədiqqatlarında da davranış pozuntusu fenomen kimi tədqiq olunur (S.A.Beliçeva, A.S.Belkin, N.V.Vasilyeva, E.L.Qriqorenko, L.M.Zurbin və b.).

Azərbaycan psixologiyası elmində deviant davranışın psixoloji xüsusiyyətləri A.İbrahimov, H.Xəlilov və b. tədqiqatlarında araşdırılır.

Psixo-pedaqoji tədqiqatlar göstərmişdir ki, yetkinlik yaşına çatmayan bir çox uşaqların müxtəlif problem və çətinlikləri olur. Bu problem və çətinliklər içərisində davranış pozuntusu və ya deviant davranış aparıcı yeri tutur.

Psixiatrik ədəbiyyatlara əsasən, davranış özünü aparmanın psixi və fiziki qaydasıdır. Bununla bağlı deviant davranışa təkrarlanmış dayanıqlı hərəkətlər və davranışlar kimi baxılır və əsasən qeyri-sabit davranışın aqressiv və destruktiv hərəkətlərini özündə ehtiva edir.

Yetkinlik yaşına çatmayan uşaqlarda olan davranış pozuntusunun əsas diaqnostik meyarları oğurluq, evdən qaçma, yalan söyləmə, dərsdən yayınma halları, vandalizm, insanlara hücum, başqalarının əmlakına ziyan yetirmək, fiziki və seksual zorakılıq, insanlara və heyvanlara qarşı qəddarlıq hesab olunur.

Psixoloji ədəbiyyatda deviant davranışın qeyri-patoloji və patoloji növlərini ayırd edirlər. Qeyri-patoloji deviant davranış – sağlam insani davranışında olan psixi pozuntudur. Deviant davranışın patoloji forması – şəxsiyyətin patologiyası ilə bağlı olub, uşaq və yeniyetmə psixiatriyasında daha çox rast gəlinən problemdir.

Yetkinlik yaşına çatmayan uşaqlarda davranış pozuntularına təsir edən sosial-psixoloji amillər aşağıdakılardır: iradəsizlik, inadkarlıq, vahimə, qorxu, həyəcan və s.

Tədqiqatlar göstərir ki, davranış pozuntusu olan məktəblilər assosiallığı ilə fərqlənir. Həmin uşaqlarda introvertlik, qapalılıq müşahidə olunur.

Yetkinlik yaşına çatmayan uşaqlarda olan davranış pozuntularını aradan qaldırmaq üçün aşağıdakı müxtəlif üsul və vasitələrdən istifadə olunmalıdır: onlarda adekvat özünüqiymətləndirmənin formalaşmasına nail olmaq; öz qabiliyyət, şəxsi keyfiyyətlərini dərk etməyə imkan yaratmaq; stress və aqressivliyin səbəblərini müəyyənləşdirilib, müəyyən tədbirlər görmək; uşaqlarda olan fobiyaların səbəblərini aradan qaldırmaq.

Yuxarıda deyilənləri nəzərə alaraq valideyn və müəllimlər yetkinlik yaşına çatmayan uşaqlarda olan deviant davranışı aradan qaldırmaq üçün bütün səylərini göstərməlidirlər.

İstifadə olunan ədəbiyyatlar:

1. H.Xəlilov. “Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri”. Şərq-Qərb, Bakı, 2012.

2. “Yansıtma” jurnalı № 4, 2005

3. Беличева С.А. Основы превентивной психологии. М., 1993.